Xalqın qəzeti!

# Xalq qəzeti

№ 76 (30770) 18 aprel 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## "Qafqaz evi" yeni perspektivlər vəd edir



**2025-ci ilin 15–16 aprel tarixlərində Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin ilk rəsmi xarici səfərini Azərbaycana etməsi təsadüfi deyildi. Protokol səviyyəsində bu diplomatik tədbir geosiyasi kontekstdə regionda illərdir unudulmuş bir konsepsiyanın – "Qafqaz evi"nin yenidən gündəmə gəlməsinə səbəb oldu. Kavelaşvilinin Bakıya ilk səfəri diplomatik jest olaraq Azərbaycanın regional siyasətdəki açar roluna, sabitliyə verdiyi töhfəyə və gələcək əməkdaşlıq imkanlarına verilən strateji önəmin ifadəsidir.**

Gürcüstan Prezidentinin ilk xarici səfərini məhz Bakıya etməsi Azərbaycanla münasibətlərin yüksək səviyyədə olduğunu göstərməklə yanaşı, regional inteqrasiya istiqamətində də mühüm mesajlar verir və Tbilisinin Bakını regional sabitliyin və əməkdaşlığın mərkəzi kimi qəbul etdiyini göstərir. Azərbaycan Prezidentinin son çıxışlarında Gürcüstanla tərəfdaşlığın "xüsusi strateji əhəmiyyətə" malik olduğu vurğulanmışdı və bu səfər də bu yanaşmanın qarşılıqlı şəkildə qəbul olunduğunu sübut etdi.

(ardı 3-cü səhifədə)

## Azərbaycan–Çin tərəfdaşlığı geniş coğrafiyada əməkdaşlığa meydan açıb

### Prezident İlham Əliyev Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən dövlətimizin başçısı ötən il Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü və onunla birlikdə ölkələrimizin strateji tərəfdaşlığına dair birgə bəyanatın qəbul edilməsini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əməkdaşlığın geniş sahələri - siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər sahələri əhatə etdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığına toxunaraq, qarşılıqlı dəstəyi qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğuladı.

"Bir kəmər, bir yol" layihəsinin geniş coğrafiyada ölkələri bir araya gətirərək, əməkdaşlığı təşviq edən layihə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın Çinin bu təşəbbüsünə dəstək verən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Azərbaycanda bütün zəruri infrastruktur layihələrinin yaradıldığını və bir neçəsinin də icra mərhələsində olduğunu vurğulayan Prezident İlham Əliyev Orta Dəhlizin inkişafı baxımından ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu bildirdi.

Səfir Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini dedi. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Səfir ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, əlaqələrimizin bundan sonra da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Çin-Azərbaycan münasibətlərinin inkişafında Ulu öndər Heydər Əliyevin roluna toxunan Lu Mey ümummilli liderin zəngin irsinin əsasında ölkəmizin bu gün uğurla inkişaf etdiyini vurğuladı.

## Üçtərəfli görüş nəticə verəcəkmi?

*Cənubi Qafqaz respublikaları diplomatlarının Tbilisi müzakirəsi*

**Azərbaycan, Gürcüstan və Ermənistan Xarici işlər nazirlərinin müavinləri – Elnur Məmmədov, Laşa Darsaliya və Vaan Kostanyan Tbilisidə görüşdülər. Məqsəd regional əməkdaşlıq imkanlarını dəyərləndirmək idi.**

Əlbəttə, mövzu, ilk növbədə, Bakı – İrəvan münasibətlərinin tənzimlənməsini nəzərdə tuturdu. Odur ki, üçtərəfli təmasa Gürcüstanın qeyri-formal vasitəçiliyi kimi yanaşmaq mümkündür. Görüşü pozitiv qiymətləndirməyimizə səbəb daha bir amil Azərbaycanın, Gürcüstanın və Ermənistanın Cənubi Qafqazla bağlı məhz regional məşvərətə üstünlük verməleridir.

Nazir müavinlərinin Tbilisi görüşünün Cənubi Qafqazda bilavasitə regional əməkdaşlıq kimi mühüm məsələyə fokuslanmasının özü də müsbət haldır. Çünki mövzu prinsipial əhəmiyyətə malikdir. Prinsipiallığı şərtləndirən başlıca məqam isə regional kommunikasiyaların açılmasıdır. Bu baxımdan Azərbaycanın mövqeyi aydındır. Ölkəmiz Naxçıvana maneəsiz yol məntiqində israrlıdır. Elə bir yol ki, orada gömrük və sərhəd nəzarəti olmasın.

Azərbaycan məsələyə Orta Dəhlizin tərkib hissəsi olan Zəngəzur dəhlizi kontekstində yanaşır. Bunu Xarici işlər naziri Ceyhun Bayramov da dünən sloveniyalı həmkarı Tanya Fayonla birgə mətbuat konfransında vurğulayıb. Cənab Bayramov bildirib ki, məsələ ətrafında danışıqlar intensiv gedib, lakin əməli nəticə yoxdur. Nazirin sözlərinə



görə, Azərbaycan mövcud istiqamətdə irəliləsə də, Ermənistan razılaşmanın icrasını təmin etməyib: "Azərbaycan ümumi kommunikasiyaların açılmasına əlavə olaraq, qərb bölgələri ilə Naxçıvan arasında əlaqənin qurulmasına xüsusi yanaşma tələb edir. Çünki belə hal yoxdur ki, bir ölkə iki hissəyə parçalanmış olsun. Mən bunun tarixi aspektlərinə toxunmaq istəmirəm. Ermənistan hələ 2020-ci ildə maneəsiz keçid üzrə öhdəlik götürüb (44 günlük müharibəyə son qoyan, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat nəzərdə tutulur – red.) və bu yerinə yetirilməlidir. Azərbaycan üçün bu keçid, sözün əsl mənasında, maneəsiz olmalıdır, heç bir maneə olmamalıdır. Bu elə bir öhdəlik olmalıdır ki, Ermənistanın qanunvericiliyində hər hansı gələcək dəyişikliklər bu vəziyyəti qısa, uzun və ya orta perspektivdə dəyişmək imkanı yaratmasın. Çünki biz bunu bir dəfə yaşamışıq. Sovet dönəmində bizim maneəsiz keçidimiz var idi, amma bu pozuldu və 300 mindən çox əhalisi olan bölgə blokada şəraitində qaldı. Hər hansı siyasi konfiqurasiyanın dəyişməsi elementlərindən asılı olmayaraq, sərbəst və maneəsiz keçidin təmin olunmasını Azərbaycan gözləyir və bu istiqamətdə səylərimiz davam edir".

Göründüyü kimi, Azərbaycan dövləti prinsipial yanaşmasına sadiqdir. Ermənistan isə özünün "Dünyanın kəsişməsi" ideyasında israrlıdır. Baş nazir Nikol Paşinyanın jurnalistlərə sonuncu açıqlamasında bildirdikləri də bunu söyləməyə əsas verir. Paşinyanın nələrdən söz açdığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə bir məqama nəzər salaq.

(ardı 5-ci səhifədə)

## Aİ missiyasının daha bir təxribatı

*Azərbaycanla şərti sərhəddə patrulların sayını artırmaqda məqsəd nədir?*



**Ermənistan–Azərbaycan şərti sərhədində yerləşdirilmiş Avropa İttifaqının adı mülki, özü yarımhərbiləşdirilmiş dəstə olan missiyası müntəzəm və gecə patrullarının sayını artırıb. Bu barədə Avropa İttifaqının (Aİ) xarici əlaqələr xidmətinin saytında dərc edilən bəyanatda bildirilib.**

Qeyd edilib ki, patrulların sayının artırılmasında məqsəd "sərhədboyu ərazilərdə potensial gərginliyi azaltmaq"dır. Bildirilib ki, missiyanın mövcudluğu 24 saat ərzində davam edir. Müşahidəçilər vəziyyətlə bağlı daimi məlumatlılığı artırmaq və yerli əhali arasında təhlükəsizlik hissini formalaşdırmaq üçün gecə-gündüz işləyirlər.

Xidmətin yaydığı bu açıqlamadan aydın olur ki, missiyanın bölgədən çıxıb getməsi bir yana qalsın, onun fəaliyyəti də səngimir. Əksinə, daha da gücləndirilir. Bu vəziyyət isə nəinki bölgədə sülh və sabitliyin yaranmasına töhfə verir, əksinə etimad mühitinin yaranmasına imkan vermir.

(ardı 5-ci səhifədə)

## "Buzlaşma"dan yumşalmaya



**Məsud Pezeşkianın Azərbaycana gözlənilən səfəri Bakı ilə Tehran arasında uzun müddət gərgin keçən münasibətlərin qarşılıqlı anlaşma ilə müşayiət olunacaq növbəti, həm də pozitiv mərhələyə keçidini şərtləndirə bilər. Səfərin konkret tarixi açıqlanmasa da, onun geosiyasi, diplomatik və iqtisadi cəhətdən böyük əhəmiyyətə malik konturları aydın görünməkdədir.**

(ardı 4-cü səhifədə)

## Ermənistan üçün yeni konstitusiya – referendum, yoxsa...



Səhifə ⇨ 3

## Azərbaycan müasir infrastrukturlu tranzit ölkədir



Səhifə ⇨ 7

## Aqrar sahə ilə uğurla başlayıb



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev Sloveniyanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul edib.**

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu yaxınlarda xarici işlər nazirləri səviyyəsində aparılan siyasi məsləhətləşmələr qeyd edildi.

Dövlətimizin başçısı Azərbaycanın Balkan ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi.

Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunuldu və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi-ticari münasibətlərimizin genişləndirilməsi üçün iki ölkənin biznes dairələri arasında əlaqələrin inkişafının vacibliyi vurğulandı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti qeyd edildi. Bu dəhlizin Avropa ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişafında mühüm nəqliyyat arteriyalarından biri olduğu bildirildi və bunun Sloveniya şirkətləri üçün də əlverişli imkanlar yaratdığı vurğulandı. Bu xüsusda, Azərbaycanın və Sloveniyanın limanları arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” 2017-ci il 6 noyabr tarixli 1665 nömrəli, “Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında” 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli fərmanlarında və “Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi və “Azərbaycan alüminiumu” (“Azəralüminium”) Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2021-ci il 9 aprel tarixli 2570 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiqi və Azərbaycan Respublikası Prezidentinin “N.Ə.Əmirovun “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında” 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında” 2019-cu il 10 iyun tarixli 1226 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında” 2020-ci il 16 aprel tarixli 1989 nömrəli sərəncamlarının ləğv edilməsi barədə” 2021-ci il 4 dekabr tarixli 3025 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 431 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375) 1.45-ci bəndindən “və “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti” sözləri çıxarılsın.

**2.** “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 noyabr tarixli 1665 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2004 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1343 (Cild I); 2024, № 11, maddə 1196) ilə təsdiq edilmiş “Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı”nın 17-ci hissəsinin sonundan nöqtə işarəsi çıxarılsın və həmin siyahıya aşağıdakı məzmunda 18–20-ci hissələr əlavə edilsin:

“18. “Azərbaycan alüminiumu” Açıq Səhmdar Cəmiyyəti

19. “Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyəti

20. “Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti.”.

**4.** “Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi və “Azərbaycan alüminiumu” (“Azəralüminium”) Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 aprel tarixli 2570 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 341 (Cild I) 3-cü hissəsində “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinə” sözləri “Azərbaycan İnvestisiya Holdinqinə” sözləri ilə əvəz edilsin.

**5.** “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiqi və Azərbaycan Respublikası Prezidentinin “N.Ə.Əmirovun “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında” 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında” 2019-cu il 10 iyun tarixli 1226 nömrəli, “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında” 2020-ci il 16 aprel tarixli 1989 nömrəli sərəncamlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 dekabr tarixli 3025 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1440 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 aprel 2025-ci il**

## “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Latviya Respublikasının Dövlət Gəlirlər Xidməti arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il yanvarın 16-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Latviya Respublikasının Dövlət Gəlirlər Xidməti arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 aprel 2025-ci il**

# Milli Məclis sədrinin Sankt-Peterburqa işgüzar səfəri



**Milli Məclisin sədri Sahibə Qafarovanın Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri davam edir.**

Azərbaycan parlamentinin sədri Sahibə Qafarova aprelin 17-də Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura iclasında iştirak edib. Məclisdə ötən dövr ərzində assambleya çərçivəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər, həmçinin digər təşkilati məsələlər nəzərdən keçirilib. Spiker Sahibə Qafarova müzakirə olunan mövzular haqqında öz fikirlərini bildirib.

*

**Sahibə Qafarova səfəri çərçivəsində Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Tənzilə Narbayeva Daşkənd şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının uğurla təşkil olunduğunu vurğulayıb. Sahibə Qafarova Azərbaycan



rinin qəti iradəsi sayəsində ikitərəfli münasibətlərimiz yeni mərhələyə daxil olub və hazırda ölkələrimiz bir çox sahələrdə uğurla əməkdaşlıq edirlər.

Görüşdə “Azərbaycan Milli Məclisi ilə Özbəkistan Ali Məclisinin Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üçün praktiki tədbirlər planı”nda (Yol xəritəsi) cari il üçün nəzərdə tutulan tədbirlər haqqında geniş fikir mübadiləsi aparılıb.

Söhbət zamanı dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin dərinləşməsində ölkə başçılarının rolu xüsusi vurğulanıb. Qeyd edilib ki, Azərbaycan və Özbəkistan prezidentlə- və Özbəkistan parlamentləri səviyyəsində qarşılıqlı səfərlərin və yüksəksəviyyəli təmasların qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət etdiyini söyləyib.

***XQ***

# Tbilisidə üçtərəfli görüş




**Aprelin 17-də Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov, Maka Boçorişvili və Ararat Mirzoyanın təşəbbüsü ilə 3 Cənubi Qafqaz respublikaları arasında xarici işlər nazirlərinin müavinləri səviyyəsində üçtərəfli görüş keçirilib.**

İlk növbədə, görüşdə iştirak edən Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gürcüstan xarici işlər nazirinin müavini Laşa Darsaliya və Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan üç Cənubi Qafqaz ölkəsinin ilk üçtərəfli görüşünün keçirilməsini alqışlayıblar. Üç ölkənin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətə əsaslanan əməkdaşlıq potensialının imkanlarından hələ də tam şəkildə istifadə olunmadığı bildirilib.

Görüşün məqsədi regionda davamlı inkişaf və firavanlığı təşviq etmək naminə ümumi maraq daşıyan sahələrdə üçtərəfli əməkdaşlığı inkişaf etdirməkdir. Bununla yanaşı, müvafiq sahələrdə əməkdaşlıq ümumi problemlərin həllinə dəstək ola və nəticədə Cənubi Qafqaz regionunun uzunmüddətli sabitliyinə, sürətli inkişafına təkan verə bilər.

Açıq fikir mübadiləsi şəraitində keçən görüşdə potensial əməkdaşlıq sahələrinə dair baxışlar təqdim edilib.

Sonda iştirakçılar etimad quruculuğu və dialoqun daha yüksək səviyyəyə qaldırılmasına yol açmaq üçün ilkin mərhələ kimi qəbul edilən bu görüşün müsbət və konstruktiv atmosferdə keçdiyini qeyd ediblər.

***XQ***

# “Qafqaz evi” yeni perspektivlər vəd edir

## Gürcüstan Prezidentinin Bakıya rəsmi səfəri Cənubi Qafqazda yeni əməkdaşlıq arxitekturasının formalaşmasına önəmli töhfədir



**(əvvəli 1-ci səhifədə)**

“Qafqaz evi” ideyası ilk dəfə 1990-cı illərin əvvəllərində Cənubi Qafqazın müstəqillik qazanan dövlətləri arasında əməkdaşlığın yeni modelini formalaşdırmaq niyyəti ilə gündəmə gəlmişdi. Bu ideyanın əsas fəlsəfəsi region xalqları arasında qarşılıqlı anlaşma, birgə təhlükəsizlik arxitekturasının qurulması və regional əməkdaşlığın dərinləşdirilməsi idi. Lakin bu təşəbbüs meydana gəldiyi dövrdə mövcud reallıqla uzlaşmadı, çünki ideya sülh və etimada əsaslansa da, həmin dövrün şəraiti münaqişə və işğallarla xarakterizə olunurdu.

“Qafqaz evi”nin qarşısında dayanan ən ciddi maneələrdən biri Ermənistanın destruktiv və təcavüzkar siyasəti oldu. İrəvanın Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazilərini – Dağlıq Qarabağ və ətraf 7 rayonu – hərbi işğala məruz qoyması regionda etimad mühitini dağıtdı. İşğal yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün strateji sabitliyi pozdu. “Qafqaz evi” kimi əməkdaşlıq və ortaq gələcək vədləri verən ideya bir tərəfin digərinə qarşı açıq hərbi aqressiyası fonunda davam edə bilməzdi. Hərbi işğal nəticəsində Ermənistan regional layihələrdən kənarda qaldı və nəticədə özünü təcridçilik və blokadalarla müşayiət olunan geosiyasi çıxılmaz vəziyyətdə tapdı.

Digər tərəfdən, Ermənistanın Rusiya ilə olan dərin hərbi-siyasi asılılığı bu ölkənin regional müstəqil qərarlar vermək imkanlarını minimuma endirmişdi. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində Rusiya–Ermənistan hərbi ittifaqı regionda balanssız güc münasibətləri yaratmış, qarşılıqlı etimadı daha da zədələmişdi.

Bu mənzərəni daha da mürəkkəbləşdirən amil isə Cənubi Qafqaz ölkələrinin daxili siyasi qeyri-sabitliyi və ziddiyyətli xarici siyasət prioritetləri idi. Gürcüstan 2003-cü il Qızılgül inqilabından sonra açıq şəkildə Qərbə inteqrasiya yolunu seçdi, NATO və Avropa İttifaqına inteqrasiya onun xarici siyasət kursunun əsas dayağına çevrildi. Ermənistan isə bunun əksinə, Moskvanın hərbi-siyasi orbitinə daha sıx bağlanaraq öz xarici siyasətində birtərəfli yönümlü strategiya həyata keçirdi. Azərbaycan isə regionda balanslaşdırılmış və müstəqil xarici siyasət yürüdərək, bir tərəfdən Qərblə enerji, təhlükəsizlik və nəqliyyat sahələrində əməkdaşlıq edirdi, digər tərəfdən isə Rusiya, Türkiyə, İran və Çinlə münasibətləri taraz saxlamağa çalışırdı.

Bu müxtəlif xarici siyasət yönümləri və təhlükəsizlik arxitekturaları regionun üç əsas ölkəsi arasında ortaq bir strateji vizionun formalaşmasını çətinləşdirirdi. Hər bir ölkə fərqli siyasi və hərbi alyanslara bağlı idi və bu amil “Qafqaz evi” kimi neytral və inklüziv bir platformanın gerçəkləşməsi üçün əsaslı təhdidlər yaradırdı. Ermənistanın KTMT üzvü kimi davranması və Gürcüstanın NATO-ya inteqrasiyası səyləri bir araya gəlmək əvəzinə fərqli geosiyasi düşərgələrdə mövqe tutmalarına səbəb olurdu.

Lakin zaman keçdikcə regionda tarixi dönüş baş verdi – Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını azad etdi və Cənubi Qafqazda yeni reallıqların bünövrəsini qoydu. Bu yeni reallıqlar fonunda “Qafqaz evi” konsepsiyası artıq keçmişin boşa çıxmış təşəbbüsü deyil, gələcəyin mümkün inteqrasiya modeli kimi gündəmə qayıdır. Bu kontekstdə Azərbaycanın siyasi iradəsi, strateji baxışı və diplomatik çevikliyi diqqətçəkən rol oynayır. Müharibədən dərhal sonra Bakı rəhbərliyi revanşist ritorikadan uzaq, praqmatik və gələcəyə baxan bir mövqe sərgilədi. Prezident İlham Əliyevin çıxışlarında tez-tez vurğuladığı “Sülhə aparan yol” və “Post-münaqişə dövrünün imkanları” kimi anlayışlar məhz bu strategiyanın təzahürüdür. Azərbaycan indi yalnız öz milli maraqlarını deyil, Cənubi Qafqazın kollektiv rifahını hədəfləyən regional inteqrasiya təşəbbüsləri ilə çıxış edir.

Yeni düzəndə Gürcüstanın rolu xüsusilə önəmlidir. Gürcüstan Cənubi Qafqazın yeganə ölkəsidir ki, həm Azərbaycanın suverenliyini tam şəkildə tanıyır, həm də regionda sülh və əməkdaşlıq gündəliyini bölüşür. Tbilisinin bu mövqeyi onu Azərbaycanın strateji tərəfdaşı və “Qafqaz evi” modelinin mümkün əsas sütunlarından birinə çevirir. Gürcüstan Prezidentinin bu günlərdə Bakıya etdiyi səfər siyasi jest, gələcəyə yönəlmiş strateji mesaj və Qafqazda yeni səhifənin başlanğıcı kimi qiymətləndirilə bilər.

Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji və nəqliyyat layihələri də bu yeni mərhələnin iqtisadi dayaqlarını formalaşdırır. Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Ceyhan neft kəməri və ən son regional diqqət mərkəzində olan Zəngəzur dəhlizi bütün regionun iqtisadi inteqrasiyasını təmin edən mühüm magistrallardır. Bu layihələrdə Gürcüstanın rolu yalnız tranzit ölkə olmaqla məhdudlaşmır – o, həm də geosiyasi körpü, regional stabilliyin təminatçısı və Avropa ilə Asiya arasında mühüm keçid məntəqəsidir.

Zəngəzur dəhlizinin açılması ilə təkcə Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında birbaşa əlaqə təmin olunmur, eyni zamanda, regionda Şərq-Qərb və Şimal-Cənub dəhlizləri arasında inteqrasiya dərinləşir və Qafqaz yalnız üç ölkənin coğrafiyası kimi deyil, Avrasiya miqyasında bir logistika və enerji mərkəzi kimi formalaşır. Belə bir reallıqda “Qafqaz evi” artıq planlaşdırıla və tətbiq oluna biləcək inteqrasiya modeli kimi dəyərləndirilə bilər.

Ermənistan isə bu yeni reallıqla üzləşmək və adaptasiya olmaq məcburiyyətindədir. Müharibədə məğlub olan, regional layihələrdən təcrid olunan və daxili siyasi böhranlarla üzləşən İrəvan üçün yeganə çıxış yolu regionda yaranan əməkdaşlıq platformalarına inteqrasiyadır. Ermənistanın Azərbaycanın irəli sürdüyü “Sülh müqaviləsi”, sərhədlərin delimitasiyası və kommunikasiya xətlərinin açılması təkliflərini qəbul etməsi bu baxımdan regional sabitliyin açarı ola bilər.

Hazırkı mərhələdə “3+3” regional əməkdaşlıq platforması Cənubi Qafqazda uzunmüddətli sülh, təhlükəsizlik və iqtisadi inteqrasiya ideyalarını dəstəkləyən mühüm mexanizmlərdən biri kimi çıxış edir. Bu format Azərbaycan tərəfindən irəli sürülmüş və regionun əsas aktorlarını – Azərbaycan, Ermənistan, Gürcüstan, eyni zamanda, Türkiyə, Rusiya və İran kimi regional gücləri bir araya gətirməyi hədəfləyən çoxtərəfli dialoq və əməkdaşlıq platformasıdır. “3+3” formatının əsas fəlsəfəsi regiondaxili məsələlərin region ölkələrinin iştirakı ilə xarici müdaxilələrdən kənar şəkildə həll edilməsidir. Bu, postmüharibə dövründə Azərbaycanın regional diplomatiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir. Bakı bu platformanın reallaşmasını həm sülh təşəbbüslərinin, həm də regional iqtisadi-ticari əlaqələrin dərinləşməsinin vasitəsi kimi təqdim edir.

Gürcüstanın bu formata hələlik ehtiyatlı yanaşması müxtəlif geosiyasi səbəblərlə bağlıdır. İlk növbədə, Rusiya ilə münasibətlərdəki gərginlik Tbilisinin Moskvanın iştirakı ilə təşkil olunan platformalara qarşı həssaslığını artırır. Bundan əlavə, Gürcüstanın Avroatlantik inteqrasiya xətti onun daha çox Qərb yönümlü əməkdaşlıq formatlarına üstünlük verməsinə səbəb olur. Lakin bu ehtiyatlı mövqe dəyişkən xarakter daşıyır və regional reallıqlar fonunda Gürcüstanın iştirakını zəruri edən bir sıra amillər mövcuddur. Birincisi, Azərbaycan–Gürcüstan strateji tərəfdaşlığının güclənməsi və Tbilisinin Bakıya artan etimadı burada mühüm rol oynayır. İkincisi, Gürcüstan üçün iqtisadi və nəqliyyat üstünlükləri də bu formata marağı artırır.

Azərbaycanın təşəbbüsü ilə reallaşan Orta Dəhliz, Bakı-Tbilisi-Qars dəmir yolu kimi regional təşəbbüslər “3+3” platforması çərçivəsində daha geniş sinxronlaşma potensialı daşıyır. Gürcüstanın bu təşəbbüslərdə daha fəal şəkildə yer alması onun regional tranzit və enerji qovşağı rolunu daha da gücləndirə bilər. Nəhayət, Ermənistanın da bu platformada iştirak etməsi bu ölkənin regiondaxili normallaşma proseslərinə inteqrasiyasını təşviq edə bilər. Azərbaycan və Gürcüstanın regionda sabitlik və əməkdaşlıq yönümlü siyasəti Ermənistan üçün də sülh dividendlərini artıracaq real platforma təklif edir. Bu baxımdan “3+3” formatı təkcə əməkdaşlıq vasitəsi deyil, həm də regiondakı geosiyasi qütbləşməni aradan qaldırmağa yönəlmiş diplomatik platformadır.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistan üçün yeni konstitusiya – referendum, yoxsa...

## *Paşinyan iqtidarı dayanıqlı sülh naminə qətiyyət göstərəcəkmi?*

**Cənubi Qafqazda sülh təminatının vacibliyini rəhbər tutan Azərbaycan dövləti bildirir ki, Ermənistan konstitusiyası işğalçılıq motivlərinə əsaslanmamalıdır. Rəsmi Bakı bu məqamı hayların əsas qanununun ölkənin İstiqlaliyyət bəyannaməsinə istinadına görə qabardır. O bəyannaməyə ki, orada konkret ərazi iddiası var. Deməli, Ermənistanın 1991-1993-cü illərdəki işğallarının, eyni zamanda, həmin sənəddən qaynaqlandığını vurğulamaq olar. Dayanıqlı sülh üçün isə avantürizmin kökü kəsilməlidir. Bu, dövlətimizin prinsipial mövqeyidir.**



Bəli, Azərbaycanın şərti ona hesablanıb ki, Ermənistan dövləti kimi, onun cəmiyyəti də işğalçılıq siyasətindən kənar dayanacağını uca səslə bəyan etsin. Sülhün maksimum təminatı budur və bu məqsədlə Ermənistanda ümumxalq səsverməsi – referendum keçirilməlidir. Həmin referendumda erməni əsas qanunu İstiqlaliyyət bəyannaməsinə istinad yükündən qurtulmalıdır. Hay cəmiyyəti iradə nümayiş etdirməli, göstərməlidir ki, təcavüzkar yanaşmadan uzaqdır.

Əslində, baş nazir Nikol Paşinyan da jurnalistlərə sonuncu açıqlamasında bu barədə söz açıb, amma bir qədər fərqli şəkildə. Bildirib ki, Ermənistanın yeni konstitusiyasında İstiqlaliyyət bəyannaməsinə istinad olmamalıdır.

N.Paşinyan yeni konstitusiya ideyasını 2020-ci ildən irəli sürdüyünü xatırladıb. Ancaq həmin vaxt onun təşəbbüsünün məqsədi başqa idi. Ən azı, Nikolun 2019-cu ilin avqustunda Xankəndinin mərkəzi meydanında səsləndirdiyi “Qarabağ Ermənistandır və nöqtə” bəyanatına nəzərən bunu söyləmək mümkündür. Yəni, Nikolun yanaşması işğalçı mahiyyətdən uzaq durulmasını rəhbər tutmurdu.

N.Paşinyan 2020-ci ilin fevralında Ermənistan konstitusiya məhkəməsinin o zamankı sədri Hrayr Tovmasyanın və qurumun digər üzvlərinin vəzifədən uzaqlaşdırılması üçün referendum keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Hökumət rəhbərinin əsalandırmasına görə, sözügedən məhkəmə xalqın suveren hüquqlarını məhdudlaşdırır və vəziyyətin konstitusiya dəyişiklikləri ilə aradan qaldırılması vacibdir. Başqa sözlə desək, referendumun məqsədi köhnə qaydalarla seçilmiş hakimlərin səlahiyyətlərinə son qoymaq və yeni tərkibli konstitusiya məhkəməsi formalaşdırmaq idi.

Onu da bildirək ki, Nikol konstitusiya islahatlarını davam etdirməkdə israrlı görünürdü. Lakin COVID-19 pandemiyası səbəbindən planlaşdırılan referendum təxirə salındı. Buna baxmayaraq, 2020-ci ilin iyununda Ermənistan parlamenti konstitusiya məhkəməsinin sədri H.Tovmasyanın vəzifədən azad edilməsini nəzərdə tutan dəyişiklikləri təsdiqlədi.

Bir qədər də əvvələ gedərək deyə bilərik ki, 2018-ci ildə Paşinyan konstitusiya islahatlarını siyasi sistemin demokratikləşdirilməsi və korrupsiyaya qarşı mübarizə çərçivəsində həyata keçirməyə çalışmışdı. O, konstitusiya məhkəməsinin əvvəlki hakimiyyətin təsiri altında olduğunu və bu səbəbdən islahatların zəruriliyini önə çəkmişdi.

Bəli, hazırda mahiyyət başqadır. Bildirdiyimiz kimi, yeni konstitusiyanın Ermənistanın İstiqlaliyyət bəyannaməsinin, belə demək mümkünsə, inhisarından qurtarılması motivi öndədir. Durumu formalaşdıran Azərbaycanın qətiyyətidir. Ölkəmizin prinsipiallığı sayəsində rəsmi İrəvan əsas qanunun istinad mənbəyinin avantürizmə söykəndiyinin fərqinə varmağa başlayıb. Baxmayaraq ki, bunu açıq etiraf etmir. Yeri gəlmişkən, N.Paşinyan da dolayısı ilə bu barədə söz açıb. Onun nədən danışdığına diqqət yetirəcəyik. Hələlik isə bir haşiyə çıxaq.

Ermənistanın İstiqlaliyyət bəyannaməsinin preambulasında sənədin Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Muxtar Vilayəti Milli Şurasının 1989-cu il dekabrın 1-də çıxardığı Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qərarına söykəndiyi, həmçinin 1918-ci il mayın 28-də yaradılmış müstəqil Ermənistan Respublikasının ənənələrini inkişaf etdirmək, demokratik, hüquqi cəmiyyət yaratmaq əzminin ifadəsi olduğu bildirilir. Hər halda, dünyada belə məkrli dövlət sənədinə malik ikinci xalqı təsəvvürə gətirmək mümkünsüzdür...

N.Paşinyan 2024-cü ilin fevralında demişdi ki, Ermənistanın İstiqlaliyyət bəyannaməsində yer alan “Dağlıq Qarabağ” ifadəsi sülh üçün problem yaradır. Erməni baş nazir sonradan ölkə parlamentində çıxış edərkən də mövzuya toxunmuşdu: “Son illərdə mən İstiqlaliyyət bəyannaməsini dəfələrlə oxudum və dəhşətli nəticəyə gəldim ki, bu bəyannamənin mahiyyəti ilə Ermənistan Respublikası mövcud ola bilməz. Bu, bizim ən böyük problemimiz və faciəmizdir. İndi sual budur ki, əsl Ermənistan nədir və onun vətəndaşları kimlərdir. Əsl Ermənistanın vətəndaşı o kəsdir ki, bu yerdən kənarda vətən axtarmır”.

N.Paşinyan həmin vaxt yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsinin zəruriliyini də bəyan etmişdi. İstiqlaliyyət bəyannaməsinə istinadən sülh mühitinin qərarlaşmasına əngəl törətdiyini vurğulayan baş nazir yeni əsas qanunun indiki geosiyasi şəraitdə Ermənistanı daha həyat qabiliyyətli edəcəyi qənaətini bölüşmüşdü. Onun mövcud xüsusda “Real Ermənistan” ideologiyasını irəli sürdüyü də məlumdur. Nikol demişdi ki, bu ideologiya müstəqillik və sülh konsepsiyalarını əsas götürərək, ölkənin sabit və davamlı inkişafının təminatını hədəfləyir.

N.Paşinyanın iki gün öncə jurnalistlərə açıqlamasındakı növbəti nüansın üzərində dayanaq. Onun sözlərindən belə çıxıb ki, yeni konstitusiya zərurəti heç də Azərbaycanın irəli sürdüyü şərtlə bağlı deyil. Əlbəttə, Nikolun daxili auditoriya baxımından belə danışmasını anlayışla qarşılayırıq. Ancaq hər şey göz önündədir. Sözümüz ondadır ki, Paşinyanın yeni konstitusiya ideyasını əvvəl nə üçün irəli sürməsi, indi mövcud istiqamətdə hansı səbəbdən təşəbbüs qaldırmasının səbəbi, kifayət qədər aydındır və vəziyyəti doğuran amilin Azərbaycanın gücü olduğunu vurğuladıq.

Yazımızın bu yerində Nikolun fikirlərindəki bir məqama yenidən qayıdaq. Söhbət Paşinyanın İstiqlaliyyət bəyannaməsinin mahiyyəti ilə müstəqil Ermənistan Respublikasının mövcud ola bilməyəcəyinə dair dediklərindən gedir. Nəzərə alsaq ki, Nikol sənədin hazırkı mahiyyətini faciə kimi qiymətləndirir, baş nazirin gəldiyi qənaətə aydınlıq gətirmək şərtdir.

Faciə ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində yer alıb. O zaman sual yaranır: Necə ola bilər ki, Azərbaycan ərazisindəki bir ərazi vahidinin qərarı Ermənistanın müstəqilliyinin əldə olunması üçün əsas sayılsın? Əgər belədirsə, ortaya başqa məsələ çıxır. Axı Azərbaycan dövləti Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv edib. Bununla əlaqədar qərar veriləndə dünya ölkəmizin müstəqilliyini tanımışdı. Başqa sözlə desək, beynəlxalq legitimliyimiz var idi və hüquqi baxımdan legitim qərarla DQMV inzibati ərazi vahidi qismində tarixin arxivinə göndərilirsə, deməli, Ermənistan dövlətinin yaradılışının hüquqi bazası da sarsılır. Ümid edək ki, N.Paşinyanın ölkəsi üçün gördüyü faciəli durum budur.

Sonda Azərbaycan – Ermənistan münasibətləri baxımından bir tendensiyaya nəzər salaq. Tendensiya təxminən belədir: Azərbaycan hakimiyyəti hansısa məsələni qabardır, erməni iqtidarı əvvəl ona qarşı çıxır, rəsmi Bakı mövqeyində israrlı olanda, İrəvan da həmin məsələnin üzərinə gəlir. İndiyədək həmişə belə olub. Diqqət yetirək, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni üzrə danışıqlar başa çatdırıldıqdan sonra Paşinyan və komandasının üzvləri sənədin tez bir zamanda imzalanmasının zəruriliyini bildirdilər, beynəlxalq miqyasda mövcud istiqamətdə təbliğat apardılar, hətta prosesə onların xaricdəki havadarları da qoşuldular. Elə təsəvvür yarandı ki, sanki sülh istəyən Ermənistandır, ondan boyun qaçıran Azərbaycan.

Dövlətimiz Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun ləğvi baxımından israr nümayiş etdirdi və məsələn, Paşinyan artıq Minsk qrupunun əhəmiyyətsizliyindən söz açır. Görəsən, bu qənaətə zamanında gəlmək olmazdımı? Yəni, erməni iqtidarı konstitusiya dəyişikliyi məsələsinə də daha əvvəldən önəm verməli idi. Amma vermədi və onun yanaşması, istər-istəməz, etimad mühitinə zərbə vurur.

Əlbəttə, demək istəmirik ki, Paşinyanın hazırkı mövqeyi tam konstruktivdir. Çünki erməni baş nazirin səsləndirdiyi fikirlər, böyük ölçüdə, oxu atıb yayı gizlətməkdir. Yəni, sonra nələrin baş verəcəyi məlum deyil. Ümumən, erməni iqtidarının davranışlarını proqnozlaşdırmaq çətindir və adətən, hər zaman belə olub. Belə qeyri-sabitlik ampluası isə erməni iqtidarının, yaxşı halda, qətiyyətsizliyindən qaynaqlanır. Pis halda isə hay hakimiyyəti reallığı bilir, sadəcə, onun ətrafında gəzişir ki, münasib zaman gələndə həmin reallıqdan uzaq mövqe tutsun. Ən böyük problem rəsmi İrəvanın bu sayaq səmiyyətdən uzaq dəst-xətti normaya çevirməsidir. Ona görə Prezident İlham Əliyev Ermənistan rəhbərliyinə inamın sıfıra bərabər olduğunu vurğulayır. Dövlətimizin başçısının gəldiyi nəticənin əlavə sübuta ehtiyacı yoxdur. Görünən dağa, nə bələdçi...

***Ə.CAHANGİROĞLU***
***XQ***



# “Buzlaşma”dan yumşalmaya

## *İran Prezidentinin Bakıya gözlənilən səfəri yeni ümidlər doğurur*

**(əvvəli 1-ci səhifədə)**

M.Pezeşkianın Azərbaycana qarşıdakı səfəri ikitərəfli münasibətlərdə mövcud problemlərin, regional məsələlərin həlli ilə bağlı konkret addımların atılması ilə yadda qala bilər. Müşahidələr göstərir ki, Pezeşkian özündən əvvəlki prezidentlərin yeritdiyi xarici siyasət kursunu dəyişmək fikrində deyil. Yeri gəlmişkən, mərhum İbrahim Rəisinin prezidentliyi dövründə İran hökuməti qonşu və müsəlman ölkələrlə iqtisadi əlaqələrin inkişaf etdirilməsi xəttinə sadiq idi. M.Pezeşkian da bu xətti davam etdirəcəyini bildirib və bu istiqamətdə müəyyən addımlar atır.

Azərbaycana gəldikdə isə Bakı bölgə ölkələri ilə, o cümlədən qonşu İranla qarşılıqlı səmimiyyətə, hörmətə və faydalı tərəfdaşlığa söykənən münasibətlərin tərəfdarı olduğunu dəfələrlə bəyan edib. Xüsusilə, ərazi bütövlüyünü və suverenliyini təmin edən Azrbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar fonunda Tehranla Bakı arasında səmərəli dialoqun və genişmiqyaslı əməkdaşlığın bərpası aktuallaşıb. Bu baxımdan, misal üçün, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi kimi transmilli layihələrin birgə əlaqələndirilməsi vacibdir. Gömrük və logistika kimi sahələrdə də ortaq maraqlar mövcuddur. İrandan ötrü Azərbaycan Cənubi Qafqaza çıxış baxımından mühüm tranzit ölkədir. Azərbaycan isə İran ərazisindən keçərək Fars körfəzinə və Hind okeanına çıxış imkanlarını genişləndirməyi planlaşdırır. Biz hələ Zəngəzur dəhlizinə alternativ olaraq Arazın cənub sahilindən Naxçıvana çəkilməkdə olan, Azərbaycan üçün strateji əhəmiyyətə malik nəqliyyat qovşağını demirik.

* * *

Bütün bunlara baxmayaraq, Azərbaycan–İran münasibətlərində məlum səbəblərdən əmələ gəlmiş psixoloji və siyasi etimadsızlıq “buzunun” hələ tam əridiyini söyləmək də tezdir. 2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən silahlı hücum bu inamsızlığın konkret nümunəsinə çevrildi. Hücum nəticəsində səfirliyin mühafizəçisi həlak oldu, bir neçə əməkdaş yaralandı. Rəsmi Bakı bu hadisəni terror aktı kimi qiymətləndirdi və səfirlik fəaliyyətini müvəqqəti dayandırdı. Üstündən iki ildən artıq vaxt keçməsinə baxmayaraq, terror aktı törədənin, eləcə də bu qanlı olayı təşkil edənlərin cəzalandırılması məsələsi açıq qalır. Rəsmi Bakı dəfələrlə bu məsələnin qanun və ədalət çərçivəsində həllini ikitərəfli münasibətlərin normallaşması üçün əsas şərt olduğunu bildirib. İnsafən, rəsmi Tehran Bakının bu tələbini anlayışla qarşıladığını açıqladı. Qalır konkret addım atmaq. İki qonşu ölkə arasında münasibətlərin qırılma nöqtəsinə çatmasını gözləyənlər yanıldılar. Son vaxtlar tərəflərin nümayiş etdirdikləri praqmatik diplomatiya, siyasi iradə və xoşməramlı açıqlamalar münasibətlərin “buzlaşma”dan yumşalmaya doğru getməsindən xəbər verir. Yəni, mövcud problemlərin həlli onlara isti, səmimi yanaşmadan, siyasi iradəyə söykənən ədalətli qərarların qəbulundan asılıdır.

* * *

Sirr deyil ki, İran Prezidentinin həm türk kökənli olması, həm də islahatlara meyilli siyasətçi kimi tanınması bu yüksək vəzifəyə seçildiyi gündən bölgənin və nə gizlədək, Türk dünyasının diqqət mərkəzinə düşən mövzudur. Bu nöqteyi-nəzərdən yanaşanda, onun Azərbaycana səfəri yalnız protokol görüşü deyil, həm də konkret razılaşmaların əldə edilməsi və münasibətlərin normal məcraya yönəlməsinin başlanğıcı ola bilər. Azərbaycan İranla münasibətlərin dərinləşməsində maraqlı olduğunu dəfələrlə göstərib. Cari ilin fevralında Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin, onun ardınca Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Tehrana səfərləri Bakının münasibətlərin yumşalmaya səmt götürməsində maraqlı olmasından xəbər verir. Prezident Məsud Pezeşkianın Azərbaycana səfərinin məhz bu təmasların nəticəsində reallaşması nəzərdən qaçmadı.

İndi Məsud Pezeşkianın Bakıya gözlənilən səfəri tərəflərə əlverişli fürsət yaratsa da, bunun dəyərləndirilməsi konkret nəticələrlə ölçüləcək. Tərəflər bir çox məsələləri sual işarəsi altından çıxarmalıdırlar. Ortada terror hadisəsinin istintaqı və yekunu, regional layihələrdə praktiki irəliləyiş, siyasi dialoqun institusional əsaslara oturdulması kimi strateji əhəmiyyət daşıyan gündəm var. Səfərin sonunda bu gündəmin real nəticələrlə yekunlaşması gözləniləndir.

* * *

Yeri gəlmişkən, Prezident Pezeşkianın Bakıya səfəri ərəfəsində Tehran şəhərində Azərbaycan və İranın Xarici işlər nazirliklərinin rəsmiləri arasında növbəti konsulluq məsləhətləşmələrinin keçirilməsi qarşıdakı müsbət tendensiyanın əlaməti sayılmalıdır. Məsləhətləşmələr geniş tərkibdə aparılıb. Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi Emil Səfərov, İran nümayəndə heyətinə isə İİR Xarici İşlər Nazirliyinin baş direktoru Moctəba Şəsti Kərimi rəhbərlik edib. Tədbirdə Azərbaycanın İran İslam Respublikasındakı Səfirliyinin və Təbriz şəhərindəki baş konsulluğunun əməkdaşları, Azərbaycan və İran xarici siyasət idarəsinin rəsmiləri, həmçinin iki ölkənin Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Miqrasiya Xidməti və Dövlət Sərhəd Xidmətinin nümayəndələri iştirak ediblər. Rəsmi məlumatda qeyd olunduğu kimi, görüşdə iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Tərəflər hər iki ölkə vətəndaşlarının hüquq və qanuni mənafelərinin qorunması, onlara çevik və effektiv konsulluq-hüquqi yardımının göstərilməsi mövzusu üzrə müzakirələr keçirib, yaranmış çətinliklərin aradan qaldırılması üçün əməkdaşlığın intensivləşdirilməsinə dair razılığa gəliblər.

Eləcə də daxil işlər, ədliyyə, miqrasiya, sərhəd, gömrük orqanları arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, müvafiq sahələr üzrə əlaqələrin gücləndirilməsi istiqamətində birgə tədbirlərin əhəmiyyəti vurğulanıb.

...Beləliklə, İran Prezidentinin Bakıya gözlənilən səfəri ilə bağlı ümidlər böyükdür. Bu ümidlərin gerçəkliyə çevrilməsi isə iki qonşu dövlətin mənafeyinə, xalqların milli maraqlarına tam cavab verir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyləri



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– İran bizim qonşumuzdur, böyük dövlətdir. Azərbaycan cənub qonşusu ilə münasibətlərin normal səviyyədə saxlanılmasında maraqlıdır. İranda yaşayan milyonlarla soydaşımızın taleyinə biganə qala bimərik. Digər tərəfdən, bu ölkə ilə bizim ticari-iqtisadi əməkdaşlığımız yüksək səviyyədədir. İranla diplomatik əlaqələrimiz son dövrlər bir qədər axsasa da, uzun illərdir ki, davam edir.

Azərbaycanın Tehrandakı səfirliyin fəaiyyətini dayandırması isə məlum səbəblərlə bağlıdır. Bakı bu məsələni açıq şəkildə İran rəhbərliyinin nəzərinə çatdırıb. Bu cür xoşagəlməz hallara hakimiyyət tərəfindən mütləq adekvat reaksiya verilməlidir. Doğrudur, terrorçu həbs edilib, məhkəməsi keçirib və hökm də çıxarılıb. Amma hələlik hökm icra olunmayıb. Rəsmi Bakı bu faktı da nəzərdən qaçırmayıb və bunu uyğun formada Tehrana xatırladıb. Bəli, Azərbaycan bu məsələdə ədalətli və sərt mövqedə dayanıb. Eyni zamanda, ikitərəfli münasibətlər yerində durmayıb, irəli gedir. Çünki hər iki tərəf münasibətlərin inkişafında maraqlıdır. İran hakimiyyəti yaxşı anlayır ki, Azərbaycan artıq bölgədə söz və güc sahibinə çevrilən oyunçudur. Yəni, münasibətləri normal səviyyədə saxlamaq Tehranın da maraqlarına cavab verir. Bu reallığı nəzərə alaraq, tərəflər bundan sonra qarşılıqlı şəkildə daha pozitiv addımlar ata bilərlər.

Hesab edirəm ki, İran Prezidentinin Bakıya səfəri zamanı bir sıra məsələlər üzrə razılaşmalar əldə ediləcək. Əlbəttə, bu zaman maraqlar mütləq nəzərə alınmalıdır. İndiki mərhələdə Bakı ilə Tehran arasında mövqe yaxınlaşması müşahidə olunur və ümid edirik ki, bundan sonra proses yalnız inkişafa doğru gedəcək.

**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq**



– Azərbaycan–İran trekində müşahidə olunan aktivlik nə vəd edir? Azərbaycan Prezidentinin köməkçisi İrana səfər etdi və orada Prezidentin müşaviri ilə görüşdü. Görüşdə mühüm mesajlar səsləndirildi və bunun rəsmi açıqlamalar vasitəsilə mətbuata çatdırılması tərəflərin həm xarici oyunçular, həm də daxili auditoriya üçün öz mövqelərini açıq şəkildə bəyan etməsi deməkdir. Doğrudur, İranda daxili qarşıdurma güclənir və Prezidentin tərəfdarları mühafizəkar qrupların hücumlarına qarşı fəal mübarizə aparır, bəzən də hücuma keçirlər. Digər mühüm element isə işlərinin yaxşı getmədiyi Yaxın Şərqə daha çox diqqət ayıran İranın indiki xarici işlər naziri Əraqçi ilə bağlıdır. İran Prezidentinin müşaviri Sanainin şəxsiyyəti də maraqlıdır. Göründüyü kimi, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev onunla ünsiyyət kanalı yarada bilib.

Sanai akademik dairələrdən, İranın Rusiyadakı keçmiş səfiri, Valday klubunun ekspertidir. Onun rəhbərlik etdiyi tədqiqat mərkəzi Avrasiya mövzularına yönəlib.

Deməli, İran hökumətindəki funksionerlər elə seçiliblər ki, Azərbaycanın İran-Rusiya münasibətlərindəki rolu və yeri dərk edilsin. Bu gün münasibətlər yüksək səviyyədə olmasa da, həm Bakıda, həm də Tehranda narahatlıq doğuran mövzularla bağlı bəzi mesajların verilməsi müşahidə olunur.

Düşünürəm ki, İran Prezidentinin Bakıya səfəri bir çox məsələlərə aydınlıq gətirəcək. Azərbaycan indiki məqamda konstruktivlik və xoş məram nümayiş etdirir. Görək İran rəhbərliyinin addımları nə dərəcədə səmərəli olacaq.

# Hindistanın Ermənistana “ucuz silah krediti” təklifi

**Rusiyanın Ukraynaya müdaxiləsi bu ölkədən silah ixracatının kəskin azalmasına səbəb olub. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) məlumatına görə, Rusiyanın qlobal bazara silah tədarükü 2020–2024-cü illərdə əvvəlki beş illik dövrlə müqayisədə 64 faiz azalıb. Azalma, Rusiyanın öz silahlı qüvvələri üçün əsas silahların istehsalını ixracdan üstün tutmaq qərarı, Moskvaya tətbiq edilən çoxtərəfli ticarət sanksiyalarının təsiri, ABŞ və onun müttəfiqlərinin digər ölkələrə Rusiya silahlarını almamaq üçün təzyiqinin artması ilə bağlıdır.**

Beləliklə, hazırda Qərbin silah və sursatları Kiyevə göndərilir. Rusiya zavodları isə demək olar ki, yalnız öz ordusunun ehtiyacları üçün hərbi texnika istehsal edir. Bu, tarixən Vaşinqton və Moskvadan silah alan ölkələri alternativlər axtarmağa məcbur edir. Belə bir şəraitdə Hindistan yaranmış vəziyyətdən istifadə edərək boşluğu doldurmağa çalışır. Bu məqsədlə Nyu-Dehli dövlətə məxsus "EXIM" (İxrac-İdxal) Bankının imkanlarını genişləndirərək uzunmüddətli və ucuz kreditlər təqdim etməyə başlayıb. Bu təşəbbüs siyasi və ya kredit riskləri səbəbindən adi maliyyəyə çıxışı məhdud olan ölkələrə şamil edilir. Hindistan eyni zamanda, xarici ölkələrdəki səfirliklərində hərbi attaşelərin sayını artırır. Artıq səfirlik xətti ilə ən azı 20 yeni hərbi attaşenin təyinatı həyata keçirilib.

Onu da qeyd edək ki, onlar olduqları ölkələrdə Hindistan istehsalı olan silahları təbliğ etməklə yanaşı, silah ehtiyaclarını da təhlil edirlər. Bu fəaliyyətin nəticəsidir ki, artıq Hindistana gələn nümayəndə heyətləri ilə yerli müdafiə podratçıları arasında görüşlər təşkil edilir və hərbi təlimlər zamanı müasir texnikalar nümayiş olunur.

Hindistan hökumətinin məlumatına görə, ölkə 2023–2024 maliyyə ilində 14,8 milyard dollar dəyərində silah istehsal edib ki, bu da üç il əvvəlkindən 62 faiz çoxdur. Narendra Modi hökuməti 2029-cu ilə qədər silah və avadanlıq ixracını iki dəfə artırmağı və 6 milyard dollara çatdırmağı hədəfləyib.

Nyu-Dehli ümid edir ki, yeni alıcılar hərbi ixracatın əsas hissəsini təşkil edən sursat, atıcı silah və müdafiə avadanlığı komponentləri ilə maraqlanacaqlar. Alıcılar arasında Ermənistan da var. Türkiyənin “Star” qəzetinin yazdığına görə, 2020-ci ildə Ermənistan və Hindistan arasında təxminən 2 milyard dollar dəyərində müqavilə imzalanıb.

Yada salaq ki, 2024-cü ildə Hindistan ilk dəfə Ermənistana hərbi attaşe göndərib. “Reuters” agentliyinin məlumatına görə, Hayastanın 2022–2024-cü illərdə idxal etdiyi silahların, demək olar ki, 45 faizi Hindistan məhsuludur. Artıq bu sahədə Rusiyanın monopoliyasına son qoyulub.

Tərəflər bundan sonra da hərbi sahədə əməkdaşlığı davam etdirəcəklərini bildirirlər. Bu barədə Hindistanın Ermənistandakı səfiri Nilakşi Saha Sinha bəyan edib ki, ölkəsi Ermənistanla müdafiə sahəsində əməkdaşlığı davam etdirəcək: “Biz hər hansı ölkə ilə müdafiə sahəsində əməkdaşlıq edəndə, bu, təkcə texniki əməkdaşlıq deyil, həm də potensialın artırılması deməkdir. Beləliklə, biz bu qarşılıqlı əlaqəni davam etdirəcəyik”.

Xarici KİV-in vurğuladığı kimi, Hindistan Ermənistana əsas silah tədarükçüləri siyahısında Rusiyanı əvəz etməyə başlayıb və İrəvan bu Cənubi Asiya ölkəsindən silah idxal edən ölkələr arasında liderdir.

Maraqlıdır ki, Ermənistanın silahlanması bu ölkənin rəhbərlərinin sülh müqaviləsi ilə bağlı açıqlamaları fonunda baş verir. Xüsusilə, Ermənistanın baş naziri və bu ölkənin Xarici İşlər Nazirliyinin rəhbəri müntəzəm olaraq Ermənistan–Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını sürətləndirməyi təklif edirlər. Bəli, Paşinyan belə bir fikir bildirib: “Mənim fikrimcə, yeni konstitusiyanın mətnində Müstəqillik bəyannaməsinə istinad olmamalıdır. Lakin qərarı Ermənistan xalqı verməlidir. “Lehinə” və ya “əleyhinə” arqumentlərini siyasi qüvvələr və onların liderləri təqdim etməlidirlər. Bu, mənim siyasi mövqeyimdir”.

Paşinyan deyib: “Müharibə olmayacaq, sülh olacaq. Ermənistan və Azərbaycan xalqları sülhə və dinc yanaşı yaşamağa layiqdir”. O, Azərbaycanla yeni gərginlik və ya müharibənin başlanması üçün hər hansı əsas görmədiyini vurğulayıb.

Yenə də bunlar, sadəcə olaraq, “gəlişigözəl” sözlərdir. O, 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatı imzaladıqdan sonra da Qarabağ separatçılarını maliyyələşdirib. Onların silahlandırılmasında önəmli rol oynayıb.

Doğrudur, Paşinyan və komandası Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Lakin revanşistlər hələ də bunun əksinə fəaliyyət göstərirlər. Ölkənin hüquq-mühafizə orqanları, məhkəmə sistemi Azərbaycanla münasibəti pozanlar, iğtişaş yaratmağa səy edənlər barəsində indiyədək heç bir hüquqi addım atmayıb.

Ermənistan həm də Azərbaycanla şərti sərhəddə intensiv şəkildə fortifikasiya qurğuları tikir, mühəndis-istehkam işləri aparır. Hayların məqsədi daha güclü müdafiə sistemi qurmaq və gələcəkdə aparacaqları müharibə üçün zəmin yaratmaqdır. Hindistandan alınan silahların Azərbaycanla şərti sərhəd yaxınlığında yerləşdirildiyi barədə də məlumatlar var. Bu, çox narahatedici siqnaldır. Ona görə də iki ölkə arasında hərbi toqquşma riski yüksək olaraq qalır. Deməli, N.Paşinyan və onun komandasının sözlərinə inanmaq sadəlövhlük olardı.



Digər tərəfdən, Paşinyan sülhdən danışdığı bir vaxtda, İrəvan silahlanmaya da üstünlük verir. Əgər Ermənistan silahlandırılırsa, deməli, hansısa məqsəd var. Bu məqsəd heç də bu regionun sabitliyinə xidmət etmir. Əksinə, Hayastanı təxribatlar törətməyə və Azərbaycana qarşı növbəti müharibəyə həvəsləndirir.

Bəs Hindistanın Ermənistana silah verməsinə səbəb nədir? Birincisi, Nyu-Dehli Cənubi Qafqaza özünün xarici siyasətinin perspektivli istiqaməti kimi baxır. Aydın məsələdir ki, burada əsas səbəb heç də hind və erməni xalqlarının tarixi qohumluğu deyil, daha dərin və real səbəblər var. Azərbaycanın Pakistanla yaxınlaşması, rəsmi Bakının beynəlxalq platformalarda Pakistanın mövqeyini dəstəkləməsi, Kəşmir münaqişəsi ilə bağlı İslamabadın yanında dayanması bu məsələdə rol oynayır. Vəziyyətin bu həddə çatmasında Hindistanın hazırkı radikal sağ millətçi baş naziri Modinin rolu var. Məhz onun dövründə Hindistanda etnik münaqişələr daha da dərinləşib, müsəlmanlara qarşı zorakılıqlar artıb. Özü də bu zorakılıqları hakim siyasi partiya təşviq edib. Belə olan halda, Nyu-Dehli, Ankara–Bakı–İslamabadın regionda siyasi təsirinin güclənməsindən narahatdır.

İkincisi, Hindistanda hərbi istehsalın artmasına baxmayaraq (2023–2024-cü illərdə 14,8 milyard dollar), Rusiyadan (Su-30MKI, S-400), Fransa və ABŞ texnologiyalarından asılıdır. Bu ölkədə istehsal olunan silahların keyfiyyəti müasir dünya standartlarına cavab vermir. Raketlər və ya helikopterlər etibarlılıq və innovasiya baxımından sadəcə olaraq aşağı səviyyədədir. Onu da qeyd etmək lazımdır ki, Hindistan silahları, o cümlədən raket sistemləri və artilleriya qurğuları Azərbaycanın son müharibə zamanı fəal şəkildə istifadə etdiyi İsrail, Türkiyə və ya Rusiya modellərindən fərqli olaraq real döyüşlərdə özünü doğrultmayıb.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü Cavid Vəliyev XQ-yə bildirdi ki,** Nyu-Dehlinin özü hazırda dünyada ən çox silah alan ölkələr sırasında yer alır: “Eyni zamanda, silah istehsalı həyata keçirir və bunun bir hissəsini satır. Əldə etdiyi vəsaiti ordusunu modernləşdirmək üçün istifadə edir. Ermənistan da onun alıcılarından biridir. Yəni bu ölkə silahlarını zəif inkişaf etmiş ölkələrə satır və bunun üçün də ənənəvi rus müştərilərini hədəf alan ucuz silah kreditləri təklif edir”.

C. Vəliyev daha sonra qeyd etdi ki, Ermənistanın silahlanması Cənubi Qafqazda sabitliyin möhkəmlənməsinə, sülhün bərpa edilməsinə zərbədir: “Onu da bilməlidirlər ki, silahlanmaq və şərti sərhəddə təxribatlar törətməklə heç nəyə nail ola bilməyəcəklər. Bu, onların sonunu gətirəcək.

Nyu-Dehli yalnız silah satmaqla Ermənistanı dəstəkləmir. Həm də siyasi-diplomatik arenada da İrəvanla tərəfdaşlıq edir. Bütün hallarda Ermənistan Hindistan əməkdaşlığı İrəvana heç bir üstünlük verməyəcək. Çünki hind silahları aşağı keyfiyyətlidir”.

Yaxşı olardı ki, Ermənistan silahlanmaya deyil, sülhə doğru addım atsın. Minsk qrupu kimi mənasız bir qurumun ləğvinə, konstitusiya dəyişikliyinə getsin.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# XİN-də qəbul və təqdimat



**Aprelin 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Sloveniya Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayon ilə görüşüb.**



Təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan və Sloveniya arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti, inkişaf perspektivləri, o cümlədən siyasi dialoqun intensivləşdirilməsi, yüksəksəviyyəli təmasların artırılması, müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycan-Sloveniya münasibətlərinin dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb, 2026-cı ildə diplomatik münasibətlərin 30 illiyinin qeyd ediləcəyi diqqətə çatdırılıb.

Tərəflər enerji, yaşıl texnologiyalar, nəqliyyat, İKT, kimya və əczaçılıq, turizm və digər sahələr üzrə əməkdaşlıq imkanlarını, eləcə də iqtisadi-ticarət əlaqələrinin, ticarət dövriyyəsinin genişləndirilməsi və artırılması üçün potensialı müzakirə ediblər. Təbii qaz və energetika sahəsində ötən il ərzində Azərbaycanın “SOCAR” və Sloveniyanın “Geoplin” şirkətləri, eləcə də iki ölkənin energetika nazirlikləri arasında imzalanmış sənədlər xüsusilə qeyd olunub.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma prosesi, eləcə də beynəlxalq nəqliyyat dəhlizləri və Ələt Azad İqtisadi Zonası çərçivəsində əməkdaşlıq məsələlərinin Azərbaycan-Sloveniya əməkdaşlığı kontekstində böyük əhəmiyyət daşıdığı vurğulanıb.

Nazir Ceyhun Bayramov Tanya Fayona postmünaqişə dövründə bölgədəki vəziyyət, azad edilmiş ərazilərdə aparılan bərpa işləri, mina təhdidi ilə mübarizə və məcburi köçkünlərin qayıdışı barədə məlumat verib.

Görüşlərdən sonra mətbuat konfransı keçirilib, nazirlər bəyanatla çıxış edərək media nümayəndələrinin suallarını cavablandırıblar.

*

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fələstin Dövlətinin ölkəmizdəki yeni təyin olunmuş səfiri Əhməd Metani ilə görüşüb. Səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.**

Görüşdə Azərbaycan-Fələstin əməkdaşlığının bir sıra, xüsusilə də siyasi, iqtisadi-ticarət, mədəni, humanitar sahələr üzrə inkişafından bəhs olunub. Tərəflər Yaxın Şərqdə, xüsusilə də Qəzzada mövcud vəziyyəti müzakirə ediblər. Qəzzada atəşkəsin qorunmasının vacibliyi, humanitar problemlərin həllinin əhəmiyyət kəsb etdiyi, Azərbaycanın İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq “iki dövlət prinsipi” əsasında həllini dəstəklədiyi bir daha qeyd edilib.

Əhməd Metani görüşə görə təşəkkür edib, səfir qismində ölkələrimiz arasında mövcud diplomatik münasibətlərin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

*XQ*

# Sloveniya rəsmisi Şəhidlər xiyabanını və Mehdi Hüseynzadənin abidəsini ziyarət edib

**Azərbaycanda səfərdə olan Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayon aprelin 17-də Şəhidlər xiyabanını və Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsini ziyarət edib.**



Tanya Fayo əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Sonra qonaq İkinci Dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə qəhrəmanlıq göstərmiş Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirəsini anaraq, abidəsinin önünə gül dəstəsi qoyub.

*XQ*

# Üçtərəfli görüş nəticə verəcəkmi?



**(əvvəli 1-ci səhifədə)**

Məlumdur ki, Azərbaycan və Ermənistan sülh müqaviləsinin bütün bəndləri üzrə razılığa gəliblər. Hazırda sənədin imzalanması üçün İrəvanın Bakının yalnız iki şərtini yerinə yetirməsi qalıb. Söhbət ATƏT-in Minsk qrupunun rəsmən ləğvindən və Ermənistan konstitusiyasına dəyişiklikdən gedir.

Əlbəttə, erməni avantürizminə son qoyulmasını hədəfə çevirən bu iki şərt barış sazişinin mətnində nəzərdə tutulmur. Eləcə də regional kommunikasiyaların açılmasının detalları sülh müqaviləsində yer almır. Ancaq Ermənistan hakimiyyəti, ona yaxın dairələr, bütövlükdə erməni siyasi kəsimi C.Bayramovun dünən bildirdiklərini Bakının İrəvan qarşısında qoyduğu növbəti sülh şərti kimi qiymətləndirir və iddia edirlər ki, guya, Azərbaycan sülhdən boyun qaçırmaq üçün növbəti bəhanə tapıb. Halbuki belə təqdimat yolverilməzdir. Həm də o səbəbdən ki, ölkəmiz regional kommunikasiyaların açılması ilə bağlı eyni prinsipial mövqeyini əvvəllər də açıqlayıb. Yəni, mahiyyətcə nazir Bayramovun söylədikləri yenilik deyil.

Bəli, Azərbaycan, həmişəki kimi, Ermənistanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla üzərinə düşən öhdəliyin icrasına çağırır. Rəsmi Bakı İrəvanın öhdəlikdən uzaq düşməsini qarşılıqlı etimadı sarsıdan hal olaraq qiymətləndirsə də, durumu sülh müqaviləsi kontekstinə gətirmir. Prezident İlham Əliyev də bunu dəfələrlə bildirib. Dövlətimizin başçısının prinsipial baxışı belə olub ki, Ermənistan Naxçıvana maneəsiz yol vermək istəmirsə, Azərbaycan alternativ varianta üstünlük verəcək. Alternativ variant isə məlumdur. Söhbət Naxçıvana yolun İrandan keçməsindən gedir ki, həmin marşrut indi də işləkdir, işğal illərində də fəaliyyət göstərib.

Ölkəmizin mövqeyi budur ki, rəsmi İrəvan Naxçıvana maneəsiz yol vermirsə, sülh müqaviləsi regional kommunikasiyalar açılmadan imzalanacaq. İmzalanacaq və nəticədə Ermənistan həmişəkitək dalanda qalacaq. Görünür, Paşinyan administrasiyası ölkəni dalan perspektivindən uzaqlaşdırmaq istəyir. Amma bunun “Dünyanın kəsişməsi” formulu yolverilməzdir. Ona görə də N.Paşinyanın jurnalistlərə açıqlaması zamanı söylədiklərinin əhəmiyyəti yoxdur. Daha doğrusu, onun əvvəl səsləndirdiyi fikirləri yenidən gündəmə gətirməsinin.

Ancaq erməni baş nazir köhnə şakərindən qalmır, öz aləmində, regional kommunikasiyalar üçün marşrut müəyyənləşdirir, hətta, ölkəsinin bununla bağlı Azərbaycana yazılı təklif göndərildiyini də dilə gətirir. Bəri başdan deyək ki, C.Bayramovun bildirdiklərini, Nikolun haqqında söz açdığı təklifə cavab kimi qiymətləndirmək mümkündür. Cavabımız pozitiv deyil. Nazir vurğuladı ki, regional kommunikasiyaların açılmasındakı başlıca gözləntimiz Naxçıvana maneəsiz yoldur. Rəsmi İrəvanın yazılı təklifində ölkəmiz tərəfindən qəbul edilməyən başqa hansı mətləblər yer alır? Hesab edirik ki, buna Paşinyanın dedikləri aydınlıq gətirir:

– Ermənistan özünün “Dünyanın kəsişməsi” təşəbbüsü çərçivəsində regional kommunikasiyaların açılması ilə bağlı müəyyən yumşaldıcı addımlara hazırdır. Söhbət sərhəddən keçid mexanimzlərinin sadələşdirilməsindən gedir.

Bundan başqa, Nikolun düşüncəsinə görə, regional kommunikasiyaların blokdan çıxarılmasının Naxçıvana yol məntiqi ancaq dəmir yolu ilə məhdudlaşmalıdır. Bu baxımdan Paşinyan əvvəl Mehri-Yerasx marşrutunu önə çəkir və onu “Ermənistandan Ermənistana yol” kimi qiymətləndirirdi. Yəni, Ermənistanın Mehri bölgəsindən hərəkətə başlayan qatarlar Azərbaycanın Naxçıvan ərazisindən keçməklə yenidən Ermənistanın Yerasx bölgəsinə çatmalı idilər. Baş nazirin düşüncəsinə görə, Azərbaycan eyni sadələşdirilmiş mexanizmlə özünün qərb torpaqlarından Naxçıvana doğru hərəkət imkanı qazanacaqdı. Hazırda Paşinyanın etdiyi dəyişiklik isə Mehri – Yerasx ifadəsini Horadiz – Yerasx ifadəsi ilə əvəzləməsidir. Görünür, hökumət rəhbəri, öz aləmində, konstruktiv davrandığını düşünür. Amma...

Regional kommunikasiyaların açılmasının avtomobil yolu məntiqinə gəldikdə isə Paşinyan tamam başqa marşrutun üzərində dayanır. O, Laçın – Kornidzor – Marqara marşrutunu irəli sürür. Yəni, yük avtomobilləri Azərbaycanın Laçın rayonundan Ermənistanın Kornidzor bölgəsinə keçməli, oradan isə Türkiyə ilə sərhəddəki Marqaraya çatmalıdır. Nikol hətta azərbaycanlı TIR sürücülərinin Ermənistan ərazisində həyəcan keçirməmələri üçün “formul” da müəyyənləşdirmişdi. Sən demə, problem Ermənistan ərazisində onların türkiyəli həmkarları ilə əvəzlənməsi nəticəsində həllini tapacaqmış...

Deməli, həm C.Bayramovun bildirdiklərini, həm də N.Paşinyanın əvvəl və indi söylədiklərini nəzərə alsaq, belə qənaətə gəlmək mümkündür ki, regional kommunikasiyaların açılması ilə bağlı razılıq yoxdur. Belə bir durumda Azərbaycan, Gürcüstan və Ermənistan XİN başçıları müavinlərinin Tbilisidəki görüşünün konkret nəticələri barədə danışmaq tezdir. Yəni, rəsmi Tbilisinin qeyri-formal vasitəçiliyinin uğurlu nəticələr verməsi bir o qədər də inandırıcı görünmür. Amma üçtərəfli təmasın gerçəkləşməsi onun əvvəldə vurğuladığımız pozitivlik trayektoriyasına mənfi təsir göstərmir. Əvvəldə faydaları sadaladıq, əlavə edək ki, Tbilisi görüşü, həmçinin XİN rəhbərləri müavinləri səviyyəsində oturuşmuş təmas formatının formalaşması naminə başlanğıc sayıla bilər. Ümid edək ki, gələcəkdə bu formatda Cənubi Qafqaz üçün real əməkdaşlıq məsələləri barədə faydalı diskussiyalar aparılacaq və mühüm razılıqlar əldə olunacaq.

***Ə.RÜSTƏMOV***
*XQ*

# Aİ missiyasının daha bir təxribatı

**(əvvəli 1-ci səhifədə)**

Axı, necə imkan versin? Bir missiya ki, işi-gücü bütün günü şərti sərhədin o biri tərəfində dayanıb bizi müşahidə etmək ola, ondan hansı müsbət nəticələr gözləmək olar? Azərbaycan tərəfi dəfələrlə ən yüksək səviyyədə bildirib ki, bizim Ermənistan ərazilərinə hücum etmək kimi bir planımız yoxdur. Heç zaman da olmayıb. Bizə işğal altındakı torpaqlarımızın azad edilməsi lazım idi ki, bu missiyanı da ordumuz yerinə yetirib. Müharibədən sonra Ermənistana sülh sazişinin imzalanması üçün 5 prinsipi təqdim edən rəsmi Bakı olub. Bu ilin mart ayında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə aparılan danışıqlar da başa çatıb. Bu halda missiyanın geri çağırılması daha doğru olardı. Amma göründüyü kimi, onun patrullarının sayı artırılır. Bu isə bölgədə qeyd etdiyimiz kimi, sülh və sabitliyə qətiyyən töhfə vermir.

Ümumiyyətlə, missiyanın bölgəyə yerləşdirilməsinin tarixçəsinə nəzər saldıqda, xoş olmayan mənzərəyə şahidlik etmək mümkündür. Söhbət ondan gedir ki, müşahidəçilərin bölgəyə daimi əsaslarla yerləşdirilməsi məsələsi rəsmi Bakı ilə razılaşdırılmamışdı. Biz yalnız Aİ-nin müvəqqəti missiyasına razılıq vermişdik. Müvəqqəti missiyanın isə yalnız iki aylıq dövrü əhatə edəcəyi qərarlaşdırılmışdı. Avropa Siyasi Birliyinin 2022-ci il oktyabrın 6-da Praqada keçirilən ilk Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa prezidenti Emmanuel Makron, Ermənistan baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında görüş keçirilmişdi. Görüşdən sonra verilən bəyanatda bildirilirdi ki, İrəvan Azərbaycanla sərhəddə Aİ-nin mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan da bu missiya ilə əməkdaşlığa razılaşıb. Bəyanatda qeyd olunurdu ki, Aİ-nin missiyası oktyabr ayında gələcək və maksimum iki ay müddətində işləyəcək. Onun məqsədi etimad yaratmaq və hesabatları ilə sərhəd komissiyalarının işinə töhfə vermək olacaq. Beləliklə, əldə olunmuş razılaşmaya əsasən, vəziyyətin monitorinqi, təhlili və yerlərdə vəziyyətlə bağlı hesabatların təqdim edilməsi məqsədilə oktyabrın 20-də şərti sərhədin Ermənistan tərəfi boyunca Aİ-nin mülki missiyası yerləşdirildi.

İki aylıq müddət başa çatdıqda – yəni 2022-ci il dekabrın 20-də Paşinyan hökuməti missiyanın fəaliyyətinin qeyri-müəyyən müddətədək uzadılmasına dair birtərəfli qaydada qərar qəbul etdi. Beləliklə, “mülki” missiya 2023-cü ilin yanvarında 2 illik ilkin mandata malik olaraq Ermənistanda yerləşdi. Bu ilin yanvarında missiyanın müddəti daha iki il müddətinə uzadıldı. Aİ-nin qəbul etdiyi qərara əsasən, avromüşahidəçilər 2027-ci il fevralın 19-dək Ermənistanın sərhədyanı rayonlarında qalacaqlar.

Eyni zamanda, missiyanın say tərkibində də əhəmiyyətli artım var. İlk vaxtlar missiyada 40 nəfər, sonra isə 103 müşahidəçi təmsil olundu. 2023-cü il dekabrın 11-də isə Aİ xarici işlər nazirləri Hayastanda yerləşdirilən əməkdaşlarının sayının 209-a çatdırılacağını təsdiqlədi.

Azərbaycan tərəfi missiyanın bölgədəki fəaliyyətindən razı qalmadığını dəfələrlə bildirib. Prezident İlham Əliyev müşahidəçilərin sərhədyanı bölgədən geri çəkilməsinin vacibliyini ötən il dekabrın 17-də rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində bu sözlərlə ifadə etmişdi: “...Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...”

Dövlətimizin başçısı qeyd etmişdi ki, ilkin dövrdə iki aylığına 40 nəfərin yerləşdirilməsi qərara alınmışdı: “Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir”.

Ancaq göründüyü kimi, rəsmi İrəvan nəinki missiyanı şərti sərhəddən geri çəkmək istəmir, əksinə qərbli tərəfdaşlarına güvənərək destruktiv siyasət yürütməkdə davam edir. Missiyanın patrullarının sayının artırılması da yeni gərginlik ocağı yaratmaq istəyinin təzahürüdür. Çox təəssüf ki, Aİ missiyası gərginlik yaratmaq istəyən bu qüvvələrdən biri rolunu icra etməkdədir. Missiyanın iki ölkə arasında etimad quruculuğu istiqamətində indiyədək hansısa uğura imza atmasından danışanlar isə siyasi riyakarlıq nümunəsi ortaya qoyurlar. Heç kim üçün sirr deyil ki, kəşfiyyatçı missiya bölgədə pozuculuqla məşğuldur. Onun patrullarının sayının artılması pozuculuğun miqyasının daha da genişlənəcəyi anlamına gəlməlidir. Amma qarşı tərəf bilməlidir ki, istər Azərbaycan Ordusunun, istərsə də sərhəd qoşunlarının bölmələri istənilən pozuculuq cəhdlərinə, təxribatlara ikiqat cavab verəcək durumdadırlar.

***Səxavət HƏMİD***
*XQ*

## Ekspert rəyi



**İlqar VƏLİZADƏ,**
**“Cənubi Qafqaz” politoloqlar klubunun rəhbəri, siyasi şərhçi**

– Bu, əlbəttə, narahatedici məlumatdır. Ona görə narahatedicidir ki, Avropa İttifaqının belə bir qərarın verilməsinə məsul olan şəxsləri regiondakı reallıqları olduğu kimi dərk etmirlər. Yaxud, dərk etmək istəmirlər və bölgədə pozucu hərəkətlərini davam etdirirlər. Ona görə pozucu adlandırıram ki, bu missiyanın mövudluğu Ermənistan–Azərbaycan münasibətlərində gərginlik yaradır. Əgər Avropa İttifaqında qərar verən dairələr bunu anlasaydılar və həqiqətən də iki ölkə arasında sülhün əldə olunmasını istəsəydilər, o zaman missiyanın nəinki say tərkibini çoxaldar, ümumiyyətlə, onu bölgədən çıxarardılar. Amma, bu, baş vermir. Əksinə, missiyanın əməkdaşlarının sayı və patrullarının sayı artırılır.

Digər tərəfdən, son vaxtlar bu missiyanın fəaliyyəti aktivləşdirilib. Bunu açıq şəkildə görmək mümkündür. Onun müxtəlif regionlardakı müşahidəçilərinin, əslində, kəşfiyyatçılarının bəzi bölgələrdə aktivliyi artır. Rəsmi bəyanatlarda qeyd edilir ki, guya, missiyanın fəaliyyəti regionda sülhün, sabitliyin təmin olunmasına yönəlib və ziddiyyətlərin, xüsusilə hərbi sahədə olan gərginliyin azalmasına kömək edir. Amma biz son həftələrdə Azərbaycan–Ermənistan şərti sərhədində mövqelərimizin mütəmadi atəşə məruz qalmasını müşahidə edirik. Demək olar ki, hər gün bununla bağlı məlumatlar yayılır. Hətta, aprelin 5-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə şərti sərhəddə mövcud əməliyyat şəraiti, o cümlədən son günlər qarşı tərəfin bölmələrimizi mütəmadi olaraq atəşə tutması, mövqelərimiz üzərində pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat xarakterli uçuşlar həyata keçirmə cəhdləri geniş müzakirə edilib. Müdafiə naziri ordumuzun bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb.

Yaxşı, əsas vəzifəsi şərti sərhəddə gərginliyin azaldılması olan missiya bölgədə fəaliyyət göstərirsə və onun müsbət nəticələr əldə etdiyi bəyan edilirsə, nə üçün bölgədə gərginlik hökm sürür? Nə üçün onlar atəşkəsin pozulması hallarına biganə yanaşırlar? Atəşkəs təkcə kiçikçaplı deyil, eyni zamanda, iriçaplı silahlar vasitəsilə pozulur. Hətta kvadrokopterlər vasitəsilə kəşfiyyat uçuşları həyata keçirilir. Əlbəttə, bunlar ritorik suallardır və biz cavabların nədən ibarət olduğunu çox yaxşı bilirik. Amma yaxşı olardı ki, missiya nümayəndələri bu barədə bir dəfə bəyanat versinlər. Bu, bir daha göstərir ki, onların bölgədəki fəaliyyəti mənasız və gərəksizdir. Əksinə, zərərlidir. Əgər Avropa İttifaqı regionda sabitliyin bərpa olunmasını istəyirsə, dərhal missiyanın fəaliyyətinə xitam verməlidir.

# Qlobal geosiyasətdə "türk ssenarisi"

III MƏQALƏ

**Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Təfəkkür köləliyinə üsyan

Türk dünyasında dövlətçilik baxımından neqativ istiqamətdə XX əsrin əvvəlləri dönüş nöqtəsi oldu. Yalnız Osmanlının ərazi qalıqları üzərində Türkiyə Cümhuriyyəti müstəqil dövlət olaraq yarandı. Hətta Türkiyəyə də Qərbdən çox ciddi təsirlər və təzyiqlər arxa plana keçmədi. Qərbin imperialsit dairələrinin türk dünyasını parçalamaq siyasəti daha da genişləndi. Onlarla birgə Rusiya imperiyasının dağıdıcılıq fəaliyyəti qətiyyən unudulmaz. Harada türk dövlətçiliyi vardısa, oranı dağıdır, harda türk-müsəlman insanı vardısa, onu sürgün edir, işgəncə verir və məhv edirdilər.

Türklərə qarşı qərəzli olanlar siyasətlərini müxtəlif gəlişi gözəl siyasi, diplomatik və ideoloji terminlərlə pərdələməyə çalışırdılar. Onlar "sivil dünya", "mədəniyyət", "demokratik dövlət", "insan haqları" və s. ibarələrlə bütövlükdə İslam ölkələrini dağıtmaqla məşğul idilər (indi də elədir). Bunlar tarixi faktlardır.

XXI əsrin əvvəllərində R.T.Ərdoğanın sayəsində ABŞ başda olmaqla kollektiv Qərbin uzun illər Türkiyədə pozucu fəaliyyətlərinin üstü açılmağa başladı. Bu proses indi də çox ağrılı şəkildə davam edir.

Lakin siyasi nəzəriyyəçilər hesab edirlər ki, onun pik səviyyəsi 2016-cı il uğursuz dövlət çevrilişi cəhdində olmuşdu. Türkiyə o sınaqdan salamat çıxmaqla bütövlükdə türk dünyası üçün əhəmiyyətli töhfə verdi.

Bunu kimlərəsə, xüsusilə yad mədəniyyət və "sivillik" aşiqlərinə anlatmaq kimi bir niyyətim yoxdur. Sadəcə, türk dünyası ilə bağlı siyasi və geosiyasi mənası olan bir faktı konstatasiya edirəm.

Digər türk dövlətləri – Azərbaycan, Qazaxstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan isə Çar Rusiyasından sonra sovetlərin tərkibində mövcud olmağa məhkum edildilər. Onların sırasında yalnız Azərbaycan müstəqil demokratik dövlət qura bilmək potensialını qısa müddətdə olsa da, dünyaya sübut etdi. AXC bu baxımdan Türkiyə də daxil olmaqla hər bir türk dövləti üçün həm ideya örnəyi, həm də təcrübədir! Azərbaycanda XX əsrdə müstəqil dövlətin qurulmasının müxtəlif şərtləri türk dünyası kontekstində mütləq tədqiq edilməlidir. Buradan bir neçə aspektdə maraqlı və vacib nəticələr çıxarmaq mümkün olacaqdır.

Məsələn, uzun müddət Rusiya kimi amansız və özünəməxsus istila fəlsəfəsi olan bir imperiyanın ərazi, idarəetmə, süni inzibati bölgü, hüquqi ayrı-seçkilik və demoqrafik dağıntılara məruz qoyduğu bir türk məmləkəti necə oldu ki, Şərqdə ilk demokratik Respublika qura bildi və onu bir il yaşatdı? Çünki ətraf qəvi düşmənlə dolu idi! Buna rəğmən qəhrəman Azərbaycan xalqı özünün üçrəngli gözəlim bayrağını demokratiya rəmzi kimi Qafqazda dalğalandırdı! Şair Ramiz Qusarçaylı görün, necə dərin duyğularla öz dövlətinin bayrağını vəsf edir:

*Şənini vəsf etməyə yetər,*
*qüdrətim yetər*
*Ulduzunu, ayını göydə*
*mələklər öpər,*
*Hər rəngində "ya qazi, ya şəhid"*
*bir mən bitər,*
*Sən ey İstiqlalımın əbədiyyət*
*sancağı, –*
*Azərbaycan bayrağı!*

*Sən Arazın, Samurun*
*umuduna bələndin,*
*Çəni ağlar Göyçənin*
*buluduna bələndin,*
*Dərbəndin dərd hıçqıran*
*sükutuna bələndin*
*O tayımda Savalan, bu tayımda*
*Şah dağı,*
*Azərbaycan bayrağı!*

Bu, azərbaycanlının əsrlərlə davam edən işğal və köləlik zülmünə təfəkkürünün "üsyanı", "ruhunun hayqırtılarıdır"!

## Türk dünyası üçün Azərbaycan təcrübəsi

Azərbaycan XX əsrdən başlayaraq türk dünyasında müstəqil dövlət qura bilmək təcrübəsinin təməlini qoydu. Burada Türkiyə Cümhuriyyəti istisnadır, çünki o, 700 yüz il üç qitədə mövcud olmuş Osmanlının varisidir. Azərbaycan isə Səfəvinin süqutu ilə parçalanmış ərazilərini "hissə-hissə" toparlayan məmləkətdir.

Onu işğal etdilər, parçaladılar və bu, təəssüf ki, bir neçə əsr davam etdi. Buna görə də XX əsrdə türk xalqları üçün müstəqil dövlət qurmaqda Azərbaycan təcrübəi bir örnək olmalıdır! Mərkəzi Asiya dövlətləri Azərbaycan istiqamətinə fokuslanmalıdırlar.

Bununla təfəkkürün köləliyi anlayışının mühüm bir aspektinə baxa bilərik. Məsələ onunla bağlıdır ki, çox ziddiyyətli siyasi, ideoloji, geosiyasi proseslərin çarpaz atəşi ortasında qalan Azərbaycan insanları həm də ağır psixoloji şəraitə salındılar. Bu da bizim təfəkkürümüzdə köləlik, özünə inamsızlıq, yadı daha yüksək tutmaq, xüsusilə dövlət məsələsində onlara üstünlük vermək kimi zərərli artefaktlar formalaşdırdı.

Belə görünür ki, indi də türk birliyi məsələsinə rusun, avropalının, amerikalının, yəhudinin, farsın gözü ilə baxanlar mövcuddurlar. Onlar minbir bəhanə ilə türk birliyini və ayrıca Türkiyəni qaralamağa çalışır və özlərinin köləlik "quyusu"nu daha da dərinləşdirirlər. Bu anlarınızda Azərbaycan bayrağına baxın:

*Yağının min hiyləsi küydən,*
*kələkdən keçər,*
*Sən sancılan ucalıq min-min*
*ürəkdən keçər,*
*Dağlar yerindən oynar,*
*daşlar ələkdən keçər,*
*Göylərin nur yağmuru,*
*yerlərin göy qurşağı, –*
*Azərbaycan bayrağı!*

Təfəkkürümüzü köləlikdən xilas etmənin zamanı çoxdan yetişmişdir! Türk dünyası birliyi zərurətinin və ayrıca Azərbaycan dövlət təcrübəsi örnəkliyinin dərin və ciddi geosiyasi anlamı da vardır.

## Geosiyasi aspekt

Bizcə, məsələnin bu tərəfi dünya miqyasında müşahidə edilən geosiyasi proseslərin fonunda daha aktual görünür. Yəni Türk Dövlətləri Təşkilatının (TDT) geosiyasi şansını necə əsaslandırmaq və qiymətləndirmək olar?

Öncə, qlobal geosiyasətin ümumi mənzərəsinə baxaq. İndi demək olar ki, hər bir siyasi lider və ciddi analitik geosiyasi turbulentlikdən, idarə olunan xaosdan, dünya düzəni formatının kəskin dəyişməsindən, müxtəlif sferalarda dağıdıcılıqdan bəhs edir. Hələlik hazırkı dönəmdə dünya geosiyasəti haqqında müsbət fikir bildirən yoxdur. Bunları ümumiləşdirsək, yekun mənzərəni dünya geosiyasətinin "xüsusi kəskinləşmiş mərhələsi", "risklər və qeyri-müəyyənliklər dönəmi" və s. kimi xarakterizə edə bilərik. Bizim üçün əsas sual bu vəziyyətdə belədir: türk dövlətləri yaranmış indiki vəziyyətə necə reaksiya verməlidirlər? Özü də bu sual ümumi deyil, konkret TDT kontekstində qoyulmalıdır. Çünki faktiki olaraq TDT var, onu türk dövlətləri xarici siyasətlərinin prioriteti kimi qiymətləndirmişlər (xüsusilə, Azərbaycan və Türkiyə).

Bundan başqa, müasir dünyanını geosiyasi mənzərəsində regionlaşma və məntiqi olaraq regional təşkilatlanma prosesi aparıcıdır (bunu tanınmış analitik və strateqlərin hamısı etiraf edir). Deməli, həm dünyanın geosiyasi gedişatı, həm də TDT-nin mövcudluq faktı hər bir türk dövlətindən tarixi seçim etməyi tələb edir. Real türk birliyi, yoxsa birliyin yad güclərin xeyrinə imitasiyası? Gerçəkdən TDT-ni inkişaf etdirmək, yaxud əsrlərdir davam edən türkü arxa plana atan ideologiyaların, maliyyə qurumlarının, iddialı etnosların istədikləri kimi həm öz xalqı, həm də TDT ilə "oynamaq"?

Kimsə düşünürsə ki, türk dövlətlərinin ərkanları bu suallar üzərində düşünmürlər, həyatlarının səhvini edirlər. Burada qapalı heç nə yoxdur. Türk öz marağını təmin etmək üçün bütün imkanlarından yararlanacaq.

Qətiyyən şübhə etmirik: Azərbaycan və Türkiyə kimliyindən asılı olmayaraq nə özünü güclü sayan yad dairələrə, nə də toplumun içində illərlə yetişdirilən "kolonlara" (5-ci və 6-cı olmalarını fərqi yoxdur, lap 7-ci və ya 8-ci də ola bilər) türk dünyasını yenidən parçalamağa və dünya siyasətində arxa plana atmağa imkan verməyəcklər! Bu iki qardaş dövlətin liderləri buna qadirdirlər və indiyə qədər də belə olduğunu sübut etmişlər! Yol davam edir! Mübarizədən bir an da olsun çəkilmələri yoxdur! Buna da iki qardaş liderin tam tarixi, siyasi və geosiyasi əsasları vardır! Bu məqam üzərində dayanaq!




## Qərəzli Qərb və başqaları

Qərbi ayrıca vurğulamağımız təsadüfi deyildir. Dünyanın tanınmış geosiyasi strateqləri, analitikləri, filosofları və politoloqları əmindirlər ki, Vestfal sazişindən sonra dünya miqyasında (hərçənd H.Kissincer "dünya miqyası" anlayışını ənənəvidən fərqli qəbul etmişdir, lakin bu, başqa mövzudur) geosiyasətdə aparıcı rolu Qərb oynamışdır. Başlıca olaraq da "Qoca qitə"ni nəzərdə tuturlar. Buradan məntiqi olaraq alınır ki, indi dünyanın qarşılaşdığı hər bir problem və ya müsbət məqamda Qərbin rolu daha çoxdur. Bu tezisin fonunda analitiklər XXI əsrin başlanğıcında qlobal geosiyasəti xarakterizə edərkən əsas sual kimi "Qərb bu mərhələdə də aparıcı güc ola biləcəkmi?"ni seçirlər.

Bu, o deməkdir ki, dünyanın hazırkı geosiyasi vəziyyətində Qərb yaxasını qırağa çəkə bilməz və məsuliyyət daşıyır. Onunla bərabər Rusiya və nə qədər özünü sakit göstərsə də, Çin məsuliyyət daşıyırlar. İndi xəyalən bu güclərin coğrafi obrazlarını vahid mənzərədə türk dünyası fonunda birləşdirək. Belə alınır ki, türk dünyası faktiki olaraq indiyə qədər dünya geosiyasətini "qarışdıranların" coğrafi əhatəsindədir. Biz hələ ikinci dərəcəli rol oynayan güclü dövlətləri (məsələn, İran, Hindistan və s. demirik).

Bu cür geosiyasi dinamikada Türk dövlətləri öz maraqlarını bir neçə istiqamətdə təmin edə biləcək fəaliyyət göstərməyə məhkumdurlar. Bu, hansısa simpatiya və ya şəxsi seçim deyildir, əksinə, ciddi tarixi məsələdir. Türklər elə seçim etməlidirlər ki, uzun müddətdir ki, başlarına bəla olan faktorları neytrallaşdıra bilsinlər. Buna görə də Azərbaycan və Türkiyə liderlərinin fəaliyyətləri fonunda tam əminliklə deyə bilərik ki, indi qlobal geosiyasətdə türk ssenarisi "işləyir" və dünyanın özünü ən güclü sayan dairələri belə bu gerçəkliyi diqqətə almağa məhkumdurlar!

Dünya siyasətində "türk ssenarisi"nin bir neçə prioritet hədəflərini müəyyən etmək olar. Yəni, sadə desək, türk dövlətləri TDT-ni hansı məqsədlə yaratmışlar? Çılğın türklər dünya geosiyasətində hansı mövqeni tutmağa fokuslanmışlar?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Başlıbel faciəsindən 32 il ötür**

# Xalqımıza qarşı erməni soyqırımlarına son qoyulub

## Cinayət və canilərin aşkara çıxarılması isə davam edir



**Son 2 əsrdə xalqımıza qarşı erməni millətçilərinin məqsədyönlü şəkildə həyata keçirdikləri etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti tariximizin faciələrlə, qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bəşəri cinayətkalıq sayılan bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, əzəli Azərbaycan ərazilərində uydurma "Böyük Ermənistan" dövləti yaratmaq olub.**

Ermənilərin xalqımıza qarşı törətdiyi amansız cinayətlərdən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilib. Həmin faciədən artıq 32 il ötür. 1993-cü il aprelin əvvəllərində Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra rayonun 2 minə yaxın əhalisi olan Başlıbel kəndinin 62 sakini evlərini vaxtında tərk edə bilməmiş və düşməndən qorunmaq üçün dağlara çəkilmişdi. Onlar burada kahalarda cəmi 18 gün gizlənə bilmişdilər. Aprelin 18-də ermənilər sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra silahlı hücuma keçərək 18 nəfəri qətlə yetirdilər, 14 nəfəri isə girov götürmüşdülər.

Sağ qalan 30 nəfər isə gecələr hərəkət etməklə 113 gündən sonra gizli dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən çıxa bilmişdilər. Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biri olan Başlıbelin tarixi, mədəni və dini obyektləri də vandallığa məruz qalaraq məhv edilmişdir.

Ötən müddətdə dövlətimiz bütün digər erməni cinayətləri kimi, Başlıbel faciəsinin də araşdırılmasını, tədqiqini, canilərin üzə çıxarılıb cəzalandırılmasını diqqətdə saxlayıb. 2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" layihəsi əsasında eyniadlı kitab nəşr edilib. Azərbaycan və ingilis dillərində buraxılan nəşrdə Başlıbel kəndində törədilmiş qırğın haqqında canlı şahidlərin, mühasirədə qalanları xilas etmək üçün fədakarlıq göstərənlərin xatirələri yer alıb. Bu faciə ilə bağlı məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatına da daxil edilib.

Başlıbel kənd sakini, hadisələrin canlı şahidi Hüseyn Şahbəndəyev hələ 1993-cü ilin may ayında "Cavanşir yurdu" qəzetində "Kəlbəcəri verməmək də olardı" sərlövhəli yazısında həm rayonun müdafiəsiz qalması, həm də Başlıbel faciəsi öz əksini tapmışdı. Həmin hadisələrlə əlaqədar digər məqalələri ilə yanaşı, eyni zamanda Hüseyn Şahbəndəyev xeyli əvvəl yazdığı "Qanlı kaha" sənədli hekayəsini 2007-ci ildə "Ulduz jurnalının "10-cu nömrəsində çap etdirmişdi.

Başlıbel sakini, Qarabağ müharibəsinin iştirakçısı, tanınmış jurnalist Elxan Salahov faciə haqqında yazdığı "Qanlı kaha" kitabını 2019-cu ildə çap etdirib. Kitabda Başlıbel kəndində mühasirədə qalan sakinlərin 4 aya yaxın çəkdikləri əzab-əziyyətdən və mühasirədən necə çıxdıqlarından bəhs edilir. Onu da qeyd etmək lazımdır ki, Elxan Salahovun qardaşı Kəlbəcər uğrunda döyüşdə şəhid olub.

2022-ci ildə Azərbaycan Televiziyası "Başlıbel – Bir kəndin mühasirə gündəliyi" adlı sənədli film çəkib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 sentyabr 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyasında videoformatda çıxış edərkən Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqlarının 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapıldığını xüsusilə diqqətə çatdırıb.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Başlıbel faciəsinə dair dəlil və sübutların toplanaraq geniş ictimaiyyətə çatdırılması istiqamətində mühüm addımlar atılıb. 2021-ci ilin aprelində Başlıbel kəndində 12 nəfərin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb, Azərbaycan Respublikası Prezident Administrasiyasının dəstəyi ilə jurnalistlərin və hadisə şahidlərinin həmin əraziyə səfərləri təşkil olunub, çoxlu sayda ictimai müzakirələr keçirilib. Eyni zamanda, Başlıbel faciəsindən bəhs edən "Qanlı kaha" kitabının motivləri əsasında 4 hissəli sənədli film çəkilib.

Başlıbel faciəsinin 32-ci ildönümü ilə əlaqədar 2 aprel 2025-ci ildə isə AMEA Mərkəzi Elmi Kitabxanasında Kəlbəcərin tanınmış ziyalılarından olan Arif Süleymanovun "Başlıbel qətliamı - Üç yüz illik "Qarabağ problemi"nin qanlı səhifələri" adlı kitabının təqdimatı keçirilib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini, ermənilərin öz havadarlarının köməyi ilə xalqımıza qarşı törətdikləri soyqırımı aktlarının ağır nəticələri üzə çıxarılıb müasirlərimizə və dünya ictimaiyyətinə çatdırıldı. Ümummilli ilder Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında ilk dəfə bu cinayətlərə siyasi-hüquqi qiymət verildi.

Prezident, Ali Baş Komandan, İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində qazanılan Zəfər və 2023-cü ilin 19–20 sentyabrında həyata keçirilən antiterror əməliyyatında Qarabağda separatçı xuntanın ölkəmizdən süpürülüb atılması, hərbi canilərin ələ keçirilib istintaqa ncəlb edilməsi ilə ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı verildi.

Azərbaycan Ordusu soyqırımı qurbanlarının, şəhidlərimizin qısasını döyüş meydanında alaraq düşmənin torpaqlarımızda qanlı cinayətlər törətməsinə birdəfəlik son qoydu. Ermənilərin çoxsaylı hərbi cinayətlər törətdiyi, 27 il ərzində işğalda saxlayıb mədəni irsi tamamilə dağıtdığı, əmlakı və təbii sərvətləri qarət etdiyi Kəlbəcər isə düşmənə vurulan sarsıdıcı zərbədən sonra 2020-ci il noyabrın 25-də bir güllə atılmadan, şəhid vermədən düşmən tapdağından azad edildi. Dövlət başçısının rəhbərliyi ilə Baş Planı təsdiq olunmuş Kəlbəcərdə hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilir.

Faşist ideologiyasını dövlət siyasətinə çevirmiş Ermənistanın işğalçı ordusunun və silahlı quldur dəstələrinin Qarabağda törətdiyi gizli cinayətlərin də izləri, erməni vəhşiliyinin tükürpədən səhnələri davamlı olaraq üzə çıxarılır. Bu faktlar, üstəlik, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyindən hələ də xəbər olmaması ermənilərin insanlıq əleyhinə ağır cinayətlərini nişan verir. Bu hərbi cinayətlərə görə erməni vandalları və terrorçuları mütləq beynəlxalq hüquq və ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar.

Hazırda Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən erməni əsilli şəxslərin məhkəməsi davam edir. Cinayət işində 15 nəfər ittiham olunur. Onlar İkinci Qarabağ müharibəsindən sonra ərazi bütövlüyümüzün təmin edilməsi zamanı həbs olunaraq istintaq təcridxanasına salınıblar. Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın məhkəməsi davam edir.

Ötən 32 ildə Başlıbel faciəsinin ölkə və beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılması sahəsində müvafiq dövlət orqanlarının, ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin, "Başlıbelin inkişafına dəstək" ictimai birliyinin, fədakar ziyalılarımız Məhəmməd Nərimanoğlunun, Hüseyn Şahbəndəyevin, Etibar Seyidağanın, Elxan Salahovun, Oqtay Salahovun, Sönməz Ələkbərin, Xalid Kazımovun, Vüqar Həşimovun, Nurəddin Həşimovun,-Sabir Mirzəyevin, Ələkbər Bikəsin, Vüsalə Məmmədovanın, şair Əlövsət Misiroğlunun, Vəli Süleymanlının və digər müəlliflərin, həmçinin hadisə şahidlərinin əməyi yüksək qiymətləndirilməlidir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhid Başlıbelin isə yenidən Cənnətə çevrilməsi uzaqda deyil!

***Qurban SADIQOV,***
***Nazirlər Kabineti Aparatının***
***sektor müdiri***

# Azərbaycan müasir infrastrukturlu tranzit ölkədir



**Bakıda keçirilən Milli Biznes İnkişafı Forumunda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov son illər Azərbaycan iqtisadiyyatında nəqliyyat sahəsinin rolunun yüksək dərəcədə artdığını, sektorun ÜDM-dəki payının 6,5 faizə çatdığını bildirib. O, nəqliyyat sahəsində həyata keçirilən layihələrin müasir beynəlxalq çağırışlara uyğunlaşdırılaraq ətraf mühitin qorunması, dekarbonizasiyası, innovasiya, rəqəmsallaşdırılma kimi vacib məsələləri özündə ehtiva etdiyini vurğulayıb.**

Nazir müavini ölkəmizin tranzit potensialının güclənməsi və Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi istiqamətində müvafiq addımlar atıldığını, Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmində kəskin artım müşahidə olunduğunu da diqqətə çatdırıb. “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müşaviri Tural Abbaslı isə dəmiryolu sistemində həyata keçirilən layihələrdən bəhs edərək Ələt-Astara dəmiryolu xəttinin 2027-ci ilədək tamamlanacağının gözlənildiyini, Orta Dəhlizin müəyyən hissəsinin dəyişən cərəyanla çfəaliyyət göstərdiyini, yaxın iki ayda isə dəhlizin Hacıqabul – Ucar hissəsinin dəyişən cərəyana keçəcəyini bildirib. O, Horadiz-Ağbənd dəmiryolu layihəsi üzrə indiyədək 75 kilometr yol çəkildiyini, Ağdam-Xankəndi dəmiryolunun layihələndirilməsinə başlanıldığını qeyd edib.

“Azərbaycan Hava Yolları” QSC-nin idarə rəhbəri Vasif Manaflı AZAL-ın hava gəmisi parkının orta yaşının 14 il olduğunu, belə vəziyyətin müştəri məmnuniyyətinin azalmasına, təyyarələrin istismar xərclərinin artmasına gətirib çıxardığını, nəticədə bu yöndə ciddi addımlar atıldığını xatırladıb. V. Manaflı daha sonra “Airbus” və “Boeing” şirkətləri ilə 2023-cü ildə 20-dən çox təyyarənin alışı ilə bağlı müqavilələr imzalandığını, yeni təyyarələrin isə 2032-ci ilədək AZAL-ın gəmi parkına daxil edilməsinin planlaşdırıldığını vurğulayıb.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) Bakı regional idarəsinin müdiri Tərlan Səfərov çıxışında qeyd edib ki, ötən il Bakı şəhəri üzrə 476 min (2023-cü illə müqayisədə 6 faiz çox) sərnişin daşınıb. Bu dövrdə 11 avtobus marşrutu üzrə 154 avtobus yenilənib. Gün ərzində fəaliyyət göstərən avtobusların orta sayı keçən il 2160-a qədər artırılıb.

Yeri gəlmişkən, Bakı şəhərində avtobus sayının 2800-ə çatdırılması nəzərdə tutulub. Bundan başqa 165 elektrik avtobusu daşımalara cəlb edilib. Bu il özəl daşıyıcılar tərəfindən 100-dən artıq avtobusun gətirilməsi planlaşdırılıb. Paytaxtda nağdsız ödəniş sisteminə qoşulan avtobusların sayı isə 2023-cü illə müqayisədə 43 faiz artaraq, təxminən, 2 min ədədə çatdırılıb. Metronun “Koroğlu”, “Gənclik” və “28 May” stansiyaları yaxınlığında nəqliyyat mübadilə məntəqələri istifadəyə verilib. Bakı şəhərində, təxminən, 1766 parklanma məntəqəsi üzrə 22 min 995 parklanma yeri təşkil olunub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) şöbə rəisi Asim Məmmədli isə bildirib ki, qurum tərəfindən işğaldan azad olunmuş ərazilərdə müxtəlif proqramlara uyğun ümumi uzunluğu 3 min 383 kilometr təşkil edən 44 adda avtomobil yolunun və bir adda hava limanının tikintisi layihələri reallaşdırılır. Şöbə rəisinin sözlərinə görə, bu yolların 1076 kilometri respublika əhəmiyyətli, 2 min 307 kilometri isə yerli əhəmiyyətli avtomobil yollarıdır. Yerli əhəmiyyətli avtomobil yollarının 1248 kilometr təşkil edən hissəsi hərbi əhəmiyyətli dayaq nöqtələrinə aparan torpaq və çınqıl örtüklü təlimat və təxliyyə avtomobil yollarıdır.

AAYDA-nın şöbə rəisi Milli Biznes İnkişafı Forumunda təmsil etdiyi agentlik tərəfindən 2025-ci ildə bir sıra layihələrin icrasının nəzərdə tutulduğu barədə də məlumat verib: “Ağ Şəhər layihəsinin ikinci mərhələsində avtomobil yollarının və 8 Noyabr prospektində piyada körpüsünün tikintisi, Gədəbəydə 45,5 kilometrlik avtomobil yollarının, Yevlax rayonunda 3,5 kilometrlik, Pirşağı – Novxanı – Xırdalan avtomobil yolunun layihələndirilməsi, tikintisi və tikintisi prosesi ilə əlaqədar olaraq torpaqların dövlət ehtiyacları üçün alınması, kommunikasiya xətlərinin köçürülməsi planlaşdırılıb. Tovuz rayonunda Zəyəmçay üzərində yerləşən, eləcə də qəzalı vəziyyətə düşən yeni körpünün sökülərək tikilməsi, İsmayıllı rayonunun Qalacıq kəndini iki hissəyə ayıran Səngər çayı üzərində körpünün tikintisi, Daşkəsəndə 10,7 kilometrlik 3 layihənin icrası, Göygöl rayonunda 2 kilometrlik avtomobil yolunun təmiri, Gəncədə isə 42,3 kilometrlik avtomobil yolu şəbəkəsinin yenidən qurulması işləri nəzərdə tutulub”.

Yuxarıda sadalanan işlər deməyə əsas verir ki, respublikamızda ölkəmizlə bağlı olan bütün nəqliyyat marşrutlarının inkişafına daim xüsusi diqqət yetirilir. Bununla əlaqədar bir sıra mühüm layihələr və proqramlar reallaşdırılır. Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində də əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar çoxalıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub. Yazının əvvəlində vurğulandığı kimi, nəqliyyat sektorunun ÜDM-dəki payının 6,5 faizə çatması kimi müsbət göstərici əldə edilib.

Xatırladılan bu göstəriciləri isə bir sıra amillər şərtləndirib. Xüsusilə respublikamızın tranzit potensialının reallaşdırılması üçün icra olunan layihələr bu məsələdə son dərəcə əhəmiyyətli rol oynayıb. Belə ki, ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı gerçəkləşdirilən layihələr, habelə qlobal miqyaslı təşəbbüslər Azərbaycanı sosial-iqtisadi inkişafı sürətləndirməklə ölkəmizi mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Avtomobil yolları və dəmir yolu xətlərinin beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda və regionlarda beynəlxalq aeroportların, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayıb, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

# Bakı-Supsa kəməri 100 milyon ton neft nəql edib



**“Əsrin müqaviləsi”nin ilkin neft layihəsi çərçivəsində hasil edilə neftin Qara dənizin sahilində yerləşən Supsa terminalına nəql etmək məqsədilə inşa olunmuş Qərb İxrac Boru Kəmərinin (Bakı – Supsa) istismara verilməsindən 26 il ötür. 1999-cu ilin aprel ayında fəaliyyətə başlamış Bakı–Supsa kəməri ilə ötən müddətdə 100 milyon tona yaxın xam neft nəql edilib.**

2024-cü ildə isə Bakı – Supsa kəməri ilə neft nəqlinin həcmi 90 min ton təşkil edib. Bu barədə məlumat Energetika Nazirliyi tərəfindən 2024-cü ildə görülmüş işlərə dair hesabatda yer alıb. Nazirliyin məlumatına əsasən, 2023-cü ildə Bakı – Supsa kəməri ilə neft ixracının həcmi 150 min ton təşkil edib. Bu isə o deməkdir ki, Azərbaycan neftinin Qərb istiqamətinə nəqli əvvəlki illə müqayisədə 40 faiz azalıb.

Məlum olduğu kimi, Bakı – Supsa boru kəməri ilə neft nəqli 2022-ci ilin mart ayında dayandırılıb. Daha sonra aprelin 1-dən 17-dək boru kəmərində təmir-sazlama işləri aparılıb və neft nəqli bərpa edilib. Həmin dövrdə Supsa terminalından bir neçə yükləmə də həyata keçirilib. Daha sonra Supsa terminalından “Azeri Light” neftinin yüklənməsi üçün sifarişlərin olmaması səbəbindən Qərb marşrutu ilə neft ixracı yenidən dayandırılıb. Ümumilikdə isə, son illər Bakı – Supsa boru kəmərinin fəaliyyətində ən məhsuldar dövr 2021-ci ilə təsadüf edib. Belə ki, həmin il kəmərlə 4,2 milyon ton neft nəql olunub. 2022-ci ilin may ayında isə Rusiya – Ukrayna müharibəsi səbəbindən fəaliyyəti dayandırılmış bu kəmərlə ay ərzində nəql olunan, təqribən, 3 milyon barel xam neft Bakı – Tbilisi – Ceyhan boru kəmərinə yönəldilib.

Yeri gəlmişkən, “BP-Azerbaijan” şirkətinin məlumatına əsasən, hazırda “Azeri Light” markalı Azərbaycan neftinin ixracı Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri ilə həyata keçirildiyindən Bakı – Supsa kəmərindən istifadə olunmur. Şirkətdən onu da bildiriblər ki, Bakı – Supsa neft kəməri “dondurulmayıb” və istənilən anda neft nəqlinə başlamaq üçün tam hazır vəziyyətdədir.

Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirən Bakı – Supsa boru kəməri Səngəçal terminalından başlayaraq Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Uzunluğu 833 kilometr olan “qara qızıl” marşrutunun 772 kilometrlik hissəsi 530 millimetrlik yeni polad borularla çəkilib, qalan 55 kilometrlik hissəsi isə əsaslı təmir edilib. Boru kəməri obyektlərinə 3-ü Azərbaycanda və 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyası, 2 təzyiqazaltma stansiyası (hər ikisi Gürcüstanda), 1 ərzinburaxma stansiyası (Azərbaycanda) aiddir. Layihə çərçivəsində, həmçinin Supsada ümumi həcmi 1 milyon barel olan 4 iri neft çəni inşa olunub. Kəmərin illik nəqletmə gücü isə 5,1 milyon ton təşkil edir.

Xatırladaq ki, ilk vaxtlarda bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Çıraq” və “Azəri” yataqlarından çıxarılan neft Səngəçal terminalından Qara dəniz sahilində yerləşən Supsa limanına nəql olunub. Xam neft buradan tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınıb.

**Bakıda Azərbaycanın İqtisadiyyat və Sloveniyanın İqtisadiyyat, Turizm və İdman nazirliklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və “SPIRIT Slovenia” Biznesin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan – Sloveniya biznes forumunda hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, İKT, tekstil, turizm, tikinti və maşınqayırma kimi sahələrdə fəaliyyət göstərən 40-a yaxın şirkət nümayəndəsi iştirak edib.**

Mərasimdə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov forum zamanı həyata keçiriləcək qarşılıqlı faydalı müzakirələrin əməli addımlar və konkret layihələrlə müşayiət olunacağına, nəticə etibarilə Azərbaycan – Sloveniya tərəfdaşlığının

# Sloveniya ilə birgə biznes forumu



güclənərək daha dayanıqlı və çoxşaxəli xarakter almasına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Azərbaycan və Sloveniya arasında son zamanlar dinamik xarakter alan yüksək səviyyəli səfərlərin, artan siyasi dialoqun, genişlənən iqtisadi əməkdaşlığın, habelə ilk dəfə təşkil olunmuş Birgə İşçi Qrupunun iclasının və biznes forumun hər iki tərəfin qarşılıqlı marağının, eləcə də bir çox sahələr üzrə əməkdaşlıq niyyətinin aydın təzahürü olduğu vurğulanıb. Çıxış zamanı sloveniyalı biznes tərəfdaşları Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur regionlarında aparılan bərpa və yenidənqurma fəaliyyətlərində fəal iştirak etməyə, xüsusilə də həmin regionlarda investisiya layihələrini nəzərdən keçirməyə dəvət olunub.

Sloveniyanın xarici işlər və Avropa işləri naziri xanım Tanya Fayon ölkəsinin Azərbaycanla özəl sektor sahəsində qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb, iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə əməkdaşlığın perspektivləri haqqında fikirlərini bölüşüb.

Biznes forumda Azərbaycanın maliyyə nazirinin birinci müavini Anar Kərimov və Sloveniyanın İqtisadiyyat, Turizm və İdman Nazirliyinin baş katibi Mitya Blaqanye iqtisadi tərəfdaşlığın genişlənməsi, işgüzar dairələr arasında əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyəti, qarşılıqlı ticarət və sərmayə yatırımı imkanları barədə danışıb, AZPROMO-nun icraçı direktorunun müavini Tural Hacılı və “SPIRIT Slovenia”nın nümayəndəsi Tanya Drobniç isə Azərbaycan və Sloveniyanın biznes və investisiya potensialına dair təqdimatlarla çıxış ediblər.

Forum zamanı Azərbaycanın “Bestcomp Group” və Sloveniyanın “Kontron” şirkətləri arasında ticarət sazişi imzalanıb, B2B və B2G görüşlər təşkil olunub.

# Aqrar sahə ilə uğurla başlayıb



**Bu ilin birinci rübündə ölkəmizdə 1 milyard 602 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz çoxdur. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, son 1 ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 13 faiz artaraq 91,5 milyon manata, heyvandarlıq məhsullarının dəyəri isə 1,2 faiz artaraq 1 milyard 510 milyon manata çatıb.

Hazırda ölkədə yaz-tarla işləri davam etdirilir. Cari ilin yanvar-mart aylarında 122,2 min hektar sahədə və ya ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox yazlıq bitkilərin səpini aparılıb. İlin əvvəlindən 24 min hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 5,1 min hektarı dən üçün qarğıdalı), 26,9 min hektar sahədə tərəvəz, 26,1 min hektar sahədə kartof, 3,9 min hektar sahədə bostan bitkiləri, 3,1 min hektar sahədə dən üçün günəbaxan, 1,6 min hektar sahədə şəkər çuğunduru, 0,1 min hektar sahədə pambıq, 33,1 min hektar sahədə çoxillik otlar və 3,4 min hektar sahədə birillik otlar əkilib.

Bu ilin ilk 3 ayı ərzində ölkədə quş əti də daxil olmaqla diri çəkidə 141,6 min ton ət, 502,8 min ton süd, 583,1 milyon ədəd yumurta istehsal edilib. 2024-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7 faiz, yumurta istehsalı 2 faiz artıb, süd istehsalı isə 0,3 faiz azalıb.

# “Xocalı” gəmisinin sorağı Hind okeanından gəlir




**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinə (ASCO) məxsus “Xocalı” gəmisi istismar müddətində ilk dəfə Hind okeanına daxil olub. Bu barədə ASCO-dan məlumat verilib.**

Bildirilib ki, cari ilin martında ABŞ-ın Portland limanından 37 min ton kalsiumlu soda yükləyən gəmi Sakit okean üzərindən hərəkət edərək İndoneziyanın Cakarta limanına çatıb. Burada yükün bir hissəsi boşaldıldıqdan sonra “Xocalı” İndoneziya və Malayziya arasındakı Malakka boğazını keçərək Hind okeanına yönəlib. Hazırda Hindistan istiqamətində hərəkət edən gəmi marşrut çərçivəsində ilk olaraq Kattupalli limanında, daha sonra Kandla limanında yükboşaltma əməliyyatını yerinə yetirəcək.

Qeyd edək ki, “Handysize” tipli bu gəmi ASCO-nun Xəzərdənkənar sularda yükdaşıma potensialının artırılması və fəaliyyət coğrafiyasının genişləndirilməsi məqsədilə 2024-cü ilin mayında istismara verilib. “Xocalı” gəmisinin dedveyti 38 min 593 ton təşkil edir. Gəminin uzunluğu 180 metr, eni 30 metr, suya oturumu isə 10,47 metrdir. Maksimum sürəti 15,7 uzel olan gəmi məhdudiyyətsiz üzmə imkanlarına malikdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# İlham Əliyev:

# “Biz sizinlə Cəbrayılda görüşəcəyik...”

## *Bu, sadəcə, bir vəd deyil, Zəfərli Qayıdışın müjdəsi idi*



Prezident İlham Əliyevin Biləsuvar rayonunda məskunlaşan cəbrayıllı məcburi köçkünlərlə görüşü – 18 aprel 2008-ci il.



Prezident İlham Əliyevin Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında cəbrayıllılarla görüşü – 4 oktyabr 2024-cü il.

**Kiçik Qafqaz dağlarının cənub-şərqində, Araz çayının sol sahilində, İran İslam Respublikası ilə qonşuluqda yerləşən Cəbrayıl rayonunu Ermənistan Silahlı Qüvvələri 1993-cü il avqustun 23-də işğal etmişdi.**

Cəbrayıl əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olub. Rayonda quruculuq işləri isə ötən əsrin 70-ci illərindən genişlənib. O zaman rayon mərkəzində yeni yaşayış massivləri salınıb, kəndlər abadlaşdırılıb. Cəbrayılın rəmzi yurdun qədimliyinin timsalı olaraq yaşı əsrlərə söykənən Xan çinar olub.

Həmin dövrdə Cəbrayılın hərtərəfli inkişafında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə regionda üzümçülüyün genişləndirilməsinin önəmli rolu olub. Rayonun o illərdəki yüksəlişini Ulu öndər 1996-cı il sentyabrın 7-də Füzuli, Cəbrayıl və Qubadlının işğalının üçüncü ildönümü ilə əlaqədar həmin rayonların ictimaiyyət nümayəndələri ilə keçirdiyi görüşdə belə yada salmışdı: “Xatirimdədir, Cəbrayıl rayonu pambıq əkirdi, hər il də mən oranın rəhbərlərini tənqid edirdim ki, onlar 2 min tondan artıq pambıq yığa bilmirlər. Sonra biz araşdırma apardıq və müəyyən etdik ki, orada çox böyük üzüm bağları salmaq olar. Üzüm bağları saldıq və burada deyildiyi kimi, bir neçə ildən sonra rayonda 50 min ton üzüm istehsal olundu. İnsanlar nə qədər zənginləşdi”.

Bəli, Cəbrayıl işğala qədər sürətlə inkişaf etmişdi, insanların güzəranı durmadan yaxşılaşmışdı. Həmin illərdə rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, mal-qara kökəltmə birliyi, quşçuluq fabriki, 510 çarpayılıq birləşmiş xəstəxana, 72 ümumtəhsil və 3 musiqi məktəbi, 44 mədəniyyət evi və klub, 78 kitabxana və tarix muzeyi fəaliyyət göstərmişdi. Erməni vandalları yaraşıqlı Cəbrayıl şəhərini, 100-ə yaxın abad kəndi yer üzündən silməklə, rayonun mədəni irsini bütünlüklə məhv etmişlər.

Cəbrayıllılar ölkənin 58 rayonunun 2 minədək yaşayış məntəqəsində məskunlaşaraq 31 il məhrumiyyətli məcburi köçkünlük həyatı yaşamışlar. Qarabağ müharibəsində rayonun 362 sakini şəhid, 191 nəfər əlil olub. 6 cəbrayıllı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

2008-ci ilin aprel ayının 18-də Azərbaycan Prezidenti İlham Əliyev Füzuli və Beyləqan rayonlarına səfəri çərçivəsində Biləsuvar rayonunda Cəbrayıldan olan məcburi köçkünlər üçün salınmış qəsəbəyə də gəlmişdi. Burada dövlət başçısına məlumat verildi ki, buradakı 5 qəsəbədə 1858 ailə məskunlaşıb. Hər qəsəbədə məktəb, uşaq bağçası, inzibati bina, poçt şöbəsi, həkim ambulatoriyası, klub-idman mərkəzi, baytarlıq məntəqəsi, yardımçı elektrik stansiyası, yanğınsöndürmə deposu var.

Dövlət başçısı açıq havada bir qrup sakinlə görüşüb səmimi söhbət etdi. Prezidentə minnətdarlıqlarını bildirən sakinlər qeyd etdilər ki, ölkədə aparılan ardıcıl, səmərəli və uzaqgörən siyasət nəticəsində xalqımızın sosial rifahı durmadan yaxşılaşır. Məcburi köçkünlərin sosial müdafiəsi isə yüksək səviyyədə təmin edilir. Yurd həsrətli bu insanları diqqətlə dinləyən ölkə rəhbəri İlham Əliyev onların dərdlərini, ürəklərindəki arzu və istəyi çox dərindən duyduğu üçün, sadəcə, bu sözləri dedi: ***“Biz mütləq Cəbrayılda belə gözəl binalar tikəcəyik”.***

Elə buradaca sakinlər dövlət başçısından bu söhbəti çay süfrəsi arxasında davam etdirməyi xahiş etdilər. Prezidentin bu səfərinin hazırlaması və kecirilməsinin iştirakçılarından biri kimi yada salmaq istəyirəm ki, dövlət başçısının qəsəbəyə səfər proqramında belə bir görüş nəzərdə tutulmamışdı. Amma Prezident İlham Əliyev sakinlərin bu söhbətə böyük mənəvi ehtiyacı olduğunu həssaslıqla qarşıladı və onların təklifini həvəslə qəbul etdi. Yaxınlıqdakı çinarın kölgəsində qoyulmuş masada çay süfrəsi açıldı.

Gözlənilmədən yaranmış bu səhnəni maraqla müşahidə edirdim. Dövlət başçısı yurd xiffəti çəkən vətəndaşlarına elə şövqlə qulaq asırdı, sanki, bütün ağrılarını duymaq, onların dərdlərinə inamlı, qətiyyətli vədləri ilə məlhəm olmaq istəyirdi. Aydın görünürdü ki, onun üçün qaçqın həyatı yaşayan xalqının əhval-ruhiyyəsini hiss etmək çox vacibdir. Dövlət başçısı insanların nə düşündüklərini, hansı əhval-ruhiyyədə olduqlarını, onları narahat edən məsələləri bilavasitə özü eşitmək, onların vəziyyətini daxilən yaşamaq istəyirdi.

Bu həssas və duyğusal görüşdən sonra Prezident qəsəbədəki İsgəndər Tahirov adına 7 nömrəli Mehdili kənd orta məktəbinin həyətində uşaqların nümunəvi idman çıxışlarına baxdı, milli oyunlara tamaşa etdi. Bütün bunlara baxdıqca ölkə rəhbərinin xəyalı uzaqları dolaşırdı. Nəhayət, Prezident İlham Əliyev toplantı iştirakçıları ilə hərarətlə sağollaşdı və sonda böyük bir müjdəyə açar verirmiş kimi inam və qətiyyətlə dedi: ***“Biz sizinlə Cəbrayılda görüşəcəyik”.***

Həmin il Azərbaycanda növbəti prezident seçkiləri keçirilməli idi. Cəbrayıllılar ulu öndər Heydər Əliyevin siyasətinin layiqli davamçısı İlham Əliyevi bir nəfər kimi dəstəklədiklərini, onu yenidən ən ali postda - Prezident kürsüsündə görmək istədiklərini və gözlənilən seçkilərdə öz səslərini yalnız ona verəcəklərini bildirdilər.

Cəbrayıl sakinləri ilə sonrakı illərdə çoxsaylı söhbətlərim olub. Elə bir görüş xatırlamıram ki, onlar o unudulmaz gündən söz açmasınlar – bu səfərin cəbrayıllılara böyük ümid və inam verən qürur dolu bir tarix olduğunu söyləməsinlər. Onlar böyük inamla deyirdilər ki, Qarabağ Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tam azad olunacaq. Dövlət başçısının dediyi kimi, bütün qaçqınlarımız mütləq öz doğma torpaqlarına qayıdacaqlar.



* * *

12 il sonra 2020-ci ilin oktyabrında başlayan 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərimiz, onun ardınca 2023-cü ilin sentyabrında həyata keçirilən bir günlük antiterror tədbirləri nəticəsində işğal olmuş ərazilərimizin tam azad olunması, suverenliyimizin tam bərpa edilməsi yüz minlərlə qaçqının həsrətinə son qoymaqla bərabər, Prezident İlham Əliyevə olan sönsuz ümid və etimadının gerçək olduğunu ortaya qoydu.



Azərbaycanın erməni işğalçıları üzərində qazandığı şanlı qələbədən 6 gün sonra, 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva əsarətdən azad olunan Cəbrayıl rayonuna gəldilər. Dövlət başçısı Cəbrayıl şəhərində və Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Prezidentin və Mehriban xanımın vandal erməni işğalçıları tərəfindən dağıdılıb viran qoyulmuş Cəbrayıl şəhərinin mərkəzinə ürək ağrısı ilə baxmaları yaddaşlara yazıldı.

Bir neçə gün sonra Prezidentin 2020-ci il 24 dekabr tarixli sərəncamı ilə “Cəbrayılın azad olunmasına görə” medalı təsis olundu. Həmin medalla 12 min 523 hərbi qulluqçu təltif edildi. Dövlət başçısının 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 4 oktyabr Cəbrayıl şəhəri günü kimi müəyyən olundu.

Dövlət başçısı ərazi bütövlüyümüzün təmin edilməsindən və dağıdılmış şəhər və kəndlərimizin bərpasına başlamasından sonra ardıcıl olaraq bu regiona səfərlərə çıxmaqdadır. Onlardan bəzilərini, xüsusilə Cəbrayıl rayonuna səfərlərini ardıcıllıqla göstərmək istərdim. Məqsədim 44 günlük Zəfərdən keçən 4 ildə möhtərəm Prezidentimiz İlham Əliyevin təkcə Cəbrayıl rayonunda həyata keçirdiyi bərpa-quruculuq işlərinin yığcam miqyasını göstərməkdir. Prezident 14 fevral 2021-ci ildə Soltanlı kəndində işğaldan azad olunmuş torpaqlarda əkinçiliklə bağlı görülən işlərlə tanış oldu. Elə həmin il aprelin 4-də rayonun girişində bərpa edilmiş “Cəbrayıla xoş gəlmişiniz!” lövhəsinə baxış keçirdi.

Oktyabrın 10-dakı səfər zamanı isə “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, Cəbrayıl şəhərində Mərkəzi Xəstəxananın, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, ilk çoxmənzilli yaşayış məhəlləsinin və Memorial Kompleksin, şəhərin bərpasının təməlqoyma mərasimləri oldu. “Cəbrayıl” yarımstansiyasının, Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılış mərasimlərindən sonra isə rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.

2022-ci il oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Qarabağa səfər etdi və Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının, “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimləri oldu. Elə oradaca Azərbaycan və Türkiyə prezidentlərinin birgə mətbuat konfransı keçirildi.

2023-cü il mayın 5-də gerçəkləşən səfər zamanı uzunluğu 43 kilometr olacaq Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun, sentyabr ayının 28-də Cəbrayıl şəhərində inzibati binanın təməlqoyma mərasimləri keçirildi. Prezident Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış oldu və “Azərişıq” ASC-nin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etdi. Dövlət başçısının 2024-cü il mayın 18–19-da olmuş səfəri isə rayonun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin təməlqoyma, həmçinin “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimləri ilə yadda qaldı.

Amma cəbrayıllıların heç vaxt unutmayacaqları bir gün də var. Dövlət başçısının təsdiqlədiyi Böyük Qayıdışa dair birinci Dövlət Proqramına əsasən, 2024-cü il sentyabrın 26-da respublikanın müxtəlif regionlarında yataqxana, sanatoriya, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış 36 cəbrayıllı ailəsinin – 117 nəfərdən ibarət ilk köç karvanının Cəbrayıl şəhərinə, doğma yurda qayıdışı. Ayağı sayalı olan bu köç karvanının Cəbrayıla ayaq basmasından cəmi bir neçə gün sonra 2024-cü il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıla yenidən səfər etdilər.

Bu səfərdə Azərbaycanın dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir çox tədbirlərlə bərabər, Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında da iştirak ediblər. Elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısına məlumat verərək bildirdi ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif və 5 inzibati otaq var. Sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hərbi hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana var. Məktəbdə internet və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Hazırda məktəbdə 232 şagird təhsil alır.

Ən maraqlı görüşlərdən biri isə şəhərdə inşası tamamlanan yaşayış kompleksinin açılışı oldu. Dövlət başçısı və birinci xanım uzun illər bu günlərin həsrətini çəkən şəhər sakinlərinə yeni mənzillərin açarlarını təqdim ediblər. Bu, həqiqətən unudulmaz və sevgi dolu bir tarix idi. Yeni düzənə başlayan Cəbrayıl şəhərində inşa olunan 33 yaşayış binasından ibarət bu kompleksin ümumi sahəsi 7,9 hektardır. Binalarda tam təmirli, mətbəx mebeli, qaz plitəsi, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş 712 mənzil vətəndaşlara təhvil verildi. Mənzillərlə eyni vaxtda sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq əyləncə və idman meydançaları sakinlərin ixtiyarına verildi.

Azərbaycan Prezidenti 2008-ci il görüşündən fərqli olaraq bu gün mənzillərin açarlarını təqdim etdiyi cəbrayıllıların üzündəki sevinc və fərəhdən özü də çox məmnun və razı görünürdü.

Bu məmnunluq və razılıq duyğuları ilə zəngin olan görüş zamanı dövlət başçısı cəbrayıllılara müraciətlə qeyd etmişdi ki, onlar uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamışlar. İmkan daxilində onların həyatını bir az yüngülləşdirmək üçün bütün lazımi tədbirlər görülmüşdür. Hazırda burada artıq 100-dən çox insan məskunlaşıb, bu gün də, dünən də gələnlər var. Onlardan bir hissəsi Biləsuvardakı qaçqın şəhərciyində yaşamışdır.

Prezident o günlərin acısından bu günlərin Zəfər təəssüratına dönərək dedi:

***“Çalışmışıq ki, yeni mənzillər, yeni evlər tikək və təqribən 300 minə yaxın, bəlkə də çox, keçmiş köçkün 2020-ci ilə qədər normal şəraitlə təmin edilmişdir. Ancaq ondan da çox insan ağır vəziyyətdə yaşamışdır. Ona görə bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm”.***

Artıq 4 ildir ki, təkcə cəbrayıllılar deyil, işğaldan azad edilmiş bütün rayonların sakinləri hər gün yeni bir tarix yaşayırlar. Sinəsi dağlanmış, erməni qəsbkarlarının işğal zamanı viran etdikləri rayon və kəndlərimizin yaraları sağalır, yeni, müasir evlər, yaşayış kompleksləri, sosial oyektlər yurd həsrətlilərini qoynuna alır. Bütün Qarabağ və qarabağlılar bu gün özlərinin ən xoşbəxt günlərini yaşayırlar. 16 il əvvəl dövlət başçısının hər sözünə varlıqları kimi inanan və yanılmadıqlarını görən cəbrayıllılar isə onların ön sıralarındadırlar.

***Rövşən AĞAYEV,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

*(əvvəli ötən saylarımızda)*

Azərbaycan alimləri müharibə dövründə neft, qaz və başqa mineral ehtiyatların axtarışı və çıxarılması sahəsində yeni metodların işlənib hazırlanması, yüksəkoktanlı benzin, yüksəkkeyfiyyətli sürtkü yağları, partlayıcı maddələr, yarımkeçiricilər, maqnitli ərintilər, partlayan boyalar, rabitə vasitələrinin əldə olunması proseslərinin yaradılması sahəsində ümumi işə böyük xidmət göstərmişlər.

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı



**Azərbaycan Milli Elmlər Akademiyasının ilk rəyasət heyətinin həqiqi üzvləri:**
**Oturanlar: Soldan 1-ci Səməd Vurğun, 3-cü Üzeyir Hacıbəyov, 5-ci akademiyanın prezidenti Mir Əsədulla Mirqasımov, 6-cı İosif Esman, 7-ci Aleksandr Qrossqeym, 8-ci Mustafa Topçubaşov.**
**Ayaqüstə: Soldan 1-ci Yusif Məmmədəliyev, 2-ci Mirzə İbrahimov, 3-cü Heydər Hüseynov, 5-ci Mirəli Qaşqay.**

**Arif HƏŞİMOV, akademik**

Müharibənin sonunda elm xadimlərinin qələbədəki rolunu yüksək dəyərləndirən sovet dövləti bir sıra ittifaq respublikalarında milli elmlər akademiyalarının yaradılmasına qərar verdi. Azərbaycan Milli Elmlər Akademiyası da 1945-ci ildə məhz həmin tarixi zərurətdən – ölkənin dağıdılmış iqtisadiyyatını və kadr potensialını bərpa etmək, eləcə də elmi nailiyyətləri dinc quruculuq məqsədlərinə yönəltmək ehtiyacından yaranmışdır.

Bunlara baxmayaraq, SSRİ Elmlər Akademiyasının keçən əsrin 30-cu illərindəki fəaliyyəti, SSRİ-nin müttəfiq respublikalarının qurumlarındakı – filiallarındakı fəaliyyətləri də dövrün siyasi tələblərinə cavab verməklə qarşılarına qoyulan məsələlərin həllinə yönəldilirdi.

Qeyd olunanları biologiya elmləri namizədi A.L.Rijanaşvili "SSRİ Elmlər Akademiyası Zoologiya İnstitutu və 1930-cu illərdə hidrobioloji tədqiqatların institusional yenidən təşkili" (Зоологический институт АН СССР и институциональная реорганизация гидробиологических исследований в 1930-е годы. Вестник Российской Академии Наук, 2020, том 90, № 10, с.



**Əbdürrəhim bəy Haqverdiyev – Azərbaycanın məşhur yazıçısı və ictimai xadimi, 1923-cü ildə təsis olunmuş Azərbaycanın Tətəbbö və Tədqiqi Cəmiyyətinin rəhbəri, SSRİ Elmlər Akademiyasının ölkəşünaslıq bürosunun müxbir üzvü**

967–979) adlı məqaləsində belə ifadə etmişdir: "SSRİ-də siyasi ab-havanın kəskin dəyişməsi biologiyanın bütün sahələri üzrə dünyada nəzəri fikrin sürətli inkişafı ilə üst-üstə düşdü. Ölkəmizdə dünya elminin bu çiçəklənməsi totalitarizmin son formalaşması ilə sarsıldı. 1929-cu ildə İ.V. Stalin "təmiz" elmin zərərini və fundamental tədqiqatların müstəsna olaraq sosializm quruculuğunun tələbləri əsasında təşkilinin zəruriliyini bəyan etdi. 1930-cu illərin əvvəllərində hakimiyyət orqanlarının təbiətə münasibəti tam formalaşdı ki, bu da ekologiya sahəsində elmi tədqiqatların mahiyyətinin və məqsədlərinin dəyişməsinə səbəb oldu".

Akademik C.B.Quliyev "Keçmişin öyrənilməsi. Problemlər, vəzifələr" adlı məqaləsində. (C.B.Quliyev. Tarix: düşüncələr, mülahizələr, qeydlər... (1953-2003), Bakı, "Elm", 2004, 764 səh+48 səh.şəkil.,s.483) göstərirdi: "Bütün elm sahələri kimi, tarix elminin də potensialı illər və onilliklər ərzində toplanır. Açığını deməliyik ki, bizim elmimiz şəxsiyyətə pərəstişdən, durğunluqdan daha çox ziyan çəkmiş, daha çox şey itirmişdir".

Qeyd olunanlar elmin qarşısında duran vəzifələri həmişə düzgün qiymətləndirə bilən, tədqiqatlarının istiqamətlərini fundamental elmi-tədqiqatların nəticələrinə əsaslanaraq müəyyənləşdirən alimlərin fəaliyyətinə maneələr yarada bilmədi. Belə alimlərdən biri SSRİ EA-nın müxbir üzvü, Azərbaycan EA-nın təsisçilərindən biri olan akademik Yusuf Məmmədəliyev idi. Məmmədəliyevin hidrogen energetikasına dair erkən dövrdəki tədqiqatları bu gün qlobal enerji strategiyalarında ön sıradadır. Bu, Azərbaycan elminin yalnız yerli yox, qlobal miqyaslı mövzulara da töhfə verə bildiyinin sübutudur. Alimin vizyonu onun elmi uzaqgörənliyini nümayiş etdirir.

Azərbaycan Milli Elmlər Akademiyasının sadiq prezidenti akademik Yusuf Məmmədəliyevin 1934-cü ildə bu gün qalıq yanacaqlarının tədricən azaldılmasında və enerjinin saxlanılmasında cox əhəmyyətli hesab edilən hidirogen haqqında "Azərbaycanda hidrogen problemi" məqaləsi çap olunmuşdur (Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş "Akademik Yusif Məmmədəliyev" (baş məsləhətçi və elmi redaktor akademik Akif Əlizadə) kitabı. Bakı, Elm, 2015, 192 səh). Hidrogenin alınması sahəsində yüksək nailiyyətlər əldə edən alim ilk dəfə olaraq onun yanacaq kimi istifadəsi haqqında fenomenal nəticəyə gəlmişdir. Alim tərəfindən o vaxtlar irəli sürülən bu nadir ideyalar indi də çox aktual və müasirdir. Hazırda hidrogen energetikası sahəsində geniş tədqiqatlar aparılır və hətta hidrogen ilə işləyən maşınlar istehsal edilir.

Arkadi Sosnov "Poisk" qəzetinin 11 sentyabr 2023–cü il tarixli buraxılışında çap olunan "Quşlar deyəcək. Yeni reallıqlarda Rusiya və Azərbaycan zooloqlarının əməkdaşlığını necə canlandırmaq"(Подскажут птицы. Как возродить сотрудничество российских и азербайджанских зоологов в новых реалиях) məqaləsində yazır ki, SSRİ Elmlər Akademiyası Zoologiya İnstitutunun yorulmaz ornitoloqu Yelizaveta Vladimirovna Kozlovanın izi ilə Azərbaycanın Qızılağac Milli Parkına yollandım. 1930-cu illərdə o, institutun digər əməkdaşları ilə birlikdə mütəmadi olaraq Xəzər dənizinin cənub-qərb sahilinə gəlirdi, burada saysız-hesabsız köçəri quşlar, o cümlədən Rusiyanın şimal-qərbindən gələn quşlar qışlayırdı. İndi Rusiya Elmlər Akademiyasının Zoologiya İnstitutunun fondlarında saxlanılan unikal kolleksiyalar belə formalaşdı. Eyni zamanda, bu cür akademik desantlar, o cümlədən, ilk növbədə Moskva və Leninqrad universitetlərində gənc milli kadrların hazırlanması ittifaq respublikalarında elmi mərkəzlərin yaradılmasına öz töhfəsini verdi. Azərbaycan da istisna deyil; 1935-ci ildə burada SSRİ Elmlər Akademiyasının filialı yaradılmış, 10 ildən sonra Azərbaycan Elmlər Akademiyasına çevrilmişdir. Mənə dedilər ki, Qızılağacda hətta SSRİ Elmlər Akademiyası Zoologiya İnstitutunun kitabxanasından möhürlənmiş kitablar da qorunub saxlanılıb. Bəs siz bilirsinizmi Azərbaycanda Xəzərin qışlaqlarında su quşlarının siyahıya alınması ilə bağlı ən geniş məlumat kimdə var? Moskva Dövlət Universitetinin məzunu Elçin Sultanov aspiranturanı başa vurub, MDU-da namizədlik dissertasiyası müdafiə edib və bu məktəb dərhal gözə dəyir. O zaman respublikanın qüdrətli rəhbəri Heydər Əliyeviç Əliyev Azərbaycan məktəblərindən müsabiqə yolu ilə seçilən 800 istedadlı məzununa hər il ən yaxşı sovet ali məktəblərinə daxil olmaq imkanı yaratdı. Bakının ziyalı ailəsindən olan bir gənc Moskva Dövlət Universitetinin biologiya fakültəsini belə bitirdi".

Nəhayət, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il dekabrın 31-də Prezident sarayında Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kə-



rimovu qəbul edərkən Azərbaycanda akademik elmi mərkəzin yaradılmasını belə şərh etmişdir: "Ancaq tarixin müəyyən bir mərhələsində – 1945-ci ildə, İkinci Dünya müharibəsi qurtaran zaman, ən çətin dövrdə yaranmış akademiyanı təəssüflər olsun ki, 1980-ci illərin sonunda, 1990-cı illərin əvvəllərində dağıtmaq istədilər və əslində, o səviyyəyə gətirib çıxardılar. Biz bunun qarşısını aldıq, buna imkan vermədik və seçkilərlə, aparılan başqa tədbirlərlə, maaşların artırılması ilə akademiyaya yeni bir nəfəs verdik. Milli Elmlər Akademiyası indi əvvəlki kimi işləyə bilməz. Vaxtilə SSRİ-də müttəfiq respublikalarda milli kadrların hazırlanmasını təmin etmək üçün və hər respublikanın elmi potensialından yerlərdə istifadə etmək üçün belə akademiyalar yaradılmışdır. Ancaq bu, o vaxtın tələbi idi. O vaxt belə idi ki, istər kiçik olsun, istərsə də böyük olsun, müttəfiq respublikalardakı akademiyaların fəaliyyətində SSRİ Elmlər Akademiyasında olan istiqamətlərin hamısı əksini tapırdı və bütün sahələrdə elmi axtarışlar aparılırdı. İndi müstəqil olan bu ölkələrin hər birinin öz milli akademiyası var. Hər bir ölkə özü müəyyən edir ki, ona akademiya lazımdır, yoxsa lazım deyildir. Əgər lazımdırsa, bu, hansı strukturda lazımdır. Bu struktur da bu ölkənin tələbatına uyğun olmalıdır. Təbiidir ki, ölkənin tələbatları çox dar çərçivədə ödənilmir. Birincisi, ölkənin özünün elmi potensialı, ikinicisi, elmi bazası, maddi-texniki bazası olmalıdır. Üçüncüsü, Azərbaycanda elə elmlər var ki, daim inkişaf etməlidir. Məsələn, neft sahəsi. Bu, daim yaşayacaqdır, çünki neft, qaz bizim zəngin sərvətlərimizdir. Bu sahədə elmi-tədqiqat işləri getməlidir. Yaxud təbiətə, torpağa, başqa şeylərə aid olan sahələrdə elmi işlər getməlidir".

Bu çıxışda AMEA-nın müstəqil dövlət şəraitində funksiyalarının dəyişməsi və yenilənməsi tələb olunur. Artıq yalnız sovet modelinə əsaslanmayan, öz milli prioritetlərini və ehtiyaclarını müəyyənləşdirən yeni bir akademik vizyon ortaya qoyulmuşdu. Elmi-siyasi sintez burada özünü ən bariz şəkildə göstərir.

Məqalədə AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin Akademiyanın ilk iki 10 illiyinin elmi-təşkilati strukturunun qurulması və elmin əsaslarının yaradılması dövrü kimi verildiyinə əsaslanaraq ilkin olaraq bu dövrü qısa şəkildə şəhr etməklə onun gələcəyə ünvanlanan fəaliyyətinə o dövrün tarixi reallıqları şəraitində əldə edilən nəticələi qiymətləndirməklə baxışlarımızı müəyyən etməyi məqsədəuyğun hesab etdik. İsa Həbibbəylinin dövr bölgüsü yalnız struktur deyil, həm də dəyərləndirmə funksiyası daşıyır. Akademiyanın ilk onillikləri onun öz tarixi və elmi kimliyini formalaşdırdığı mərhələ kimi qiymətləndirilir ki, bu da gələcək dövrlər üçün möhkəm təməl kimi çıxış edir.

## Birinci onillik

Azərbaycanın ali elmi qurumu olan Akademiya yarandığı gündən elmimizdə və mədəniyyətimizdə əhəmiyyətli yer tutur. Nizaminin yubileyinə həsr ounmuş təntənəli tədbirin Akademiyada keçirilən ilk mötəbər tədbir olması bunun bariz nümunəsidir. Akademiyanın təsis olunması elmi biliklərin institusional idarə olunması prosesinin başlanğıcı olmaqla, Azərbaycanda fundamental və tətbiqi elmlərin sistemli inkişafına şərait yaratdı. Bu, həm də milli intellektual kapitalın mərkəzləşdirilməsinin ilk forması idi.

Azərbaycanda və ittifaq miqyasında Nizaminin yubiley tədbirlərinə hazırlıq 1946-cı ildən başlanır. Sentyabrın 22-də Azərbaycan SSR Elmlər Akademiyasının binasında Nizaminin 800 illik yubileyi ilə bağlı SSRİ Yazıçıları İttifaqı Rəyasət Heyəti ilə Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin birgə plenumu baş tutur. Giriş nitqini SSRİ Yazıçılar İttifaqının baş katibi A.Fadeyev söyləyir. Nizaminin yaradıcılığı ilə bağlı məruzələr, çıxışlar səslənir. Xalq şairi Səməd Vurğunun "Nizami irsi və müasir dövrümüz" məruzəsi maraqla dinlənilir. Plenum iki gün davam edir. Sentyabrın 24-də Nizami Muzeyinin açılışı baş tutur. Bu barədə məlumat Fəridə Səfiyevanın "Bir ömrün iziylə" (."Elm", Bakı, 2018, 296 səh.) adlı kitabında verilmişdir. Bu məruzə vasitəsilə Vurğun, klassik ədəbi irsin çağdaş sosialist cəmiyyətinin idealları ilə uzlaşdırılmasına nail olmağa çalışmış, ədəbiyyatın tərbiyəedici funksiyasını vurğulamışdır.

Akademik H.Hüseynov 1948-ci ildə 4 cildlik "Tam rus-Azərbaycan lüğəti"nə görə Stalin mükafatına layiq görülmüşdür. Bu mükafat, yalnız elmi dəyərin deyil, həm də ideoloji uyğunluğun tanınmasının ifadəsi idi. O dövrün kontekstində elmi nailiyyətlər ideoloji konformizm ilə sıx bağlı idi.

Fəridə Səfiyeva həmçinin qeyd edir ki, "Bakinskiy raboçiy" qəzetinin 1 iyun nömrəsində çıxan "Qabaqcıl sovet elminin yeni qələbələri" («Новые победы передовой советской науки») məqalədə deyilir: "Filologiya üzrə ən yaxşı işlərdən biri kimi Azərbaycan EA-nın həqiqi üzvü Heydər Hüseynov, Azərbaycan EA-nın Dilçilik İnstitutunun direktoru Y.A.Mirbabayev və həmin institutun Lüğət və terminologiya şöbəsinin müdiri A.A.Orucov tərəfindən hazırlanmış lüğət hesab olunur. Lüğət söz ehtiyatı baxımından bu günə qədər mövcud olan lüğətlərin ən genişidir". Qəzetin həmin nömrəsində SSRİ EA-nın prezidenti akademik Vavilovun H.Hüseynova ünvanladığı təbrik teleqramı çap olunur: "Bakı, Azərbaycan SSR Elmlər Akademiyası, H.Hüseynova. Sizi, elmi işlərinizə yüksək qiymət verilməsinə sübut kimi, Stalin mükafatı almanız münasibətilə təbrik edirəm. Yeni uğurlar arzu edirəm. SSRİ EA-nın prezidenti akademik Vavilov".

Azərbaycan Elmlər Akademiyasının 1950-ci il üzrə icmalı və yubiley sessiyası haqqında məlumatlar "Kommunist" qəzetinin 1 yanvar 1950-ci il tarixli nömrəsində nəşr olunan "Azərbaycan Elmlər Akademiyası 1950-ci ildə" və "Azərbaycan SSR Elmlər Akademiyasının ilk yubiley sessiyası" adlı məqalələr əsasında verilir:

Azərbaycan Elmlər Akademiyası 1950-ci ildə. Azərbaycan SSR Elmlər Akademiyasının 1950-ci ildə görəcəyi iş müharibə sonrası Stalin beşilliyinin sonuncu qəti ili vəzifələrinə tabe etdirilmiş və akademiyanın beşillik planını müvəffəqiyyətlə başa çatdırmaqdan ibarət olmuşdur. Bu işlər əsas etibarilə akademiyanın 4 şöbəsində mərkəzləşdirilmişdir.

Geoloji-kimya elmləri şöbəsi öz planını yeni Stalin beşilliyinin qarşıya qoyduğu vəzifələr və Azərbaycan bolşeviklərinin XVII qurultayında M.C.Bağırov yoldaşın məruzəsi əsasında tərtib etmişdir. Şöbə neft sənayesinin geoloji və neft kimyasının əsas məsələlərini həll etməli idi. Şöbənin institutları öz işlərini neft sənayesinin inkişafı ilə əlaqədar olan mövzular əsasında qurmuşdur.

1950-ci ildə həll ediləcək əsas məsələlərdən biri də respublikanın faydalı qazıntılarını axtarıb tapmaq idi. Bundan əlavə Xəzər dənizinin səthinin dəyişməsi, nəhəng Mingəçevir su-elektrik stansiyası tikintisilə əlaqədar olan respublikada iqtisadi-coğrafi rayonlaşdırma və başqa bir sıra bu kimi mühüm məsələlər də həll olunacaqdır. Bu prioritet, iqtisadiyyatın xammal bazasına söykənən inkişaf modelinin elmi təminatını yaratmağa xidmət edirdi və tədqiqatların strateji yönünü müəyyənləşdirirdi.

Bioloji və kənd təsərrüfatı elmləri şöbəsi 1950-ci ildə respublika kənd təsərrüfatının məhsuldarlığını daha da artırmaqla məşğul olmuşdur. Aqrokimya və Torpaqşünaslıq İnstitutu neft sənayesinin müxtəlif tullantılarından, mədən və orqanik kübrələrdən istifadə edilməsi, hərarət, su və havanın ağır torpaqlara təsiri məsələlərini öyrənmişdir. Şöbənin görəcəyi işlər içərisində respublikada çay əkini sahəsini 20 min hektara çatdırmaq vəzifəsi də dururdu.

İctimai elmlər şöbəsi 1950-ci ildə Azərbaycanın tarixi, maddi mədəniyyəti, etnoqrafiyası, ədəbiyyat və incəsənət tarixi, fəlsəfə, dil və iqtisadiyyat məsələləri ilə əlaqədar olan bir sıra mühüm işlər görmüşdür.

A.A.Bakıxanov adına Tarix İnstitutu 1950-ci ildə iki cildlik "Azərbaycan tarixi"ni buraxmışdır. Bu mühüm əsərin birinci cildi qədim zamandan başlayaraq XVIII əsrədək olan dövrü, ikinci cildi isə XIX əsrdən Böyük Vətən Müharibəsinədək olan dövrü əhatə edir. Cildlərin hər biri 30-35 çap vərəqi həcmindədir. Bu cildlərdə təqdim olunan tarix sovet baxış bucağına uyğun redaktə olunmuş, sinfi yanaşma tarixin əsas prinsipi kimi tətbiq edilmişdir. Lakin eyni zamanda bu nəşrlər milli tarixçilik ənənəsinin qorunmasına da xidmət edirdi.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu 6 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin qədim dövrə aid olan birinci cildinin yazılışını başa çatdıraraq, sovet ədəbiyyatı dövrünü əhatə edən 6-cı cildi çapa vermişdir. İnstitut bu mükəmməl əsərdə birlikdə respublikanın görkəmli şəxsiyyətləri haqqında monoqrafiya da buraxacaqlar. Birinci növbədə böyük demokrat yazıçı Mirzə Cəlil Məmmədquluzadə, inqilabçı şair Mirzə Ələkbər Sabir və şair – istedadlı tərcüməçi Abbas Səhhət haqqında monoqrafiyalar nəşr edilmişdir. Böyük alim və dramaturq Mirzə Fətəli Axundov haqqında yeni elmi əsər buraxılmış, "Rus yazıçıları Azərbaycan haqqında", "Azərbaycan sovet ədəbiyyatında bolşevik surəti", "Azərbaycan sovet ədəbiyyatında xalqların Stalin dostluğu" və "Sovet dövründə Azərbaycanda aşıq poeziyası" kimi qiymətli əsərlər çap edilmişdir. Bunlardan əlavə fəlsəfə, tarix, ədəbiyyat, incəsənət, dil və lüğət sahələrinə aid olan bir sıra elmi əsər çapa verilmişdir.

Akademiyanın Fəlsəfə İnstitutu tərəfindən ilk dəfə olaraq SSRİ xalqları mütəfəkkirlərinin həyat və fəaliyyətinə aid elmi məlumatları əks etdirən Azərbaycanca fəlsəfə lüğəti hazırlanıb nəşr etdirilmişdir. Bundan başqa Azərbaycanda fəlsəfi və ictimai fikrin inkişafına dair bir sıra elmi-tədqiqat əsərləri nəşr edilmişdir.

Elmlər Akademiyası 1950-ci ildə böyük Leninin anadan olmasının 80 illiyi, Azərbaycanca ilk "Əkinçi" qəzetinin 75 illiyi, böyük alim və mütəfəkkir Mirzə Məmmədəli Kazım bəyin vəfatının 80 illiyi və digər tarixi hadisələrə həsr edilmiş elmi sessiyalar keçirmiş, Azərbaycanın böyük bəstəkarı Üzeyir Hacıbəyovun "Seçilmiş əsərləri"nin birinci cildini buraxmış, Mingəçevir Su Elektrik Stansiyasının tikintisi ətrafında başlanmış elmi qazıntı işlərini davam etdirmiş və buraya ekspedisiyalar göndərmişdir. Məlumat "Kommunist" qəzetinin, 1 yanvar 1950-ci il nömrəsində verilmidir.

## İlk yubiley sessiyası

Azərbaycanda Sovet Hakimiyyəti qurulmasının 35-ci ildönümü və Azərbaycan SSR Elmlər Akademiyasının 10 illiyi münasibətilə 23 aprel 1955-ci ildə axşam saat 7-də Azərbaycan SSR Elmlər Akademiyasının elmi sessiyası başlamışdır. Akademiyanın böyük salonuna elmi işçilər, SSRİ Elmlər Akademiyasının və müttəfiq respublikaların Elmlər Akademiyalarının nümayəndə heyətləri, ictimaiyyət nümayəndələri, partiya, sovet işçiləri və başqaları toplaşmışdılar. Bu sessiya, sovet elmi ictimaiyyətində Azərbaycan elminin yerini və perspektivlərini nümayiş etdirməklə yanaşı, həm də milli elmi kadrların yetişdirilməsi prosesinin legitimləşdirilməsi baxımından əlamətdar idi.

Sessiyanı qısa giriş nitqi ilə qocaman alim, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü M.Mirqasımov açmışdır. Elmlər Akademiyasının prezidenti, akademik M.M.Əliyev "Azərbaycan SSR Elmlər Akademiyasının 10 illiyi" adlı məruzə ilə çıxış edərək, Azərbaycan xalqının xalq təsərrüfatının, elmin və mədəniyyətin inkişafındakı mühüm nailiyyətlərindən bəhz etmişdir.

**(ardı var)**

# I İslam Dünyası Mədəniyyət Forumu



**Aprelin 17-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada “Postmünaqişə dövründə mədəni irsin qorunması və dirçəldilməsi” adlı I İslam Dünyası Mədəniyyət Forumu keçirilib. Forumun açılışında Ağdam, Füzuli və Xocavənd rayonlarında, Şuşada Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri Emin Hüseynov və Aydın Kərimov, mədəniyyət nazirinin müavinləri Fərid Cəfərov, Səadət Yusifova və ICESCO-dan rəsmilər, beynəlxalq ekspertlər, eləcə də mədəni irsin qorunması sahəsində çalışan mütəxəssislər iştirak ediblər.**

Nazir müavini Səadət Yusifova tədbirin aktual mövzuya həsr olunduğunu deyib. O bildirib ki, forum “Şuşa – 2024 İslam Dünyasının Mədəniyyət Paytaxtı” üzrə fəaliyyət planının tərkib hissəsidir. “Təəssüf ki, biz silahlı münaqişənin mədəni sərvətlərimizə dağıdıcı təsirini yaşamış ölkəyik. Mədəni obyektlərin dağıdılması, talan edilməsi və təhqir olunması bizi təkcə keçmişimizdən məhrum etmir, həm də kollektiv yaddaşımızın təməlini sarsıdır", – deyə diqqətə çatdırıb.

Qeyd olunub ki, forumda ICESCO-ya üzv dövlətlərin siyasətçiləri, ekspertləri, mədəniyyət xadimləri, alimləri ilə birlikdə silahlı münaqişələr zamanı və ondan sonra İslam dünyasında mədəni irsin qorunması və canlandırılması problemlərinin həll edilməsi qarşıya məqsəd qoyulub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimiz tərəfindən azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı ətraflı məlumat verərək vurğulayıb ki, işğal zamanı erməni vandalizminə məruz qalmış bir sıra mədəni irs obyektlərinin bərpası və dirçəldilməsi prosesi Ali Baş Komandanın rəhbərliyi ilə davam etdirilir.

ICESCO Bakı Regional Ofisinin direktoru Abdulhakeem Fahad Alsenan, ICESCO-nun İslam Dünyası İrsi Mərkəzinin direktoru Vebber Ndoro forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlıq edərək, beynəlxalq qurumun bərpa proqramlarından danışıblar.

Əsas məqsədi postmünaqişə dövründə bölgələrdə dağıdılmış və təhlükə altında olan mədəni irsin qorunması, yenidən bərpası və bu sahədə İslam dünyası ölkələri arasında əməkdaşlığın gücləndirilməsi olan forum çərçivəsində “Beynəlxalq qoruma mexanizmlərinin təcrübədə tətbiqi: Postmünaqişədən sonra İslam Dünyasında mədəni irsin nümunələri” mövzusunda müzakirələr aparılıb. İlk panel zamanı iştirakçılar müxtəlif ölkələrdən olan uğurlu bərpa




layihələri, hüquqi və institusional yanaşmalar barədə təqdimatlar ediblər. Növbəti panel isə “Mədəni irsin canlandırılması: Texnologiya, innovasiya və rəqəmsallaşma” mövzusuna həsr olunub. Burada müasir texnologiyaların irsin sənədləşdirilməsi və qorunmasında oynadığı rol, o cümlədən süni intellekt və 3D modelləşdirmə texnologiyalarının tətbiqi imkanları sərf-nəzər edilib. Panellərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva və nazirliyin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərrux Cumayev moderatorluq ediblər.

Şuşa Şəhəri Dövlət Qoruğunun icraçı direktoru Tural Novruzov qala-şəhərin tarixi-mədəni zənginlikləri barədə məlumat verib. Qoruq ərazisindəki abidələrin, o cümlədən İslam irsinin bərpa və konservasiyası sahəsində görülən işlərdən söz açıb. ICESCO-nun İslam Dünyası İrsi Mərkəzinin eksperti Məhəmməd əl-Absi mərkəz tərəfindən abidələrin tədqiqi, qorunması və bərpası istiqamətində görülən işlər barədə məlumat verib. Texnoloji innovasiyalar üzrə mütəxəssis Tal Katran ICESCO-ya üzv ölkələri müvafiq sahə üzrə təcrübə mübadiləsinə, səyləri birləşdirməyə dəvət edib.

Panellər mütəxəssislərin fikir mübadiləsi ilə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# Şuşa daha bir missiyasını başa çatdırdı



**İCESCO-nun qərarı ilə Şuşa şəhəri 2024-cü ildə “İslam dünyasının mədəniyyət paytaxtı” seçilmişdi. İl ərzində bu çərçivədə beynəlxalq əhəmiyyətli bir sıra mədəni tədbirlər keçirilib.**

Bu missiyanın başa çatması münasibətilə bağlanış mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, Mədəniyyət nazirinin müavini Fərid Cəfərov “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı” ilinin əhəmiyyətindən danışıblar. Eyni zamanda, il ərzində görülən tədbirlər barədə məlumat verilərək bildirilib ki, İCESCO Azərbaycanın postmünaqişə dövründə bərpa sahəsindəki təcrübəsini yüksək qiymətləndirdirib. İCESCO ilə tərəfdaşlıq Azərbaycana mədəni irsini gələcək nəsillər üçün effektiv şəkildə qorumaq və dirçəltmək üçün güvən və resurslar verir.

İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik videomüraciətində deyib ki, Şuşa bizə tarixin şərəfləndirildiyi, rəhbərliyin uzaqgörən olduğu və İslam dünyasının mədəniyyət, bilik və ruhla birləşdiyi zaman nəyin mümkün olduğunu göstərdi. “Şuşa mədəni ləyaqətin rəmzi, İslam yaradıcılığının mayakı və xalqların keçmişlərinə qürurla, gələcəklərinə isə inamla addımladıqda nələrə nail ola biləcəklərinin canlı sübutuna çevrilib.

İCESCO-nun Baş direktoru bildirib: “Şuşa Mədəniyyət Paytaxtı elan edildiyi ilk gündən etibarən öz yerini alaraq inkişaf etdi, lakin daha da əhəmiyyətlisi, mədəni mükəmməllikdə liderliyini yenidən müəyyənləşdirdi. Əziz Şuşa, biz bu bayramı bağlamırıq. Lakin sizinlə və sizin xalqınızla yeni bir mədəniyyət dövrü açırıq. Azərbaycana təşəkkür edirik”.

Daha sonda mərasim təntənəli konsert proqramı ilə davam etdirilib.

***XQ***

Elm və təhsil

# Şəhid polkovnikin çempion oğlu

**Qarabağda antiterror tədbirləri zamanı qəhrəmancasına şəhid olan polkovnik-leytenant Əkrəm Şadmanovun oğlu Araz Şadmanzadə uzaq Avstraliyanın Sidney şəhərində keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasının çempionu olub, Vətənə qızıl medalla qayıdıb.**



Xəbəri eşidər-eşitməz Sidneyə zəng vurduq. Arazın anası Gülşən Rəhimova ilə əlaqə saxladıq. O bildirdi ki, dünyanın dörd bir yerindən gələn 64 iştirakçı arasında təkcə Araz Şadmanov 1 saatlıq yarışmanı 18 dəqiqə 22 saniyəyə bitirdiyi üçün fərqlənərək qızıl medal qazanıb:

– Araz ötən ilin dekabrında keçirilən IMEC Onlayn Riyaziyyat Olimpiadasında qızıl medal qazanaraq, Sidneyə vəsiqə əldə etmişdi. Rəhmətlik Əkrəm çox istəyirdi ki, övladlarının uğur səsi dünyanın hər tərəfindən eşidilsin. Arazın olimpiadalarda iştirak etməsinə dövlətin dəstəyi böyük oldu. Sidneyə gəlişimizin xərclərini Dövlət Sosial Müdafiə Fondu ilə “McDonald's” ödədi.

**Olimpiadanın qəhrəmanı Araz Şadmanzadə da sevinc hisslərini bizimlə bölüşdü:**

– Aşağı siniflərdə oxuyanda şagirdlərin olimpiadalarda çıxışı, medal qazanmaları həmişə diqqətimi çəkib və istəmişəm ki, mən də elə olum. Hələ atama sağlığında demişdim ki, mən də qızıl medal alıb xarici universitetə imtahansız qəbul olacağam. Nəhayət ki, o gün yetişdi – qızıl medal aldım. Verilən vaxtdan da tez bir müddətə sualları cavablandırdım. Bunun üçün mənə 800 dollarlıq “oyun seti” də hədiyyə etdilər. Qalibiyyətim barədə Azərbaycanla yanaşı, Türkiyə və digər ölkələrin kütləvi informasiya vasitələrində yazılar dərc olundu. Ölkəmizdən olimpiadada iştirak edən digər 8 nəfər də müxtəlif medallar qazandı. Azərbaycanın bayrağını dalğalandırmağımızla fəxr edirik. Mənsə atama verdiyim sözü tutduğum, onun arzusunu yerinə yetirdiyim üçün özümü xoşbəxt hesab edirəm.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Kinoxronika

**Azərbaycan kinosu hər kəsin maraq dairəsində olan bir sahədir. Burada baş verən yaradıcılıq proseslərini kinosevərlər həvəslə izləyirlər. Bəs milli kinomuzun nəbzi bu gün necə vurur, hansı yeniliklər var?**




# Milli ekranın tarixi günləri

Qeyd edək ki, aprel ayının fərəhli yeniliklərini bu ərəfədə Prezident İlham Əliyevin 29 mart 2025-ci il tarixli sərəncamı ilə Xalq artisti Şəfiqə Məmmədovanın “İstiqlal” ordeni ilə təltif edilməsi müjdələdi. 80 yaşın zirvəsinə çatan Şəfiqə xanım teatrda oynadığı obrazlarla tanınmaqla bərabər, kinoda da öz dəst-xəttini sevdirə bilib. “Azərbaycanfilm” kinostudiyasının istehsal etdiyi bir çox bədii filmlərdə – “Qaraca Qız” (Pəricahan xanım), “Dədə Qorqud” (Burla xatun), “İstintaq” (Gülya), “Ad günü” (Fəridə), “Çarvadarların izi ilə” (Səriyyə) və s. ekran əsərlərində təkrarsız obrazlar yaradıb. “Bizim Cəbiş müəllim”də ifa etdiyi ana rolu isə 55 ildir ki, könüllərdə taxt-tac qurub.

Aprelin ilk günlərində kinosevərlər yeni bir filmin uğurlu təqdimatına seviniblər. Nizami Kino Mərkəzində Bakı Media Mərkəzinin istehsalı olan “Tağıyev: Çar” bədii filmi geniş təqdim edilib. Bu ekran işi böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə həsr olunan “Tağıyev” layihə-tetralogiyasının (tetralogiya – süjet və müəllif fikri ilə birləşmiş dörd hissədən ibarət əsər – red.) 2-ci hissəsidir. Bu bölümdə rus çarının Bakıya səfəri ərəfəsində baş verən hadisələr fonunda Tağıyevin həyat və fəaliyyəti izləyicilərə təqdim edilir.

Filmin baş prodüseri Arzu Əliyevanın rəhbərliyi ilə prodüser Orman Əliyev və rejissor Zaur Qasımlının ərsəyə gətirdikləri tarixi layihənin ssenarisi İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlıya aiddir. Təqdimatda bu əsər Bakı Media Mərkəzinin milli dəyərlərimizin təbliği və Azərbaycan tarixinin əbədiləşdirilməsi istiqamətində atdığı növbəti vacib addım kimi dəyərləndirildi. “Tağıyev” layihə-tetralogiyası kinomuzda müsbət hadisə, əhəmiyyətli təcrübədir. Xatırladaq ki, layihənin ilki olan “Tağıyev: Neft” ötən il dünyaca məşhur “Dehancer Colourist Awards 2024” festivalına qatılaraq keyfiyyətli rəng korreksiyalı tammetrajlı film nominasiyasında qalib gəlib. Artıq bütün kinoteatrlarda göstərilən “Tağıyev: Çar”ın da lazımi qiymətini alacağına inanırıq.

Ötən günlər həm də Çarli Çaplinin (1889–1977) növbəti ad günü, Səməndər Rzayevin 80 illik yubileyi və Eldar Quliyevin anım günü ilə yadda qaldı. Telekanallar, informasiya portalları və saytlar qəribə yerişi olan şlyapalı və çəlikli, qeyri-adi hərəkətləri ilə milyonları güldürən Çarli Çaplini, onun “Dolanışıq üçün pul qazanma”, “Venisdə uşaq avtomobil yarışları”, “Uşaq”, “Müasir zaman” adlı filmlərini xatırlatdılar.

Ç.Çaplindən 13 il sonra dünyaya göz açan, ondan 1 il sonra isə vəfat edən İsmayıl Osmanlının (1902–1978) adı gələndə öncə “Yeddi oğul istərəm” filmində oynadığı Kələntər dayı obrazı göz önündə canlanır. “Kəndlilər” filmində (daxili işlər naziri), “Bir məhəlləli iki oğlan”da (Mahmud), “O olmasın, bu olsun”da (Rza bəy), “Əsl dost”da (Usta Şirəli), “Yenilməz batalyon”da (dərzi Yusif), “Mən ki gözəl deyildim”də (Poçt müdiri Şərif), “26-lar”da (Şahbazov), “Ulduzlar sönmür”də (Hacı Zeynalabdin Tağıyev), “Nəsimi”də (Nəimi) rollarını da İsmayıl Osmanlı böyük ustalıqla oynayıb.

Azərbaycan Dövlət Film Fondunda isə görkəmli teatr və kino aktyoru, Əməkdar artist Səməndər Rzayevin anadan olmasının 80 illiyi münasibətilə xatirə gecəsi qədirbilənliklə keçirildi. Fondun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) sədri, Xalq artisti Rasim Balayev, Xalq artistləri Şəfiqə Məmmədova, Rafiq Əzimov, Tariyel Qasımov, sənətşünaslıq doktoru, professor İlham Rəhimli tanınmış aktyorla bağlı xatirələrini bölüşdülər. Tədbir boyu sənətkarın həyat və yaradıcılığını özündə əks etdirən videoçarx və aktyorun çəkildiyi, dublyaj etdiyi filmlərdən fraqmentlər nümayiş etdirildi.

Vəfatından 4 il ötən tanınmış kinorejissor və ssenarist, Xalq artisti Eldar Quliyev də ehtiramla xatırlanır. O, 20-yə yaxın bədii və çoxsaylı sənədli filmlər çəkib. “Babək” filmi peşəkarlıq səviyyəsinə, kütləvi və batal səhnələrin miqyasına görə heç də xaricdə istehsal olunan bu tipli ekran əsərlərindən geri qalmır. Həmin illərdə “Babək”i 52 ölkə satın alıb. Eldar Quliyev bunlarla yanaşı, “Ən vacib müsahibə”, “Var olun, qızlar”, “Ürək… Ürək…”, “Nizami”, “Nə gözəldir bu dünya…”, “Girov”, “İstanbul reysi”, “Dərvişin qeydləri” və s. filmlərə quruluş verib, ssenari müəllifi olub. Filmlərinin bir neçəsi kinofestivallarda mükafatlara layiq görülüb. “Debüt” studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kino kafedrasının professoru olub.

Bu günlərdə Bişkekdə keçirilən sayca 12-ci Beynəlxalq “Umid” kinoforumundan da xoş xəbər gəldi. Orada ölkəmiz iki ekran əsəri – Azər Quliyevin “Sanki yoxsan” və Murad Şükürlünün “Bir vaxtlar Sabunçuda” ilə təmsil olunub. “Sanki yoxsan” filmi münsiflər heyəti və tamaşaçılar tərəfindən yüksək qiymətləndirilərək beynəlxalq müsabiqənin baş mükafatına – Qran-Priyə layiq görülüb. Azərbaycan və Fransanın birgə istehsalı olan “Sanki yoxsan”ın quruluşçu rejissoru Azər Quliyev, baş prodüseri Mehman Fətullayev, prodüseri Əli-Səttar Quliyev, quruluşçu rəssamı Quram Navrozaşvilidir.

Eyni zamanda, Azərbaycan nümayəndə heyəti beynəlxalq kinoforumda ermənilərin ölkəmizə qarşı növbəti təxribatının qarşısı almağa nail olub. Layihənin müsabiqə proqramına onların təqdim etdiyi “David bağı” adlı sənədli filmin xalqlar arasında nifaqın kəskinləşməsinə səbəb ola biləcəyi ilə bağlı beynəlxalq tədbirin təşkilat komitəsinə müraciət olunub. Bildirilib ki, filmdə Azərbaycan ərazilərinə aid toponimlər məqsədli şəkildə təhrif edilərək erməni yer adları kimi təqdim olunur. Müraciətdən sonra saxtakarlıq dolu film proqramdan çıxarılıb. Bu qərarla bağlı məlumat kinoforumun rəsmi saytında və bir sıra media orqanlarında dərc edilib.

Yeri gəlmişkən, AKİ-nin təşəbbüsü ilə yaradılmış ilk və yeganə kinoşünaslıq saytı olan kinoyazar.az may ayında keçiriləcək 78-ci Kann Beynəlxalq Film Festivalında akkreditasiyadan keçib. Saytı müəlliflərindən biri, kinotənqidçi Hacı Səfərov təmsil edərək, festivalda təqdim olunan filmlər haqqında eksklüziv reportajlar hazırlayacaq. Bu hadisə Azərbaycan kinoşünaslığı və mətbuatında bir ilkdir. Bu, Azərbaycan kinosunun beynəlxalq əlaqələrinin möhkəmlənməsi ilə yanaşı, erməni təxribatlarının qarşısının alınmasında da yardımçı olacaq.

Onu da deyək ki, “Ultra Production” və “Cinex Production” şirkətlərinin birgə istehsalı olan, rejissor Elvin Adıgözəlin “Mənim sehrli dünyam” tammetrajlı bədii filminin dünya premyerası bu ayın sonunda Almaniyanın Visbaden şəhərində nüfuzlu “goEast” kino festivalının proqramına daxil edilib. Daha öncə bu film TRT (Türkiyə) televiziya kanalının mükafatına layiq görülmüşdü.

Nəhayət, qeyd edək ki, AKİ aprelin 16-dan bölgələrdə kino günləri layihəsinə yenidən start verib. Budəfəki bölgələr Zərdab, Ucar, Göyçay, Yevlax, Ağdaş rayonlarıdır. Aranda kino günlərində tamaşaçılara çağdaş Azərbaycan kinosunun nümunələri – rejissorlar Aydın Arslanın “Aktyor”, Ruslan Ağazadənin “Balaca”, Emin Əfəndiyevin “Tənha insanın monoloqu”, Orxan Ağazadənin “Oturacaqlar”, Teymur Qəmbərovun “Quxuroba”, Mirsadıq Ağazadənin “Eviniz abad” qısa və tammetrajlı bədii filmləri, o cümlədən, Vahid Talıbovun “Lağım” və “Arzular... arzular”, Şamil Nəcəfzadənin “İthaf”, Elçin Hami Axundovun “Güzgü” qısametrajlı animasiya filmləri, Pərviz Həsənovun “Uşaqlıq fotosu” və Aynur Kazımovanın “Unudulmuş arzular” sənədli filmləri təqdim olunacaq. Ənənə üzrə, nümayişlərdə filmlərin yaradıcı heyətinin tamaşaçılarla müzakirələr aparacağı layihə aprelin sonunadək davam edəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Xuntaçıların məhkəməsində**

# Xocalı soyqırımının təşkilatçıları və icraçıları Ermənistanın siyasi-hərbi rəhbərliyinə yüksəliblər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 17-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Əvvəlcə təqsirləndirilən şəxs Arkadi Qukasyan məhkəmənin ötən iclasında tədqiq edilmiş sənədlərlə bağlı dindirilib. O, dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən azərbaycanlıların Xankəndidən çıxmağa məcbur edildiklərini etiraf edib.

O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zaman Robert Köçəryanla 1992-ci ildən, Samvel Babayanla 1993-cü ildən, Murad Petrosyanla 2000-ci ildən sonra tanış olduğunu bildirib.

Təqsirləndirilən şəxs Xəlfəliçay üzərindəki körpünün partladılması barədə suala cavabında bu hadisəni xatırladığını, habelə 1988-1993-cü illərdə Ermənistan tərəfindən vaxtilə işğal edilmiş Azərbaycan ərazilərində törədilən hadisələrin qəhrəmanlıq deyil, faciə olduğunu deyib.

Arkadi Qukasyan, həmçinin 1990-cı il martın 23-dən 24-nə keçən gecə erməni silahlılarının Qazaxın Bağanıs Ayrım kəndində qətliam törətmələri barədə deyib ki, bu hadisələrə müsbət yanaşmaq mümkün deyil. O əlavə edib: "Bu qəddarlığı kimin törətməsindən asılı olmayaraq, yaxşı qiymət vermək düzgün deyil. Buna qadir olan insanlar təbii ki, mühakimə olunmalıdır. Burada münasibət yalnız bir cür olmalıdır, başqa qiymətləndirmə ola bilməz".

Sonra Baş Prokurorluğun Dövlət İttihamının Müdafiəsi üzrə İdarənin şöbə rəisi Nəsir Bayramov cinayət işinin Azərbaycanın Xocalı şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və azərbaycanlılara qarşı törədilmiş soyqırımı üzrə toplanmış sübutların tədqiqini, zərərçəkmişlərin dindirilməsini təklif edib.

İclasda Xocalı soyqırımınadək rayonda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş çoxsaylı cinayət hadisələri, həmçinin Meşəli kəndinə basqın edilərək sakinlərin qətlə yetirilməsi, evlərin, mağazaların, avtomobillərin, mal-qaranın talan edilib yandırılması üzrə toplanmış sənədlərin, sübutların, fotomateriallarn bir hissəsi təqdim olunub.

Daha sonra Meşəli soyqırımı ilə bağlı sənədlər tədqiq edilib. Sənədlərə əsasən, 1991-ci il dekabrın 23-də saat 7 radələrində Ermənistan hərbçiləri Meşəli kəndinə hücum edərək 25 nəfəri qətlə yetirib, evləri yandırıb, kəndi talayıb, o cümlədən əhalinin mal-qarasını aparıblar. Hadisə ilə bağlı başlanmış cinayət işi üzrə axtarışa verilmiş Vaqif Xaçaturyan saxlanılıb. 2023-cü il noyabrın 7-də Bakı Hərbi Məhkəməsinin hökmü ilə o, 15 il müddətinə azadlıqdan məhrum edilib.

Bundan sonra zərərçəkmiş şəxslər ifadə verib və dövlət ittihamını müdafiə edən prokurorların, zərərçəkmiş şəxslərin nümayəndələrinin, eləcə də təqsirləndirilən şəxslərin müdafiəçilərinin ünvanladıqları sualları cavablandırıblar.

Zərərçəkmiş Elman Məmmədov bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə cəmi 8-9 saat ərzində Ermənistan hərbçiləri tərəfindən 613 dinc sakin, o cümlədən 106 qadın, 63 körpə qətlə yetirilib. Həmin gecə Xocalıda baş verənlər sülh və insanlıq, bəşəriyyət əleyhinə törədilən ən amansız cinayət idi.

O, Xocalıya qarşı ilk hücumun təkcə silahlarla deyil, ideoloji hazırlıqla - mitinqlərlə başladığını bildirib. E.Məmmədovun sözlərinə görə, bəzi mənbələrdə Xocalı əleyhinə ilk mitinqin 1988-ci il fevralın 13-də keçirildiyi yazılsa da, hadisələr, əslində, fevralın 12-də Əsgəranda başlayıb.

1988-ci il sentyabrın 18-də Xankəndidə keçirilən mitinqdə isə artıq açıq şəkildə Xocalıya hücum qərarı qəbul olunub. Onun sözlərinə görə, 10 minə yaxın insan, - təkcə mitinq iştirakçıları deyil, silahlı və xüsusi vasitələrlə təchiz olunmuş şəxslər, - Xocalıya doğru yürüş ediblər.

Zərərçəkmiş şəxs həmin dövrə aid daha bir faktı açıqlayıb: "Xankəndidə fəaliyyət göstərən müəssisələrdən azərbaycanlılar sistemli şəkildə çıxarılırdı. Xocalıdan olan sürücülər, Qarabağ İpək Kombinatında çalışan qadınlar zorakılığa, işgəncəyə məruz qalırdılar. 70-dən çox xocalılı qadın həmin kombinatlarda ən zərərli sexlərdə çalışırdı. Onların üstünə qaynar su tökülür, əlləri-ayaqları əzilir, təhqir olunurdular".E.Məmmədov bildirib ki, Xocalı soyqırımına aparan yol bir neçə mərhələdən ibarət olub. Bunlardan biri də 1991-ci ilin sonlarında Meşəli kəndinin tamamilə yandırılması və 30-a yaxın kənd sakininin qətlə yetirilməsi olub.

Elman Məmmədov Meşəli ilə yanaşı, digər kəndlərin də ardıcıl şəkildə hədəfə alındığını qeyd edərək deyib: "Cəmilli, Malıbəyli, Quşçular və Qaradağlı kəndləri bir-birindən ayrı deyil, bir zəncirin halqalarıdır. Xocalı soyqırımına qədər hər addım dəqiq şəkildə planlaşdırılmışdı. Təşkilatçılar və prosesə rəhbərlik edənlər zaman-zaman Ermənistanın siyasi-hərbi rəhbərliyində təmsil olunublar".

E.Məmmədov bildirib ki, bu dəhşətli hadisələrin hamısı Ermənistanın dövlət səviyyəsində apardığı planlı və sistemli etnik təmizləmə siyasətinin nəticəsidir.

Dövlət ittihamçıları Fuad Musayevin və Vüsal Abdullayevin də suallarını cavablandıran zərərçəkmiş şəxs deyib ki, soyqırımına qədər Xocalı təkcə hücumlara yox, həm də blokada şəraitində fiziki məhvə məruz qalmışdı. "1992-ci il yanvarın 28-də sonuncu mülki vertolyot Ağdamdan Şuşaya uçarkən Xankəndi üzərində ermənilər tərəfindən vuruldu, nəticədə təxminən 50 nəfər həyatını itirdi. Bu hadisədən sonra vertolyot uçuşları tamamilə dayandırıldı. Beləliklə, Xocalı tam blokadaya düşdü, hava yolu da qalmadı", – deyə E.Məmmədov diqqətə çatdırıb.

Zərərçəkmişin sözlərinə görə, 1992-ci il fevralın 25-də axşam saatlarına yaxın artıq müxtəlif yerlərdən Ermənistan silahlı qüvvələrinin Xocalıya hücum etməsi barədə məlumatlar gəlməyə başlayıb. "Bu, sadəcə, bir hücum deyil, böyük hərbi əməliyyat idi. Onların texnikası və say üstünlüyü o qədər böyük idi ki, Xocalının azsaylı müdafiə qüvvəsi bu gücə qarşı tab gətirə bilməzdi. Mühasirə 3 saata yaxın davam etdi. Gecə saat 11-dən etibarən şəhər ağır artilleriya və zirehli texnika ilə atəşə tutuldu. Bütün Xocalı alova qərq oldu", - deyə o qeyd edib.

E.Məmmədovun sözlərinə görə, müqavimət qeyri-mümkün idi. Nəticədə şəhərin boşaldılması qərarı verildi. Yeganə çıxış yolu Ağdam istiqaməti idi. Amma Əsgəran yolu erməni hərbçilərin nəzarətində idi. Ona görə də camaat meşə yolları ilə hərəkət etməyə məcbur oldu. Amma bu da əvvəlcədən planlaşdırılmış tələ idi.

O, Ermənistan rəsmilərinin sonradan səsləndirdiyi "humanitar dəhliz" iddialarına da münasibət bildirib və deyib: "Robert Köçəryan, Serj Sarkisyan, Vitali Balasanyan, Seyran Ohanyan - bu hərbi canilər özləri sonradan deyiblər ki, guya "humanitar dəhliz" vermişdilər. Həmin dəhliz yox idi. Bu, əhalini tələyə salmaq üçün qurulmuş "ölüm zonası" idi. Əsgəranla Ağdam arasında təpələrdə texnika yerləşdirilmişdi. Məqsəd aydın idi – Xocalıdan sağ çıxan olmasın ki, bu vəhşiliklər barədə sonradan danışılmasın.

Zərərçəkmiş Kübra Məmmədova bildirib ki, Xocalı işğal ediləndə o, iki yaş yarımlıq olub. Bacısının dediyinə görə, Xocalı hər tərəfdən atəşə tutulub. Evdən çıxarkən anası onu, atası isə bacısını kürəyinə bağlayıb. Həmin gecə atasına güllə dəyərək həlak olub. Atasının kürəyinə bağladığı bacısı Xəyalə durub qaçarkən ona da güllə dəyib və həyatını itirib. Ardınca isə güllə anasına dəyib. Anası yerə çökərək onu kürəyindən açıb yanına qoyub və bundan sonra yıxılıb. Bacısı Xatirə onu götürmək istəsə də, ona da güllə dəydiyindən və yaralandığından huşunu itirib. Zərərçəkmiş qeyd edib ki, təxminən 3 gün orada qaldıqdan sonra onu anasının qoynundan donmuş vəziyyətdə ölmüş bilərək götürüb və Ağdam rayonuna gətiriblər. Ağdam şəhər məscidində yuyarkən üzərinə su töküləndə ayılıb. Bundan sonra məsciddə olan tibb bacısı onu öz evlərinə apararaq bir müddət orada saxlayıb. Sonra anasının onun qoynuna yazıb qoyduğu kağız parçasına əsasən, onu axtaran qohumlarına verilib. Faciədən sonra bacısı Xəyalə, əmisi Elman, anası, 9 gün sonra isə atası Ağdam Şəhidlər xiyabanında dəfn olunub. Ermənilər atasının meyitini təhqir edərək başının dərisini soyublar.

Zərərçəkmiş şəxs Fitat Məmmədova deyib ki, həmin gecə Xocalı hər tərəfdən müxtəlif silahlardan atəşə tutulub. Onlar şəhərdən çıxaraq Qarqar çayını keçib Kətik meşəsinə gediblər. Meşəyə girərkən ermənilər onun olduğu dəstəni atəşə tutublar. Həmin vaxt yaxınlıqda mərminin partlaması nəticəsində oğlu Gündüzə qucağında qəlpə dəyib və o, həlak olub, özü isə yaralanıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli və dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman zərərçəkmiş qeyd edib ki, həyat yoldaşı Səlim Həşimov Xocalıdan çıxandan sonra Naxçıvanlı kəndi yaxınlığında yerləşən "Qara qaya" deyilən yerdə sağ əlindən yaralanıb. Digər sakinlərlə birgə Ermənistan hərbçiləri tərəfindən girov götürülərək Əsgərana aparılıb və orada milis şöbəsinin təcridxanasında saxlanılıb. Anası Tamaşa Məmmədova qardaşı Rasim Məmmədovla birlikdə digər Xocalı sakinləri ilə Kətik kəndi istiqamətində gələrkən Ermənistan hərbçiləri zirehli transportyorla onların qarşısını kəsib və qardaşını alnından güllə ilə vuraraq öldürüblər. Digər qardaşı Vasif Məmmədov isə girov götürülərək Əsgərana aparılıb. Ermənilər Əsgəran milis şöbəsinin təcridxanasında həyat yoldaşı Səlimə işgəncə verərək onun diri-diri ürəyini çıxarıblar.

Qardaşı Vasifə işgəncə verərək qollarını və ayaqlarını sındırıb, sonra güllələyərək öldürüblər. Qardaşı oğlu Zahiri də yaralı halda tutaraq sonradan güllələyiblər.

Zərərçəkmiş Zöhrab Muradov diqqətə çatdırıb ki, Xocalının ilk şəhidi onun qardaşı Zahid Muradov olub. Ermənilər "Alazan" tipli raket atıblar, bir qardaşı şəhid olub, digəri yaralanıb.

Zərərçəkmiş ifadəsində bildirib ki, o, Əsgəranda qaz idarəsində işləyib. 1987-ci ildə ermənilər azərbaycanlı olduğu üçün onları işdən çıxarıblar, dördaylıq maaşlarını da verməyiblər. Xocalı faciəsi törədilən vaxt o, Ağdamda olub. Zərərçəkmiş Şelli kəndində Xocalıdan qaçmış sakinləri ayaqyalın, nazik geyimdə, yaralanmış, donmuş vəziyyətdə, suyun, palçığın içində görüb. Qardaşı Zahidin, babası Əzimin və iki övladının ermənilər tərəfindən amansızcasına öldürüldüyünü öyrənib.

Zərərçəkmiş Azər Cəbrayılov ifadəsində Xocalı soyqırımı zamanı 8 yaşının olduğunu deyərək bildirib: "Biz Şelliyə çatmağa az qalmış anam şəhid oldu, mən, atam və bacım yaralandıq".

Məhkəmənin növbəti iclası aprelin 18-nə təyin olunub.

***XQ***

**Yeni dünyanın kodları**

# Zəkamız haraya gedir?

## *Süni intellektin etik sərhədləri və insan faktoru*




**Süni intellekt bu gün artıq təkcə texnologiya deyil – həm də sualdır. İnsanı düşündürən, cavab axtaran, bəzən isə narahat edən bir sual: Zəka bizim tərəqqimiz üçünmü yaranır, yoxsa bizi əvəz etmək üçünmü hazırlanır?**

Bu gün süni intellekt tibb sahəsində diaqnoz qoyur, hüquq sistemində təhlil aparır, təhsil platformalarında müəllimi əvəzləyir. Amma sual qalır: Qərar verən kimdir – insanmı, yoxsa alqoritm?

Etik dilemmlar getdikcə dərinləşir. Hiss etməyən bir "ağıllı" sistem hansı qərarı "düzgün" sayacaq? Dəyərləri olmayan bir texnologiya hansı dəyər üzərində dayanacaq?

Zəkanın imkanları genişdir, amma bu imkanlar nəzarətsiz olduqda, məsuliyyətsizlik doğura bilər. Ona görə də süni intellektin inkişafı ilə paralel, onun əxlaqi və hüquqi çərçivəsi də formalaşdırılmalıdır. Bu, təkcə mühəndislərin deyil, cəmiyyətin, dövlətin və hər bir fərdin məsuliyyətidir.

İlk dəfədir ki, bəşəriyyət öz zəka modelini özü formalaşdırır. İndi məsələ bu modelin – insanın yanında, yoxsa yerində olacağı ilə bağlıdır. Və bu seçim bizim əlimizdədir.

***Hazırladı:***
***Oğuz ARİF,***
***süni intellekt***


# "Nərimanov Sənayetikinti" ASC səhmdarlarının nəzərinə!

2 iyun 2025-ci il saat 10.30-da "Nərimanov Sənayetikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1.** Cəmiyyətin direktorunun hesabatı.

**2.** Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatlarının müzakirəsi və təsdiqi.

**Əlaqə telefonu-496-94-68.**

**Ünvan – Az 1008, Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 22.**



# "Saxsı Qablar" ASC səhmdarlarının nəzərinə!

4 iyun 2025-ci il saat 10.00-da "Saxsı Qablar" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1.** 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Dividendlərin ödənilməsi.

**3.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

**Əlaqə telefonu – 070-306-66-98.**

**Ünvan – Bakı şəhəri, Heydər Əliyev prospekti 102.**



# "Bakı Toxuculuq Qalantereya" ASC səhmdarlarının nəzərinə!

5 iyun 2025-ci il saat 10.00-da "Bakı Toxuculuq Qalantereya" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1.** 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Dividendlərin ödənilməsi.

**3.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

**Əlaqə telefonu- 012-425-01-91.**

**Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Anaşkin küçəsi 39.**



# Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

*2025-2026-cı tədris ili üçün aşağıdakı kafedralarda boş olan və ya müqavilə müddəti başa çatmaqda olan vəzifələri tutmaq üçün*

# MÜSABİQƏ ELAN EDİR

1. Dövlət idarəçiliyi və menecment kafedrası – dosent - 1ştat.
2. Politologiya və siyasi idarəetmə kafedrası – dosent -1ştat.
3. Fəlsəfə və sosial psixologiya kafedrası – dosent -1 ştat.
4. İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrası – dosent-2 ştat.
5. İntellektual sistemlərin idarə olunması kafedrası – baş müəllim-1 ştat.

Müsabiqə elan edilən vəzifələrə qəbul "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması Qaydaları haqqında Əsasnamə"yə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 403 saylı əmrinə Əlavə- 1) uyğun olaraq aparılır.

Dosent vəzifəsini tutmaq üçün müsabiqədə professorlar, dosentlər, elmlər doktorları və müvafiq elm sahəsi üzrə fəlsəfə doktorları iştirak edə bilərlər.

Baş müəllim vəzifəsinə elan olunmuş müsabiqədə ən azı 3 illik elmi-pedaqoji stajı olan müvafiq elm sahəsi üzrə fəlsəfə doktoru və ya ən azı 5 illik elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, kafedranın profili üzrə çap olunmuş elmi-metodiki işləri olan yüksək ixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.

Müsabiqə rektorun əmrilə yaradılan xüsusi komissiya vasitəsilə keçirilir və aşağıdakı mərhələləri əhatə edir:

– iddiaçının təqdim etdiyi göstəricilərin qiymətləndirilməsi;
– müsahibə;
– müəllimin dərs təqdimatı.

Müraciət ərizəsində iddiaçıların hansı kafedranın vakant olan (və ya olacaq) ştatına işə qəbul olunmaq üçün müsabiqədə iştirak etmək istədiklərinin qeyd edilməsi vacibdir.

**Əlaqə telefonu – (012) 492-81-12.**

**Ünvan – AZ 1001, Azərbaycan Respublikası, Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi 74.**

***REKTORLUQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 76 (30770) 18 aprel 2025-ci il, cümə


İdman

## Boksçumuz cəzalandırılıb



**Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan boksçusu Fərid Sadıqovu diskvalifikasiya edib.**

Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) verilən məlumata görə, Azərbaycan çempionatının bürünc medalçısının orqanizmində qadağan edilmiş maddə və ya onun metabolitləri, yaxud markerlərinin mövcudluğu aşkarlanıb. O, 48 ay müddətinə idmandan kənarlaşdırılıb.

F.Sadıqovun cəzasının müddəti 2028-ci il yanvarın 1-də başa çatacaq.

## Şahmatçı “Çempionların savaşı”




**Azərbaycanın və dünyanın aparıcı şahmatçıları Milli Xalça Muzeyində rapid və blits üzrə “Çempionların savaşı” adlı turnirdə mübarizə aparacaqlar. Yarışda qədim sənət növü ilə dünyanın ən qədim oyunu vəhdət təşkil edərək, zəka sahiblərinin mübarizəsinə çevriləcək.**

“Çempionlar savaşı”nda Azərbaycan çempionu Rauf Məmmədov 15-ci dünya çempionu Vişvanatan Anandla (Hindistan), qadınlar arasında ölkə çempionatının qalibi Günay Məmmədzadə isə dünya və Avropa çempionu Antoaneta Stefanova ilə qarşılaşacaq.

Gənclər və İdman Nazirliyi, Şahmat Federasiyası və Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə təşkil ediləcək yarış aprelin 27-dən 30-dək davam edəcək.

Qeyd edək ki, Vişvanatan Anand, Rauf Məmmədov, Antoaneta Stefanova və Günay Məmmədzadə aprelin 27-də ölkə birinciliyinin qalibi olan yeniyetmə şahmatçılara seans keçirəcəklər.

## “3 ulduz”lu boks hakimlərimiz



**Boks üzrə Azərbaycan referiləri Anar Nağdıyev, Rövşən Qədirov və Qalib Əbiyev növbəti hakimlik imtahanından uğurla keçiblər. Təmsilçilərimizin beynəlxalq kateqoriyası 2 ulduzdan 3 ulduza artırılıb.**

Bu nailiyyətə Rövşən Qədirovla Qalib Əbiyev Rumıniyanın Breila şəhərində təşkil olunan “Drakula Open”, Anar Nağdıyev Bolqarıstanın paytaxtı Sofiyada keçirilən “Strandja” beynəlxalq turnirində imza atıb. IBA yarışda nəzəri və praktiki dərslərə qatılan həmyerlimizin imtahandan uğurla keçdiyini açıqlayaraq, onların ulduzunu artırıb. Bununla da ölkəmizdə 3 ulduzlu hakimlərin sayı 6-ya yüksəlib. Daha öncə Emil Qurbanəliyev, Anar Babanlı və Fuad Aslanov da bu kateqoriyaya yüksəliblər.

Qeyd edək ki, Azərbaycan Boks Federasiyası həm milli, həm də beynəlxalq kateqoriyaya malik hakimlərimizin peşəkarlıq səviyyəsinin artması, onların sayının çoxalması istiqamətində işləri davam etdirir.

***L.QURBANOVA***
***XQ***

***✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən “Az-maş” QTSC-yə verilmiş 089973 seriya nömrəli, 21 iyul 2016-cı il tarixli, İN/L-1638/2016-cı il qeydiyyat nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır. VÖEN(1000517421).***

Təbiət abidələrimiz

# “Damcılı bulaq”, yoxsa “Şəlalə bulaq”?



## Qazaxda nadir təbiət hadisəsi

**Son iki-üç gündə Qazaxdakı məşhur Damcılı bulağa gələnlər qəribə hadisə ilə qarşılaşıblar. Yüz illərdir min metr yüksəklikdən, qayalardan süzülüb damcı-damcı gələn bulaq birdən-birə şəlaləyə çevrilib. Yəni “Damcılı bulaq” “Şəlalə bulaq” olub.**

Son günlərdə Qazaxda da yağışlar ara vermir. Dağlardan süzülən sular birləşərək güclü axın əmələ gətirib və bu da gur bir şəlalə yaranmasına səbəb olub. Yaşlı sakinlər bildirirlər ki, Damcılı bulağı heç vaxt belə görməyiblər.

Avey Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən bulaqda baş verən nadir təbiət hadisəsinə baxmaq istəyənlər bura gəlir, füsunkar şəlaləyə baxırlar. Çünki iki-üç il əvvəl keçən quraqlıq, yağıntıların azalması bu bulağa birbaşa təsir göstərmişdi. Məlumat üçün qeyd edək ki, digər bulaqlardan fərqli olaraq Damcılı bulağı yerin təkindən deyil, qayalardan süzülərək tökülür. Vaxtilə bu yerlərdə gur sulu çaylar olub. Amma indi yoxdur. Ona görə də hazırda əsas su mənbəyi Damcılı bulağıdır. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, təbii antropogen təsirlərlə bulağın suyunda nəzərəçarpacaq dərəcədə azalma müşahidə olunur. İndi, bu günlərdə, bulağın suyunun birdən-birə gur gəlməsi, şəlalələr yaranması insanları sevindirsə də, düşünməyə də vadar edib: “görəsən əvvəlki su kimi bumbuz, təmiz, dadlı olacaq?”

Damcılının çox qədim tarixi var və bu tarix daş dövrünə gedib çıxır. Bunu onun ətrafında yerləşən yüzlərlə mağara da sübut edir. Ərazidə alban məbədi də var.

*“Axıb gəlsin hər qapıya Damcılının bulağı,*
*Cərgə-cərgə qatar vursun üzüm bağı, nar bağı.”*

Xalq şairi Səməd Vurğunun nəzmə çəkdiyi bu sətirlərdə bir həqiqət də var ki, bulağın suyu vaxtilə gur olub, lap elə bu günlərdə yaranan şəlalələr kimi. Böyük şairimiz başqa bir yerdə Damcılını dünyanın 8-ci, Azərbaycanın 1-ci möcüzəsi adlandırıb.

Əslində, Damcılı illər boyu yerli sakinlərin də, qonaqların da bir növ piknik məskəni, əsas istirahət yeri olub (şəkildə). Yay gələn kimi Avey dağının ətəyində yerləşən bulağa gələnlərin sayı-hesabı olmur. Adamlar nəhəng qayalardan süzülən saf və duru, buz kimi soyuq su damcılarını ovuclarına yığır, “oxay...” deyib ləzzətlə içirlər. Bura gəlib evinə ən azı bir qab su aparmayana rast gəlmək qeyri-mümkündür.

...“Avey” Dövlət Qoruğunun Damcılı filialının müdiri Qafar Cəfərovla söhbət edirəm. Hiss olunur ki, bütün varlığı ilə təbiətin yaratdığı bu möcüzənin nəinki vurğunudur, həm də onun keşikçisidir.

– On beş ilə yaxındır burada işləyirəm, ilk dəfədir ki, belə bir hadisə ilə qarşılaşıram. Əslində əvvəllər də güclü yağışlar olanda bulağın suyu artırdı. Bu dəfə isə əməlli-başlı möcüzə oldu. Az qala bir kilometr yüksəklikdən tökülən sular möhtəşəm şəlalələr yaratdı. İndi hələ səngiyib. Birinci gün şəlalənin səsini eşidib az qala bütün Daşsalahlı kəndi (bulaq bu kəndin yaxınlığında yerləşir-H.Q.) belə bir mənzərəni izləmək üçün Damcılıya axışmışdı.

Qafar müəllim onu da əlavə etdi ki, bu suyun tərkibi dəfələrlə yoxlanılıb və saflığına görə heç bir su Damcılı bulağının suyuna çatmaz. Çünki süzülərək gəlir. Heç bir daşa töküb süzməyə ehtiyac yoxdur.

Filial direktoru “daş” deyəndə, Qazaxda düzəldilən su daşlarını nəzərdə tutur. Bu susüzənlər hər daşdan olmur. Onun da xüsusi ustaları, hətta sexlər var. Qaya parçalarından hazırlanan müxtəlif ölçülü susüzən daş qablar asanlıqla düzəldilmir. Dağlardan toplanan daşlar oyulur, içi su ilə doldurulub formaya salınır, sonra isə yonulur. Maraqlıdır ki, belə daşlar 15-20 litr suyu bir sutkaya tamamilə süzür və beləliklə, indi evlərin çoxunda olan filtləri onlardan da yaxşı əvəz edir.

Bu faktı ona görə qabarıq qeyd edirik ki, ən nəhəng su daşı elə Damcılı bulağının özüdür. Su görün neçə yüz metr məsafədən qayaların arası ilə süzülə-süzülə gəlir.

...Dağın ətəyindəyik. Şəlalələrin təzyiqi səngisə də bir-birimizi güclə eşidirik. Bir tərəfdən də, şəlalənin suyunu qayaların arasında sağa-sola çırpan külək...

Qazaxlıların fəxr etdikləri adlar, tarixi yerlər çoxdur. Damcılı bulağı, Göyəzən dağı, Didivan qalası... Şeirlə, sənətlə nəfəs alan qazaxlılar bu möcüzəli yerlərə şeirlər, dastanlar qoşublar, rəvayətlər söyləyiblər. Deyilənə görə, mərhum şair Hüseyn Arif Bakıda yaşayan qonşusunun ona dəfələrlə “məni Damcılıya apar” – təkidindən sonra doğma rayonuna qonaq aparır, yeyirlər, içirlər. Qonşusu heyran qalır. Sonralar hər dəfə “bir də nə vaxt gedək?” – deyib şairin zəhləsini tökəndə Hüseyn Arif qayıdır ki, “səhər tezdən bizdə ol, gedək”. Qonşu sevincək, əlində də çantası şairin evinə gəlir. Görür Hüseyn Arif heç yola çıxan adama oxşamır, o otağa keçir, bu otağa keçir. Qonşusunun həsrətlə ona baxdığını görən şair onun əlindən tutaraq otaqlardan birinə keçirir. Sən demə, neçə gün imiş yuxarıdakı mərtəbədən şairin mənzilinə su axırmış. Həmişə baməzə söhbətləri ilə seçilən Hüseyn Arif yuxarıdan damcı-damcı tökülən suyu qonşusuna göstərərək – “təsəvvür et ki, bura Damcılı bulağıdır, əyləş bax, indi tapşıraram sənə çay da gətirərlər” – deyir.

...Damcılıdan aralandıqca bir-birimizi daha aydın eşidirik. “Yayda qonağımız olun”, deyir, – burada adam əlindən tərpənmək olmur. Mahnı oxuyan kim, əl-ələ tutub “yallı” gedən kim, saz dilləndirən kim... Şeir də ki, iki qazaxlıdan biri mütləq bilir. İstəyirsiniz birini də mən deyim:

*Avey dağı bir tarixdir əzəldən,*
*Yadigardır babaların izindən.*
*Damla-damla yaş axıdan gözündən,*
*Damcılı bulağa gəl, Qazaxdadır...*

Bir anda şiddətlə göy guruldayır, şimşək çaxır. Qafar müəllim hər iki əlini gözlərinin üstünə tutub səmaya baxır, “deyəsən sabah yenə gur şəlalərimiz yaranacaq və dağlara səs salacaq...” – deyir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Qazax rayonu**



HAVA

## Yağmursuz və dumanlı cümə günü



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək. Gecə 6-9°, gündüz 14-19° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 mm civə sütunu, nisbi rütubət gecə 55-60, gündüz 40–45 faiz olacaq.**

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 14-19° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Gecikmiş qış “sevgi”si

**Artıq gücü çatmır, yorulub əldən düşüb. Nə qədər çalışır, bacarmır. Gölləri, çayları dondurmaq istəyir, buludların arasından ona gülüb, tez də çəkilən günəşi görür...**



Duyğu yarpaqları

“Hakimiyyəti itirmək” nə pis iş imiş, balam. İndi səni sayan da yoxdur. Heç qorxan da. Nə olsun ki, yağdırmısan, oranı buranı ağartdırmısan. Göygölü, Maralgölü ki, daha dondura bilmirsən. Yağdırırsan də özün üçün. Varlığını sübut etmək, keçənləri yada salmaq istəyirsən. Amma nahaq. Yaz gəlib ey, yaz! Çıx get. Bir o ağartdığın yerə bax. Zanbaq gülünü görürsənmi? Heç vecinə də deyil sənin o öləzəmiş qarın. Gör necə məğrur dayanıb. Sabah Ana Günəşi qarşılayacaq. Səni isə heç görən də yoxdur. Görsələr də görməməzliyə vururlar, sanki yoxsan. Get, get qayıt evinə-eşiyinə. Bir də növbən çatanda gələrsən...

Bunları Göygöl Milli Parkının direktoru Fuad Quliyevə söyləyəndə, “bilirəm, qışı nəzərdə tutursunuz”, – deyib gülümsədi. “Çağırılmamış qonaq” olsa da, xətrinə dəyməyək, müəllim. Bu onun gecikmiş məhəbbətidir. Hər fəslin öz gözəlliyi var və bizim göllər hər fəsildə gözəldir”

***H.ZEYNALOĞLU***
***XQ***

SAĞLAMLIQ

# Sirkəsiz olmasın süfrələrimiz

**Sirkə ənənəvi tibbdə uzun müddət istifadə edilən və sağlamlıq üçün çox faydalı təbii məlhəmdir. Xalqımız sirkədən əsrlərdir ki, həm mətbəxdə, həm də təbii müalicə vasitəsi kimi istifadə edir.**

Xüsusilə, alma sirkəsinin tərkibindəki vitaminlər, minerallar immunitet sisteminə, həzmə, qan şəkərinin idarə edilməsinə güclü təsir edir.

Ənənəvi təbabətdə müxtəlif xəstəliklərə qarşı əlavə olaraq istifadə edilən sirkə düzgün qəbul edildikdə sağlamlığın qorunmasında mühüm rol oynayır. Xüsusilə, yeməkdən sonra içilən alma sirkəsi qan şəkərinin səviyyəsini tarazlaşdırır. Tip 2 diabetli xəstələrdə insulinə həssaslığı artırır.

Bundan başqa, sirkə toxluq hissi yaradaraq daha az kalori qəbul etməyə kömək edə bilər. Bu da çəkiyə nəzarəti dəstəkləyər. Araşdırmalar sirkənin pis xolesterini aşağı sala və yaxşı xolesterolu artıra biləcəyini göstərir.

Sirkə həm də təbii dezinfeksiyaedicidir. Ondan kiçik dəri infeksiyaları və ya boğaz ağrılarında kompres və qarqara kimi istifadə edilir. Sirkə yeməkdən əvvəl qəbul edildikdə mədə turşusunu



artırır, yeməyin yaxşı həzm olunmasına kömək edir.

Ondan saç durulama vasitəsi kimi istifadə edildikdə kəpəyi azaldır. Sirkənin immun sistemini gücləndirən probiotik təsiri də var.

***Z.HÜSEYNLİ***
***XQ***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3404
SİFARİŞ 746
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00